RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 49 (9504) 3 mart 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## "Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq"



### Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

**"Euronews":** Xahiş edirik, ilk növbədə bizə bugünkü tədbirlərin enerji sənayesi üçün əhəmiyyətindən, "Cənub qaz dəhlizi"nin uğurlu istismarı və inkişafındakı nailiyyətlər və gələcək addımlar barədə danışasınız.

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz ki, biz bu layihəyə başlayanda bunun necə olacağına dair çoxlu müxtəlif ideyalar var idi. Nikbin düşünənlər də, bədbin düşünənlər də var idi. Həmçinin elələri də var idi ki, düşünürdülər, biz bunu həyata keçirə bilməyəcəyik. Lakin biz əzmli idik və bilirdik ki, bunu etmək mümkündür. Ancaq bizim geniş beynəlxalq əməkdaşlığa ehtiyacımız var idi. Ona görə də bizə öz maliyyə imkanları ilə dəstək göstərmələri üçün aparıcı beynəlxalq maliyyə institutlarını dəvət edərək ölkələr arasında, şirkətlər arasında bu əməkdaşlığı qurmağa başladıq. Uzunluğu 3500 kilometr olan kəmər artıq arzu deyil, reallıqdır və o, getdikcə daha çox ölkələri əhatə edir. Çünki bu gün açılış mərasimində dediyim kimi, bizim təbii qazı yeni təyinat nöqtələrinə nəql etməyə imkan verən yeni interkonnektorlarımız var. Bu, həqiqətən də enerji təchizatının, enerji təhlükəsizliyi ilə bağlı məsələlərin coğrafiyasını tamamilə dəyişir. On il bundan əvvəl başladılan təşəbbüsün yaxşı nəticələrini görəndə, əlbəttə ki, insan özünü hər zaman xoşbəxt hiss edir.

→ 2

## Mavi yanacaqdan "yaşıl enerji"yə




### Qaz ixracını artırmağın yollarından biri daha çox bərpaolunan enerji istehsal etməkdir

Qaz ixracının artırılmasının daha bir yolu da var. Bu, "yaşıl enerji" sayəsində əldə ediləcək. Belə ki, bərpaolunan enerji mənbələrimiz indi elektrik enerjisi istehsalına yönəldilən təbii qaza daha çox qənaət etməyə imkan verəcək.

Azərbaycan bu istiqamətdə də irəliyə doğru uğurlu addımlar atıb. İşğaldan azad olunmuş ərazilər, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib. Keçən ilin nailiyyətləri sırasında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyasının istifadəyə verilməsi xüsusi əhəmiyyət daşıyır. Bir neçə bərpaolunan enerji layihələri isə tikinti, qiymətləndirmə və layihələndirmə mərhələlərindədir.

Prezidentimiz bərpaolunan enerji ehtiyatları baxımından nəhəng pontensialımızın olduğunu və "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji" nəql edəcəyimizi vurğulayıb. Qənaət ediləcək mavi yanacağın isə "Cənub qaz dəhlizi"nə əlavə bir töhfə olacağını deyib. Çünki qaz və bərpaolunan enerji layihələri, əslində, bir-birini tamamlayır.

Təsadüfi deyil ki, artıq ikinci ildir "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclası ilə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurasının da iclası keçirilir. Azərbaycanın COP29-a evsahibliyi etməyə hazırlaşdığı, bütün dünyanın nəzərlərinin getdikcə Bakıya sarı daha çox yönəldiyi bir məqamda bütün bunların önəmi birə-beş artır.

→ 4

## Avropa Azərbaycana möhtacdır

### İlham Əliyevin qlobal enerji layihələri beynəlxalq əməkdaşlığın unikal formatını yaradıb

İlham Əliyevin 8 il əvvəlki uzaqgörənliyi indi reallığı əks etdirir. Nəyi nə zaman etmək lazım olduğunu yaxşı bilən, sözü imzası qədər keçərli olan və yürütdüyü tam müstəqil siyasətlə Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdan İlham Əliyevin illər öncə söylədiyi fikirlər həqiqətən də bu yeni "Enerji İpək yolu" olan "Cənub qaz dəhlizi"ni sıx əməkdaşlıq baxımından körpüyə çevirdi. Bu layihə ölkələri, şirkətləri, maliyyə institutlarını elə bir formatda bir araya gətirdi ki, onun təklif etdiyi imkanlara dair istəyi daha da artırdı. Bu gün bu format elə bir körpü rolunu oynayır ki, artıq onun tərkib hissəsini "yaşıl enerji" təşkil edir.

"Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur".

→ 4

## Azərbaycan iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir

İqlim dəyişikliyinin yaratdığı fəsadlar insanların sağlamlığına böyük zərbə vurur, dünyanın qlobal bəlasına çevrilir. Odur ki, bu barədə düşünmək və birgə tədbirlər həyata keçirmək labüddür. Bu istiqamətdə həyata keçirilən ən təqdirəlayiq tədbirlərdən biri BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransıdır. İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasının keçirilməsi üçün ölkəmizin paytaxtının seçilməsi Azərbaycanın bütün dünya üçün dayanıqlı və təhlükəsiz gələcəyə töhfəsi olmaqla yanaşı, respublikamızın beynəlxalq nüfuzunu nümayiş etdirməsinə də imkan yaradır.




...Azərbaycan iqlim dəyişikliyi kimi bütün dünya üçün əhəmiyyətli olan məsələyə böyük həssalıqla yanaşan ölkələrdən biridir. Prezident İlham Əliyevin 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamında bildirilib ki, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Sərəncamda qeyd olunub ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir: "Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır".

→ 6

## Fransanın niyyəti baş tutmayacaq

Ermənistanı silahlarla təchiz edərək onu müharibəyə, revanşa qızışdıran Makronun ölkəmizə qarşı şər, böhtan səsləndirməsi, guya Azərbaycanın Ermənistana hücum edəcəyi kimi sərsəm iddialar irəli sürməsi isə bir başqa tragikomik və Fransa Prezidentinin həyasızlığını əks etdirən növbəti çirkin oyunlar oldu.

Artıq "Qarabağ münaqişəsi" deyə bir problem yoxdur. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, suverenliyini tam təmin etməsi və Qarabağda separatizmin kökünü kəsməsi sayəsində iki ölkə arasında münasibətlərin normallaşmasına da geniş imkanlar açılıb. Amma hadisələrin bu məcraya yönəlməsi müstəmləkəçi Fransanı qətiyyən qane etmir.

Torpaqlarımızın işğal altında olduğu müddətdə də Fransa vasitəçi kimi münaqişənin nizamlanması istiqamətində heç bir addım atmadı, məsələnin Ermənistanın xeyrinə dondurulması üçün dəridən-qabıqdan çıxdı. Çünki münaqişənin həll olunacağı təqdirdə yalan vədlərlə aldatdığı erməni lobbisindən aldığı pullar kəsiləcək, işğal altındakı ərazilərimizdə yeraltı və yerüstü sərvətlərimizi talaya bilməyəcəkdi.

→ 5

## İş adamları İrəvandan qaçırlar

### Vətəndaşların sosial vəziyyəti daha da ağırlaşır, ölkə ifrat yoxsulluq həddinə yaxınlaşır

Elə mövcud hakimiyyətin səriştəsizliyinin nəticəsidir ki, iqtisadçılar 2024-cü ilin də ölkə üçün yaxşı heç nə vəd etmədiyini diqqətə çatdırıblar. Məsələ bundadır ki, Ermənistanda ötən il sosial-iqtisadi vəziyyətdə müsbətə doğru heç bir dəyişiklik olmayıb. Əhalinin maddi gəlirlərində artım qeydə alınmayıb. Yaranan fərq nisbəti vətəndaşların sosial vəziyyətinin daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olubdur.

Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin daha da ağırlaşdığını etiraf edirlər. Hayastanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə də bu göstərici Hayastanda hər 3 nəfərdən birinə aiddir. Bu ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

→ 12

## Avropa Parlamenti qərarlarını erməni lobbisinin pul kisəsinin hesabına çıxarır

### Buna görə də onlardan ədalət gözləməyə dəyməz

Zaman keçdikcə hiss olunur ki, Avropa Parlamenti daha çox erməni maraqlarına xidmət edir. Bunu deməyə parlamentdəki deputatların son günlər keçirilən iclaslarda Azərbaycan əleyhinə yönələn çağırışları əsas verir. Elə bil deputatlar Azərbaycan əleyhinə danışmaq üçün bir-biri ilə yarışa girirlər. Avropa parlamentariləri anlamırlar ki, onların qəbul etdikləri bu qərəzli və ikiüzlü qətnamə və qərarların Azərbaycan üçün heç bir hüquqi əhəmiyyəti və mənası yoxdur. Çünki həqiqət və reallıqdan uzaq olan bu qərar və qətnamələr saxtakarlığa və yalanlara əsaslanır, erməni lobbisinin pul kisəsinin gücünə qəbul olunur. Bu maliyyələşmənin arxasında isə Brüsseldə yaşayan erməniəsilli Kaspar Karapetyan dayanır. O, transmilli cinayətkardır və bir çox bölgədə silah və narkotik ticarəti ilə məşğuldur. K.Karapetyanın biznesi bunların üzərində qurulub və Avropa Parlamentinin deputatlarına verilən rüşvətin mənbəyi də odur. Bu cür cinayətkar qrupların təsiri altında Avropa Parlamentində qəbul olunan qərarlar ədalətli ola bilməz. Ədalətsiz olduğuna görə də reallığı əks etdirmir. Reallığı əks etdirməyən qətnamə və qərarlar isə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil.

→ 5



# "Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq"

## Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

*Əvvəli 1-ci səh.*

**"Euronews":** Bu il həm də çox həlledici ildir. COP29 üfüqdədir. Bu bərpaolunan enerji layihələrinin həyata keçirilməsi həqiqətən də Azərbaycanın dayanıqlı enerjinin gələcəyini necə yönləndirdiyini göstərir.

**Prezident İlham ƏLİYEV:** Bəli, düşünürəm ki, bu, bizim ümumi "yaşıl enerji" gündəliyimizin və məsuliyyət hissimizin bir hissəsini təşkil edir. Çünki qazıntı yanacağı ilə zəngin ölkələr "yaşıl enerji"yə keçiddə ön sıralarda olmalıdır. Biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik.



Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 giqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq.

**"Euronews":** Sizin çıxışınızda bir məqam xoşuma gəldi. Siz söylədiniz ki, neft və qaza malik ölkələr günahlandırılmamalıdır. Qazıntı yanacağına sahib olmaq onların günahı deyil. Siz söylədiniz ki, onlar ətraf mühitin mühafizəsi və "yaşıl enerji"yə keçid məsələsi ilə necə məşğul olduqlarına görə qiymətləndirilməlidir. Siz həqiqətən də belə hesab edirsiniz, elə deyilmi?

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə. Bu işdə bir qədər mövzu dəyişilməlidir. Çünki qazıntı yanacağına sahib olan ölkə olmaq, sözsüz ki, bizim günahımız deyil. Düşünürəm ki, bu, bizim nailiyyətimizdir ki, biz neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacardıq. Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq. Son 20 ildə biz Azərbaycanda yoxsulluğun səviyyəsini 50 faizdən 5 faizə endirdik. Sizin Bakıda bütün gördükləriniz infrastrukturun tamamilə yeni inkişafı və insanların həyat səviyyəsinin yaxşılaşmasıdır. Əfsuslar olsun, indi deyirlər ki, qazıntı yanacağı təhlükəlidir, mənfidir və günah bu ehtiyata sahib olan ölkələrdədir. Mənim mesajım ondan ibarət idi ki, bizə gördüyümüz işə görə, gəlirlərdən insanların ehtiyaclarını təmin etmək və "yaşıl enerji" gündəliyinə təkan vermək üçün necə istifadə etdiyimizə görə qiymət verin. Ümidvaram ki, mesajım eşidiləcək.

**"Euronews":** Cənab Prezident, Zati-aliləri, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm.

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.8-ci bəndinin birinci abzasından ", Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədrindən" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2024-cü il*

# Ə.A.Rəsulovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında arxiv işi sahəsində səmərəli fəaliyyətinə görə Əsgər Adil oğlu Rəsulov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2024-cü il*

# YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib

**Martın 2-də III Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakaya ilə Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov arasında görüş keçirilib.**



Antalya Diplomatiya Forumunun önəmindən bəhs edən Zafer Sırakaya YAP nümayəndə heyətinin səfərinin və forumda yüksək səviyyədə iştirakının Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyib. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin möhtəşəm qələbə qazanması münasibətilə təbriklərini çatdıran Z.Sırakaya bu qalibiyyətin Azərbaycan dövlətinin və regionun, eləcə də türk dünyasının gələcək taleyi baxımından böyük önəmə malik olduğunu qeyd edib.

İki ölkə arasında əlaqələrin ən yüksək zirvədə olduğunu diqqətə çatdıran Z.Sırakaya "Hər zaman iftixarla qeyd edirik ki, Azərbaycan ilə Türkiyə daim bir-birinin yanındadır. Bu birlik xalqlarımızın qürur mənbəyi, dövlətlərimizin isə milli gücüdür", - deyə vurğulayıb. Öz ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycanın regionda və müasir beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirdiyini qeyd edən Zafer Sırakaya ölkəmizə qarşı bəzi qərəzli dairələrin, o cümlədən AŞPA-nın qeyri-obyektiv mövqeyinin qəbuledilməz olduğunu söyləyib.

AK Parti Sədrinin müavini Azərbaycan-Türkiyə birliyinin türk dünyasında rifah və tərəqqiyə xidmət etdiyini, sinxron fəaliyyətin Türk Dövlətləri Təşkilatının güc mərkəzinə çevrilməsinə hədəfləndiyini qeyd edib.



İki hakim partiya arasındakı əlaqələrin Azərbaycan-Türkiyə münasibətlərinin çox önəmli tərkib hissəsi olduğunu nəzərə çatdıran Zafer Sırakaya "AK Parti Yeni Azərbaycan Partiyası ilə işbirliyinə böyük əhəmiyyət verir. Qarşılıqlı səfərlərimiz isə ikitərəfli münasibətlərimizin inkişafı baxımından olduqca vacibdir", - deyə bildirib.

O, 2023-cü ilin dekabr ayında AK Parti nümayəndə heyətinin Azərbaycana səfərini məmnunluqla xatırlayaraq səfər çərçivəsində məhsuldar görüşlərin keçirildiyini vurğulayıb. AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini bildirib ki, YAP ilə AK Parti ortaq hədəflərin reallaşdırılması üçün ardıcıl fəaliyyət göstərirlər və qarşıda duran bütün məqsədləri gerçəkləşdirmək əzmindədirlər.

Səmimi təbrikə və yüksək diqqətə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov "bir millət, iki dövlət" prinsipinə və dostluğa, qardaşlığa, strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin əsrlərin sınağından şərəflə çıxdığını və dünyada nümunəvi xarakter daşıdığını vurğulayıb. O, dövlət başçısı İlham Əliyevin Zəfər seçkilərindən sonra ilk rəsmi səfərini məhz Türkiyə Respublikasına gerçəkləşdirməsinin bu reallığın daha bir bariz nümunəsi olduğunu bildirib.

YAP Sədrinin müavini Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin, Azərbaycan ilə Türkiyənin birgə təşəbbüsləri nəticəsində türk dünyasında həmrəyliyin güclənməsinin bəzi dairələri ciddi narahat etdiyini, ölkələrimizə qarşı ədalətsiz və qərəzli mövqe sərgiləndiyini bildirib. O, belə cəhdlərin istər Azərbaycanın, istərsə də Türkiyənin müstəqil və prinsipial siyasətinə təsir göstərə bilməyəcəyini vurğulayaraq iki qardaş ölkənin öz inkişaf yolunda inamla irəlilədiklərini qeyd edib.

Tahir Budaqov söyləyib ki, Azərbaycan-Türkiyə birliyinin güclənməsində iqtidar partiyaları arasında münasibətlərin mühüm rolu var. 2021-ci il iyunun 2-də iki partiya arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələn vəzifələrin uğurla icra olunduğunu diqqətə çatdıran YAP Sədrinin müavini qarşılıqlı səfərlərin həyata keçirilməsinin bu prosesə töhfə verdiyini söyləyib.

YAP Sədrinin müavini Antalya Diplomatiya Forumunun mötəbər beynəlxalq tədbir kimi dünyanın diqqət mərkəzində olduğunu vurğulayaraq forumun bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının sədri arasında görüş olub

**Martın 2-də III Antalya Diplomatiya Forumu çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) sədri Ünal Üstel arasında görüş keçirilib.**



YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov xalqlarımız arasında ortaq dəyərlərə və tarixi ənənələrə əsaslanan dostluq və qardaşlıq münasibətlərinin nümunəvi xarakter daşıdığını vurğulayıb. O, Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında sıx təmasların olduğunu, müxtəlif sahələri əhatə edən çoxşaxəli və qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu diqqətə çatdırıb.

Tahir Budaqov beynəlxalq münasibətlər sisteminin hazırkı reallıqlarının türk dünyası üçün də yeni çağırışlar yaratdığını söyləyərək "Mövcud gerçəkliklər fonunda xalqlarımızın həmrəyliyi və türk dünyasında səmərəli işbirliyinin həyata keçirilməsi başlıca prioritetlərdəndir", - deyə vurğulayıb. O, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasından sonra yaranmış reallıqlar nəticəsində türk dünyasında da münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini vurğulayıb: "Azərbaycan Prezidenti cənab İlham Əliyev türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinə, Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə xüsusi önəm verir və bu yöndə uzaqgörən siyasət həyata keçirir. Dövlət başçımızın qeyd etdiyi kimi, bizim ailəmiz türk dünyasıdır".



YAP Sədrinin müavini Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyətinin hakim partiyaları arasında işbirliyinin genişləndirilməsinin də xüsusi diqqət mərkəzində olduğunu nəzərə çatdırıb. 2023-cü il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında üçtərəfli Anlaşma Memorandumunun imzalanmasının milli maraqlara əsaslanan qarşılıqlı faydalı əməkdaşlıq üçün etibarlı zəmin yaratdığını bildirən Tahir Budaqov qarşıda duran bütün hədəflərin gerçəkləşdiriləcəyinə əminliyini ifadə edib.

Ulusal Birlik Partiyasının sədri Ünal Üstel Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycanla münasibətlərə böyük önəm verdiyini diqqətə çatdırıb. "Xalqlarımızı ortaq dəyərlər birləşdirir və bizim gücümüz birliyimizdədir",- deyən Ü.Üstel birgə təşəbbüslər əsasında hazırda türk dünyasının yüksələn gücə çevrildiyini vurğulayıb. O, Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə ŞKTC-nin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının əhəmiyyətindən bəhs edərək Azərbaycanın qardaş dəstəyinin Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyini və heç zaman unudulmayacağını bildirib.

Bu ilin iyul ayında TDT-nin Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəvəti əsasında Şimali Kipr Türk Cümhuriyyətinin də təmsil olunacağını məmnunluqla diqqətə çatdıran Ünal Üstel bu faktın dostluq və qardaşlıq münasibətlərimizin sarsılmazlığını bir daha təsdiq etdiyini vurğulayıb.

Hakim partiyalar arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişafının təqdirəlayiq olduğunu diqqətə çatdıran UBP sədri "Türkiyə, Azərbaycan və Şimali Kiprin iqtidar partiyalarının ötən il imzaladıqları anlaşma memorandumu işbirliyinin əsas istiqamətlərini müəyyənləşdirən "yol xəritəsi" kimi böyük əhəmiyyət daşıyır. Memorandumun yüksək səviyyədə icrası bizə əhəmiyyətli uğurlar qazandıracaqdır", - deyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən iki ölkə arasında təhsil və turizm sahələrində əməkdaşlıq məsələləri barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP nümayəndə heyətinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Antalya Diplomatiya Forumunda Avrasiya ölkələri arasında inkişaf perspektivləri müzakirə olunub

**III Antalya Diplomatiya Forumu çərçivəsində "Avrasiyada yeni əməkdaşlıq dinamikaları" mövzusunda panel iclas keçirilib.**



AZƏRTAC xəbər verir ki, panel iclasda Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, Tacikistanın xarici işlər naziri Sirojiddin Muhriddin, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Katibliyinin icraçı direktoru Kairat Sarıbay, Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının sədri Nail Olpak və digərləri iştirak ediblər.

Panel iclasda iqlim dəyişikliyi, qlobal istiləşmə, su qaynaqlarının azalması və bu kimi təbiət hadisələrinin törətdiyi fəsadlar, Avrasiya ölkələri arasında infrastrukturun tranzit dəhlizlərin inkişafında rolu kimi mövzular müzakirə olunub. Həmçinin sessiyada terrorla mübarizə sahəsində əməkdaşlıq, gömrük işinin sadələşdirilməsi, qarşılıqlı ticarətin asanlaşdırılması, enerji təchizatı təhlükəsizliyinin təmin olunması kimi mövzulardan da danışılıb.

Forum davam edir.

# *Ceyhun BAYRAMOV:* "Türkiyə ilə Azərbaycan arasında dünyada bənzəri olmayan münasibətlər mövcuddur"

**Dövlətlərarası münasibətlər baxımından Azərbaycan Respublikasının prioriteti bütün xarici dövlətlərlə qarşılıqlı hörmət əsasında münasibətlərin qurulması, dostluq, bir-birinin işinə qarışmama prinsipindən çıxış edərək əlverişli münasibətlərin yaradılmasıdır.**

Ancaq hər bir dövlət üçün olduğu kimi, təbii ki, Azərbaycan üçün də bütün - 200-ə yaxın dünya dövləti ilə eyni səviyyədə və müstəvidə münasibət qurmaq mümkün deyil. Hər bir dövlət üçün ona daha yaxın dövlət var ki, onlarla münasibətlər daha üst səviyyədə olur, daha geniş əlaqələr mövcuddur. Bəzi ölkələrlə müəyyən sahələrdə əməkdaşlıq həyata keçirilir, digər dövlətlərlə isə normal münasibətlər davam edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində mətbuata açıqlamasında bildirib.

Türkiyə-Azərbaycan münasibətlərinə toxunan nazir bu münasibətlərin hər bir sahədə yüksək səviyyədə olduğunu və artan dinamika ilə davam etdiyini deyib.

Bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin dünyada bənzəri yoxdur: "Biz buna keçmişimizdə də, yaxın tariximizdə də çox konkret addımlar və inkişaflarla şahidi olduq. Bu gün isə daha geniş türk coğrafiyasında, Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında daha da artan, bütün sahələri əhatə edən əməkdaşlığın yeni üfüqlərinin şahidiyik".



Forum çərçivəsində bir çox iştirakçı ölkələrin nümayəndələri ilə görüşlərin keçirildiyini qeyd edən nazir hər bir görüşdə həm ölkəmiz, həm də qarşı dövlətlər və xalqlar üçün önəmli layihələrin müzakirə olunduğunu bildirib.

# Azərbaycanın xarici işlər naziri Antalyada mediaya açıqlama verib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyədə keçirilən III Antalya Diplomatiya Forumu çərçivəsində mediaya açıqlama verib.**

AZƏRTAC xəbər verir ki, Antalya Diplomatiya Forumuna hər il marağın daha da artdığını qeyd edən nazir bildirib: "İştirakçı sayı, panel müzakirələri, dünya mediasında işıqlandırılması baxımından bu platforma Türkiyə diplomatiyasının dünyada artan nüfuzunun əhəmiyyətli göstəricilərindən biridir. Təbii ki, bu, Azərbaycan olaraq bizi qürurlandırır və sevindirir".

Ceyhun Bayramov bildirib ki, Azərbaycan bu forumda geniş heyətlə həm panel müzakirələrində iştirak etdi, həm də digər ölkələrin xarici işlər nazirləri, beynəlxalq təşkilatların rəhbərləri olan 20-yə yaxın dövlət nümayəndəsi ilə görüşlər keçirmək imkanı əldə etdi.

Azərbaycanın XİN rəhbəri dəvət və tədbirin təşkili üçün Türkiyənin xarici işlər naziri Hakan Fidana və forumun təşkilində əməyi keçən hər kəsə həm təbriklərini çatdırdı, həm də təşəkkürünü ifadə etdi.

Azərbaycan ilə Ermənistan arasında davam edən normallaşma prosesinə toxunan nazir deyib: "Fevralın 28 və 29-da Azərbaycan və Ermənistan nümayəndə heyətləri Berlində görüşərək sülh müqaviləsi ilə bağlı danışıqları davam etdiriblər. Bundan əvvəlki yeddi ay ərzində bu danışıqlar fiziki olaraq keçirilməyib. İstənilən halda bu prosesdə fiziki görüşlərin vacib əhəmiyyəti var və son zamanlar bu istiqamətdə yüksək dinamikanı qeyd etmək olar".

Nazir son ikigünlük müzakirələri ümumilikdə faydalı hesab edib: "Həmin iki gün tərəflərin razılaşdırılmayan, açıq qalan yanaşmalarının müzakirəsinə həsr olunub. Hər iki tərəf qarşılıqlı olaraq öz yanaşmasını ifadə edib və bunun ətrafında müzakirələr aparılıb. Konkret tarix olmadan təmasların davamı ilə bağlı razılıq əldə edilib".

Rəsmi Bakının Ermənistandan gözləntiləri ilə bağlı sualı cavablandıran nazir deyib ki, bu gözləntilər məsələnin tam hüquqa əsasən həlli, yalnız sözdə deyil, real olaraq, sənəd və qanunlara istinadən, qarşılıqlı ərazi bütövlüyünün tanınması şərti ilə sülh müqaviləsinin razılaşdırılması və qəbul edilməsidir.

# Xocalıda kütləvi məzarlıqda aşkar edilmiş insan qalıqlarının sayı 13-ə çatıb

**Xəbər verildiyi kimi, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş Xalça Fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı Baş Prokurorluğun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsində araşdırmalar davam etdirilir.**

Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində daha 3 nəfərə aid insan qalıqları aşkar olunub və bununla da kütləvi məzarlıqda basdırılan insan qalıqlarının ən azı 13 şəxsə məxsus olması, onların müxtəlif üsullarla işgəncələrə, qeyri-insani rəftara və fiziki zorakılığa məruz qalmaları, əllərinin kəndirlə bağlanmaları, o cümlədən fərdi şəkildə və mənsub olduqları dinin tələblərinə uyğun qaydada dəfn olunmamaları müəyyən edilib.

Hazırda ərazidə basdırılmış insan qalıqlarının tam müəyyən olunması istiqamətində Baş Prokurorluq tərəfindən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" publik hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası və Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

# Azərbaycanın xarici işlər naziri Antalya Diplomatiya Forumu çərçivəsində bir sıra görüşlər keçirib

Xarici işlər naziri Ceyhun Bayramov III Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev ilə görüşüb.

Xarici İşlər Nazirliyindən bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov bu qurumun türk dünyasında dostluq, qardaşlıq və əməkdaşlığın gücləndirilməsi baxımından ciddi potensiala malik olduğunu qeyd edərək, Azərbaycanın bu potensialın reallaşması istiqamətində Türk Dövlətləri Təşkilatı çərçivəsində atılan addımları, təşəbbüsləri və ideyaları daim dəstəklədiyini vurğulayıb.

Görüş zamanı nazir türk dünyası ilə əlaqələrimizin genişləndirilməsinin və dərinləşdirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioriteti olduğunu vurğulayaraq, bu təşkilat çərçivəsində əməkdaşlığın inkişafı üçün ölkəmizin bərabər səylər göstərməyə hazır olduğunu qeyd edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində TDT ilə mümkün əməkdaşlıq sahələri nəzərdən keçirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə görüşüb.

Xarici İşlər Nazirliyindən bildirilib ki, Azərbaycan və Qazaxıstan arasında mövcud ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyindən məmnunluqla bəhs edən nazirlər, iki ölkə arasında dostluq, qardaşlıq və həmrəyliyə əsaslanan münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüş zamanı həmçinin Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri, nəqliyyat və enerji sahəsində əməkdaşlıq, o cümlədən regionda cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mihail Popşoy ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan-Moldova dostluq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında çoxtərəfli platformalarda (BMT, ATƏT, Avropa Şurası, QDİƏT, GUAM) həyata keçirilən uğurlu əməkdaşlıq və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyi vurğulanıb.

İnvestisiyalar, ticarət, enerji, nəqliyyat kimi sahələrdə ikitərəfli əlaqələrin geniş potensiala malik olduğu bildirilib, bu xüsusda, iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Moldova Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinə xüsusi diqqət ayrılmasının, eləcə də yüksəksəviyyəli səfərlərin önəmi vurğulanıb.

Azərbaycan və Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət və son inkişaflar barədə qarşı tərəfə məlumat verilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında müzakirələr aparılıb.

* * *

Martın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində İraq Respublikasının xarici işlər naziri Fuad Hüseyn ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə cari regional vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan və İraq arasında intensiv qarşılıqlı təmasların və səfərlərin münasibətlərin müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, investisiyalar, mədəni və sair istiqamətlər üzrə uğurlu inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Azərbaycan və İraq arasında tarixi dostluq və həmrəyliyə əsaslanan münasibətlərin ikitərəfli, o cümlədən regional və beynəlxalq platformalar çərçivəsində nümayiş olunan qarşılıqlı dəstəkdə özünü büruzə verdiyi bildirilib.

Qarşı tərəf cari ildə ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri ilə bağlı ətraflı məlumatlandırılıb, mümkün əməkdaşlıq sahələrinə toxunulub və İraq tərəfinin prosesdə yaxından iştirak edəcəyinə əminlik ifadə olunub.

Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, o cümlədən Azərbaycan-Ermənistan normallaşma prosesinin hazırkı durumundan bəhs edib.

Nazir Fuad Hüseyn İraqın Azərbaycanla münasibətlərin daha da inkişafında maraqlı olduğunu deyərək, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsində mövcud potensialdan istifadənin zəruriliyini ifadə edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 2-də III Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) baş katibi Kayrat Sarıbay ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Ceyhun Bayramov Azərbaycanın AQEM-i vahid norma və prinsiplər toplusuna əsaslanan unikal dialoq və əməkdaşlıq platforması kimi qiymətləndirdiyini vurğulayıb.

AQEM prosesinin qurucu üzvlərindən biri kimi Azərbaycanın qarşılıqlı faydalı iqtisadi, sosial əməkdaşlığın inkişafı, müvafiq etimad quruculuğu tədbirləri çərçivəsində birgə təşəbbüs və layihələrin həyata keçirilməsinin, regional və beynəlxalq nəqliyyat, tranzit əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Görüşdə bu il ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində AQEM tədbirinin keçirilməsi və ətraf mühit sahəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparılıb.

* * *

Martın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Lüksemburq Böyük Hersoqluğunun Baş nazirinin müavini, xarici işlər və xarici ticarət naziri, əməkdaşlıq və humanitar məsələlər naziri Xavier Bettel ilə görüş keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə son zamanlar Azərbaycan-Lüksemburq təmaslarında müşahidə olunan canlanma məmnunluqla qeyd edilərək ölkələrimiz arasında siyasi dialoqun vacibliyi vurğulanıb.

Azərbaycanla Lüksemburq arasında əməkdaşlıq əlaqələrinin inkişafı üçün qarşılıqlı səylərin fəallaşdırılmasının, siyasi dialoqun, qarşılıqlı səfərlərin zəruriliyi qeyd olunub.

Görüş zamanı Ermənistanın Azərbaycana qarşı təcavüzü və 30 ilə yaxın davam edən işğalı, Azərbaycan və Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

* * *

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyə Müdafiə Sənayesi Agentliyinin prezidenti Haluk Görgünlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı iki qardaş ölkə arasında hərbi sənaye sahəsində əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olunub.

Bir sıra istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi, habelə digər qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Martın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində ATƏT-in Baş katibi Helqa Şmid ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı Azərbaycan-ATƏT çərçivəsində həyata keçirilən əməkdaşlıq gündəliyi, bölgədəki mövcud vəziyyət, eləcə də Azərbaycan-Ermənistan sülh prosesi müzakirə edilib.

Azərbaycanla-ATƏT arasında bir sıra mümkün layihələr, eləcə də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu il ölkəmizdə keçirilməsi ilə əlaqədar mümkün əməkdaşlıq sahələri nəzərdən keçirilib.

Azərbaycan və Ermənistan arasında mövcud sülh və normallaşma gündəliyində olan son proseslərdən bəhs edən nazir Ceyhun Bayramov Ermənistan tərəfindən müxtəlif platformalarda səsləndirilən anti-Azərbaycan xarakterli bəyanatların, eləcə də həyata keçirilən son təxribatların Ermənistanın səsləndirdiyi sülh ritorikası ilə ziddiyyət təşkil etdiyini vurğulayıb.

Görüşdə digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Bakıda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında ilk konsulluq məsləhətləşmələri keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, İraq Respublikasının nümayəndə heyətinə isə, bu ölkənin Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Ahmed Ali Ameen Al-Sadi rəhbərlik edib.

Konsulluq məsləhətləşmələri zamanı Azərbaycan üçün tərəfdaş ölkə olan İraq Respublikası ilə konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən sahə üzrə yeni ikitərəfli sənədlərin imzalanması və konsulluq xidmətlərinin rəqəmsallaşdırılması imkanları nəzərdən keçirilib.

Məsləhətləşmələr çərçivəsində iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunmasının təmin edilməsi, məhkum olunmuş şəxslərə zəruri konsulluq yardımının göstərilməsi sahəsində səylərin gücləndirilməsi, o cümlədən məhkum şəxslərin verilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi mövzularında müzakirələr aparılıb.

Konsulluq sahəsində həyata keçirilmiş son yeniliklər barədə təcrübə mübadiləsi aparan tərəflər, həmçinin iki ölkə arasında miqrasiya, ədliyyə və digər sahələrdə əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Tərəflər arasında konsulluq məsləhətləşmələrinin növbəti iclasının 2024-cü ildə Bağdad şəhərində keçirilməsinə dair razılıq əldə olunub.

* * *

Martın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi arxiyepiskop Pol Riçard Qallager ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan və Müqəddəs Taxt-Tac arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə cari regional vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında intensiv xarakter daşıyan səfərlər və görüşlərin münasibətlərin inkişafına töhfə verdiyini bildirib. Xüsusilə Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin təsis olunmasından sonra artan təmasların məmnunluq doğurduğu, o cümlədən siyasi, mədəni, humanitar və sair sahələr üzrə əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsində vacib rol oynadığı qeyd edilib.

Bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əməkdaşlıq üçün əlavə imkanlar yaratdığı diqqətə çatdırılıb.

Qarşı tərəf eyni zamanda postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh gündəliyinin son durumu barədə məlumatlandırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Braziliya Xarici İşlər Nazirliyinin baş katibi Maria Laura da Roşa ilə görüşüb.

Azərbaycanın Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında əməkdaşlıq gündəliyi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı məsələlər, habelə regional vəziyyət müzakirə olunub.

Yaxın günlərdə Azərbaycan və Braziliya arasında siyasi məsləhətləşmələrin növbəti raundunun keçirilməsinin məmnunluq doğurduğu diqqətə çatdırılıb. Mövcud əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün Azərbaycanın bu mexanizmin inkişafına əhəmiyyət verdiyi bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin COP29-la bağlı tərəfimizdən görülən hazırlıq işləri ilə bağlı qarşı tərəfi ətraflı məlumatlandırıb. Xüsusilə cari ildə COP29-a sədrliyimiz dövründə COP Üçlüyü çərçivəsində Braziliya ilə əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların mövcudluğu vurğulanıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə məlumat verilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***



# Mavi yanacaqdan "yaşıl enerji"yə

## Qaz ixracını artırmağın yollarından biri daha çox bərpaolunan enerji istehsal etməkdir

**İllər keçdikcə Azərbaycanın enerji layihələrinə maraq azalmır, əksinə, artır. Bunu "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları bir daha təsdiq etdi.**

Toplantıda Albaniyanın Baş naziri Edi Ramanın, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun iştirak etməsi, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkənin, 6 beynəlxalq təşkilatın, 44 şirkətin təmsil olunması özü-özlüyündə çox söz deyir. Belə ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının hər toplantısı sıradan bir tədbir deyil, bir il ərzində layihə daxilində görülmüş işlərə yenidən nəzər salmaq, gələcək işləri planlaşdırmaq baxımından çox önəmlidir. Budəfəki tədbir də həmin məqsədi daşıyırdı. Prezident İlham Əliyev toplantıdakı çıxışında bu barədə belə dedi: "Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub - biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqeyimiz hər zaman dəyişməz olub və bu gün də belədir - şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir. Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə "Cənub qaz dəhlizi" tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrut - interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük. Burada, "Gülüstan" sarayında sonuncu - bir il əvvəlki görüşümüzdən bu yana bir neçə mühüm hadisə baş verib. Bildiyiniz kimi, adətən Məşvərət Şurasının toplantıları zamanı bu qrup görülmüş işləri və qarşıda duran məsələlərin həlli baxımından görüləcək əlavə tədbirləri nəzərdən keçirir. Ən başlıcası isə atılacaq birgə addımları planlaşdırır".

Beləliklə, keçənilki toplantıdan bəri baş vermiş mühüm hadisələrdən bir neçəsini yada salaq. Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron" qaz-kondensat yatağından hasilata başlandı. Bu, "Şahdəniz"dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir. "Abşeron" gələcək şaxələndirmə layihələrimizin resurs bazasını təşkil edəcək. Layihənin ilk fazası artıq təsdiq olunub. Orada illik hasilatın 1,5 milyard kubmetr həcmində olması gözlənilir. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr həcm əlavə ediləcək ki, onun da böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaq.

Biz eləcə də "Azəri-Çıraq-Günəşli" blokunun dərin laylarından, "Ümid" yatağının işlənməsinin ikinci fazasından mavi yanacaq gözləyirik. Beləliklə, "Cənub qaz dəhlizi" Avropaya yeni mənbədən və yeni marşrutla mavi yanacaq çatdıran 3500 kilometrlik ixrac xəttidir.

Prezident İlham Əliyev hələ bir neçə il bundan əvvəl demişdi ki, "Cənub qaz dəhlizi" layihəsi sona çatıb, ancaq bizim görəcəyimiz işlər çoxdur. Belə ki, Azərbaycandan qaz idxal etmək istəyən ölkələrin sayı getdikcə artır. İndi Gürcüstan və Türkiyədən başqa daha altı ölkə - Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan və Serbiya da Azərbaycandan mavi yanacaq alır. Yeni çağırışlar qarşısında Avropada Azərbaycan qazına tələbatın artması və bu ehtiyacın ödənilməsi kompleks tədbirlərin görülməsini gündəmə gətirib. Bunlardan biri də müvafiq ixrac infrastukturunun yaradılmasıdır. Başqa sözlə, "Cənub qaz dəhlizi" genişləndirilməli və şaxələndirilməlidir.

Ötən il bu sahədə də önəmli addlmlar atıldı. Dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirildi. Prezident İlham Əliyev bu hadisəni yüksək dəyərləndirir: "Növbəti nailiyyət hesab etdiyim bir hadisə Azərbaycanın daha iki ölkə - Macarıstana və Serbiyaya qaz nəql etməsi oldu. Beləliklə, bizim Avropaya qaz təchizatımızın coğrafiyası genişlənmiş oldu. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan altısı Avropa ölkəsidir. Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində ilk növbədə "Cənub qaz dəhlizi" layihəsi dayanır. İkincisi isə onlar bizə Avropada mümkün qədər çox məntəqələri əhatə etməklə bağlı səylərimizi davam etdirməyə imkan verəcəkdir. Azərbaycan qazına olan mövcud tələbat var, ixtiyarımızda mənbələr var və nəqliyyat marşrutlarımız yerindədir. Yeri gəlmişkən, onu da deyim ki, ötən il ərzində türkiyəli dostlarımızla fəal kommunikasiya nəticəsində biz Türkiyə vasitəsilə Trans-Balkan boru kəməri sistemindən istifadə etmək razılığına gəldik. Bu isə şaxələndirmə layihəsi daxilində növbəti şaxələndirmə deməkdir. Daha artıq alternativlər və seçimlər ola bilər. Çünki onların hər biri enerjinin şaxələndirilməsi, enerji təhlükəsizliyinin maksimum səmərəliliklə təmin olunması kimi vahid məqsədə xidmət edir. Hesab edirəm ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur".

Qaz ixracının artırılmasının daha bir yolu da var. Bu, "yaşıl enerji" sayəsində əldə ediləcək. Belə ki, bərpaolunan enerji mənbələrimiz indi elektrik enerjisi istehsalına yönəldilən təbii qaza daha çox qənaət etməyə imkan verəcək.

Azərbaycan bu istiqamətdə də irəliyə doğru uğurlu addımlar atıb. İşğaldan azad olunmuş ərazilər, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib. Keçən ilin nailiyyətləri sırasında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyasının istifadəyə verilməsi xüsusi əhəmiyyət daşıyır. Bir neçə bərpaolunan enerji layihələri isə tikinti, qiymətləndirmə və layihələndirmə mərhələlərindədir.

Prezidentimiz bərpaolunan enerji ehtiyatları baxımından nəhəng pontensialımızın olduğunu və "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji" nəql edəcəyimizi vurğulayıb. Qənaət ediləcək mavi yanacağın isə "Cənub qaz dəhlizi"nə əlavə bir töhfə olacağını deyib. Çünki qaz və bərpaolunan enerji layihələri, əslində, bir-birini tamamlayır.

Təsadüfi deyil ki, artıq ikinci ildir "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclası ilə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurasının da iclası keçirilir. Azərbaycanın COP29-a evsahibliyi etməyə hazırlaşdığı, bütün dünyanın nəzərlərinin getdikcə Bakıya sarı daha çox yönəldiyi bir məqamda bütün bunların önəmi birə-beş artır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Avropa Azərbaycana möhtacdır

## İlham Əliyevin qlobal enerji layihələri beynəlxalq əməkdaşlığın unikal formatını yaradıb

**Tarixinin ən qüdrətli Azərbaycanının qazandığı böyük uğurlardan biri də Avropanın enerji təminatında açar rolunu oynamasıdır. Azərbaycanın gələcək uğurlarının zəmanəti olan qlobal enerji layihələri bu gün Avropanın enerji xəritəsini tamamilə dəyişib. Açıq dənizlərə çıxışa malik olmasa da, Azərbaycan artıq mühüm nəqliyyat-tranzit şəbəkəsini yaradıb. Tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft-qaz kəməri çəkməklə yeni rekordlara imza atıb.**

Bütün bunlar dünyanın geosiyasi və geoiqtisadi gündəmini düzgün qiymətləndirən, tam müstəqil siyasət yürüdərək sözünün sahibi, etibarlı tərəfdaş olduğunu isbatlayan Prezident İlham Əliyevin qlobal təşəbbüsləri sayəsində reallaşıb.

Martın 1-də Bakıda, "Gülüstan" sarayında "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı İlham Əliyev bir daha Azərbaycanın enerji potensialını və ümumilikdə ölkəmizin iqtisadi imkanlarını dünyaya təqdim etdi.

Bu bir həqiqətdir ki, hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. 2022-ci ilin iyul ayının 18-də "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

Həqiqətən də, real hədəf olan yerdə Azərbaycan bir çox Avropa ölkəsini neft, neft məhsulları, neft-kimya məhsulları ilə təchiz edir. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə Azərbaycana qaz təchizatı və ya mövcud qaz təchizatının artırılması ilə bağlı bir çox Avropa ölkəsindən müraciət olunub. Təbii ki, ölkəmiz də tərəfdaşlarının ehtiyaclarını qarşılamaq üçün əlindən gələni əsirgəmir. Çünki hazırda Azərbaycanın qaz təchizatının kifayət qədər şaxələndirilmiş coğrafiyası var. Bəzi ölkələr artıq Azərbaycandan elektrik enerjisi almağa başlayıb.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan altısı Avropa ölkəsidir. Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində ilk növbədə "Cənub qaz dəhlizi" layihəsi dayanır. İkincisi isə onlar Azərbaycana Avropada mümkün qədər çox məntəqələri əhatə etməklə bağlı səyləri davam etdirməyə imkan verəcək.

Mərasimdə çıxış edən Albaniyanın Baş naziri Edi Rama çox maraqlı xatırlatma etdi. Onun sözlərinə görə, 8 il əvvəl nazirlər səviyyəsində keçirilən iclasda İlham Əliyev çox dəyərli fikir səsləndirərək vurğulayıb ki, "Cənub qaz dəhlizi" beynəlxalq əməkdaşlığın unikal formatının təməlini qoyur. Bu, ölkələr, şirkətlər və maliyyə institutları arasında olan yeni əməkdaşlıq təcrübəsi gələcək illər ərzində bir çox digər sahəni də əhatə edəcək.

Göründüyü kimi, İlham Əliyevin 8 il əvvəlki uzaqgörənliyi indi reallığı əks etdirir. Nəyi nə zaman etmək lazım olduğunu yaxşı bilən, sözü imzası qədər keçərli olan və yürütdüyü tam müstəqil siyasətlə Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdan İlham Əliyevin illər öncə söylədiyi fikirlər həqiqətən də bu yeni "Enerji İpək yolu" olan "Cənub qaz dəhlizi"ni sıx əməkdaşlıq baxımından körpüyə çevirdi. Bu layihə ölkələri, şirkətləri, maliyyə institutlarını elə bir formatda bir araya gətirdi ki, onun təklif etdiyi imkanlara dair istəyi daha da artırdı. Bu gün bu format elə bir körpü rolunu oynayır ki, artıq onun tərkib hissəsini "yaşıl enerji" təşkil edir.

"Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur".

Prezidentin bu bəyanatı isə onu deməyə əsas verir ki, tarixinin ən qüdrətli Azərbaycanının lideri kimi İlham Əliyev hər zaman sözünə, vədinə sadiqliyi, başladığı istənilən qlobal layihəni vaxtında uğurla gerçəkləşdirdiyi kimi, bundan sonra da qarşıdakı hədəflərə nail olmaq üçün əlindən gələni əsirgəməyəcək.

Gələcək hədəfləri də açıqlayan dövlət başçısı onlardan yalnız bir neçəsini səsləndirdi. İlk növbədə gələn il "Azəri-Çıraq-Günəşli" dərin qaz layihəsi çərçivəsində təbii qazın hasilatı gözlənilir. Bu, çox böyük ehtiyata malik olmaqla ümidverici strukturdur. Uzun illərdir ki, "Azəri-Çıraq-Günəşli" Azərbaycanın neft ixracının əsas mənbəyidir. Hazırda kəşfiyyata başlanılması ilə bağlı tərəfdaşlarla razılığa gəlinib və bu əlavə töhfə olacaq. İlkin mərhələdə hasilat təqribən yarım milyard kubmetr olacaq, ancaq bir neçə il ərzində bu rəqəm 3-4 dəfə artacaq. Bu, "Şahdəniz" və "Abşeron" yataqlarından hasil ediləcək həcmlərlə yanaşı, yeni mənbə olacaq. Bununla yanaşı, "Ümid" qaz-kondensat yatağının ikinci fazasının işlənilməsi ilə bağlı planlar var ki, potensial olaraq oradan da 3-4 il ərzində 2-3 milyard kubmetr qaz əldə etmək olar.

Bütün bu planlar tamamilə realdır, onlar müfəssəl təhlilə, məlumata, informasiyaya və Azərbaycanın maliyyə resurslarına, habelə investorlarla razılaşmalara əsaslanır. Layihələrin bəziləri investorlarla birlikdə icra olunacaq, bəziləri isə SOCAR-ın özü tərəfindən həyata keçiriləcək.

Azərbaycanda potensial var və bu, artmaqda davam edir. İlham Əliyev Azərbaycana qarşı çirkin kampaniya aparan, ölkəmizin enerji potensialı ilə bağlı uydurma və tamamilə yalan məlumatlar yayan dairələrə mesaj da ünvanlayaraq onlara xatırlatma etdi: "Uzun illərdir ki, ortalıqda yayılan və Avropa istehlakçılarının artmaqda olan ehtiyaclarını ödəmək üçün "Azərbaycanda kifayət qədər qaz yoxdur" kimi bütün şayiələr bir daha onu göstərdi ki, onlar tamamilə əsassızdır və bizim potensialımızın qarşısını almaq, beynəlxalq birliyə və istehlakçılara yanlış mesaj göndərmək üçün Azərbaycana qarşı yürüdülən kampaniyanın bir hissəsi idi".

Prezident eyni zamanda Azərbaycanın COP29-a evsahibliyindən də söz açdı. Azərbaycanın dünyanın ən böyük toplantısına evsahibliyi etmək şərəfinə nail olduğunu söyləyən dövlət başçısı bu məsələdə də ölkəmizə qarşı kampaniyaların aparıldığını dedi. Lakin beynəlxalq birliyin verdiyi qərar dəyişmədi.

Beləliklə də, Prezidentin söylədiyi kimi, COP29-un Azərbaycanda təşkil edilməsi ilə bağlı yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlaməti oldu. İlham Əliyev dedi ki, Azərbaycanın tədbirə evsahibliyi etmək, bu işə töhfə vermək istəyi ölkənin "yaşıl gündəliyi"ni nümayiş etdirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli maraqlarımızı uğurla təmin edən enerji diplomatiyası

**"Avropa İttifaqına üzv ölkələrdə enerji böhranı yaşandığına görə "köhnə qitə"də uzunmüddətli enerji təhlükəsizliyini təmin etmək lazımdır. Bu mənada "Cənub qaz dəhlizi" alternativ mənbə kimi ön plana çıxır. Avropa ölkələri maye qaz idxalını sürətlə artırmalarına baxmayaraq, əhalinin ehtiyaclarını ödəməyə kifayət etmədiyinə görə Xəzər qazının Avropa bazarlarına "Cənub qaz dəhlizi" vasitəsilə çatdırılması ən sərfəli yoldur".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. Deputat söyləyib ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında səsləndirilən fikir və təkliflər məhz bu prizmadan böyük önəm daşıyır. O bildirib ki, Azərbaycanda təbii qazın təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetrdir: "Avropaya tədarükün artırılması üçün Azərbaycanın əlavə investisiyalara ehtiyacı var ki, bu da əlavə boru kəmərlərinin tikintisinə və istehsal potensialının artırılmasına yönəldiləcək. Hazırda Avropa İttifaqı ölkələrində təbii qaza ciddi tələbat var. Rusiya-Ukrayna müharibəsinin başlanması ilə Avropanın qaz xəritəsinin pozulması fonunda alternativ mənbələrə ehtiyac artıb. Belə mənbələrdən biri də Azərbaycandır. Prezident İlham Əliyev martın 1-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarındakı çıxışında bildirdi ki, Avropa İttifaqından Azərbaycan qazına böyük tələbat var idi və indi də var. Dövlət başçısının sözlərinə görə, "Cənub qaz dəhlizi"nin genişləndirilməsi və hər hansı digər təbii qaz layihələri elə icra olunmalıdır ki, əsas hədəfimizə zərər dəyməsin. Təbii ki, qaz təchizatının şaxələndirilməsi istiqamətində atılan addımlar çox vacibdir. Müəyyən investisiya və vaxt tələb etməsinə baxmayaraq, "Cənub qaz dəhlizi" qaz tədarükünü ikiqat artırmaq potensialına malikdir".

Müsahibimiz qeyd edib ki, neft və qaz ehtiyatları ilə zəngin olan Azərbaycan son illər Avropaya "mavi yanacaq" ixracını artırıb: "Ölkəmiz Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir və Avrasiyanın enerji xəritəsini formalaşdırır. Hazırda Azərbaycan qazının xarici tədarükünün təxminən 50 faizi Avropa ölkələrinin payına düşür. Azərbaycan İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, və Macarıstan və Serbiyaya qaz tədarük edir. Eyni zamanda ölkəmizdən qaz almaq istəyən digər ölkələr də var. Bunlar Albaniya, Bosniya və Herseqovina, Monteneqro, Xorvatiya, Slovakiya və Şimali Makedoniyadır. Təsadüfi deyil ki, Avropa İttifaqına üzv dövlətlərin liderləri Azərbaycana etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı kimi baxırlar. Prezident İlham Əliyev çıxışında bildirib ki, bir çox ölkə təbii qazla bağlı Azərbaycana müraciət edib, onlardan 6-sı artıq təbii qaz alıb, bir neçəsi ilə də danışıqlar aparılır. Dövlət başçısı qaz ehtiyatlarının çox olduğunu diqqətə çatdıraraq əlavə edib ki, Avropa maliyyə təsisatları bu layihələrlə bağlı maliyyələşdirmə məsələsində real yanaşmalara əsaslanmalıdırlar".

Deputat daha sonra deyib: "Azərbaycanın "yaşıl keçid"ə getdiyini diqqətə çatdıran dövlətimizin başçısı əlavə etdi ki, ənənəvi enerji mənbələri olmadan dünya növbəti illər ərzində inkişaf edə bilməz və heç kəs bu faktı yaddan çıxarmamalıdır. Buna görə də Azərbaycan qazının Avropaya nəqlini artırmaq üçün əlavə investisiyalara ehtiyac var. "Cənub qaz dəhlizi"nin hissələri kimi tikilən TANAP-ın və TAP-ın ötürücülük qabiliyyətinin iki dəfə artırılması nəzərdə tutulur. Aİ ölkələri Azərbaycan qazının alışını genişləndirdikcə investisiyaların daha da artması gözlənilir. Prezident İlham Əliyevin əvvəllər də bəyan etdiyi kimi, Azərbaycan yataqlarındakı təbii qaz ehtiyatları ölkəyə və onun tərəfdaşlarına ən azı 100 il kifayət edəcək".

Rəşad Mahmudov dahi C.Tolkienin "zamanı biz seçmirik, zaman bizi həmişə seçir" ifadəsini xatırladaraq bildirib ki, hazırda dünyada baş verən hadisələr qaçılmazlığını əks etdirir: "Biz təsadüfən dünyanın adi mənzərəsinin gözümüzün qabağında dəyişdiyi nadir dövrdə yaşayırıq. Böyük geosiyasi, iqtisadi, texnoloji, mədəni və mənəvi transformasiyalar baş verir. Təbii ki, mövcud vəziyyət çoxaspektlidir, Azərbaycan da sürətlə dəyişən reallıqlara adekvat ssenarilər hazırlayır və milli maraqlara uyğun addımların atılmasına çalışır. Enerji xəritəsində potensialına görə özünəməxsus yer tutan Bakının təbii qaz diplomatiyası regional inkişaf və enerji təhlükəsizliyinin gücləndirilməsinə yönəlib".

Deputat vurğulayıb ki, Azərbaycan bəşəri dəyərlərə hörmətlə yanaşır və insanları narahat edən məsələlərdə zəruri addımların atılmasını hər zaman dəstəkləyir. COP29-un Azərbaycanda keçirilməsi də bunu təsdiqləyir. Belə bir mötəbər tədbirin keçirilməsinin Azərbaycana həvalə edilməsi bir tərəfdən ölkəmizə olan beynəlxalq etimaddırsa, digər tərəfdən Bakının güclü "yaşıl gündəliy"ə malik olmasıdır. Ölkəmiz ənənəvi enerji resurslarının istehsalçısı olsa da, "yaşıl enerji"nin inkişafı istiqamətində də böyük işlər görür. Prezident İlham Əliyev çıxışında bu məqama da toxunaraq diqqətə çatdırıb ki, COP29-un Azərbaycanda təşkil edilməsi barədə yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir.

"Bakıda "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının keçirilməsi hər şeydən öncə ölkəmizin iqtisadi qüdrətinin təsdiqi və nümayişi ilə yadda qaldı. Bu, regionun super gücü olan Azərbaycanın Avrasiyanın enerji təhlükəsizliyində önəmli faktora çevrildiyini göstərdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Avrasiyanın mühüm infrastruktur layihələrindən biri olan və üç ilə yaxındır ki, fəaliyyət göstərən "Cənub qaz dəhlizi" artıq uğur hekayəsidir. Şübhəsiz ki, təkcə "Cənub qaz dəhlizi" yox, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən bütün beynəlxalq layihələr ölkəmizin nüfuzunu artırmaqla yanaşı, milli maraqlarımıza xidmət edir", - deyə müsahibimiz əlavə edib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransanın niyyəti baş tutmayacaq

**Fevralın 17-də Münxendə Bakı və İrəvanın liderlər səviyyəsində keçirdiyi görüş Ermənistan-Azərbaycan arasında normallaşmaya nail olunması üçün əhəmiyyətli irəliləyiş kimi dəyərləndirildi. Almaniyanın təşəbbüsü ilə baş tutan bu ikitərəfli görüş bir daha sübut etdi ki, iki ölkə arasında normallaşmaya nail olunması üçün kənar vasitəçilərə ehtiyac yoxdur.**



Çünki Vətən müharibəsinin üzərindən ötən dövrdə də izlədik ki, başda Fransa olmaqla, kənar qüvvələrin bu prosesdə "vasitəçi" kimi iştirak cəhdləri əlaqələrin normallaşmasına yox, daha da kəskinləşməsinə xidmət edir. Hər kəs xatırlayır, ötən il məhz Fransa Prezidenti Emmanuel Makronun təxribatı nəticəsində Azərbaycan İspaniyanın Qranada şəhərində oktyabrın 5-nə planlaşdırılan beştərəfli görüşdən imtina etmişdi.

Almaniya Kansleri Olaf Şoltsun təşəbbüsü ilə keçirilən ikitərəfli Münxen görüşündən sonra Makronun siyasi, hərbi təxribatlara əl atması hazırda da Fransa tərəfindən eyni məkrli ssenarinin davam etdirildiyini, Cənubi Qafqazda sülhün əldə olunmaması üçün bütün çirkin yola getdiyini deməyə əsas verir.

Sözügedən görüşdən sonra, iki ölkə arasında normallaşma istiqamətində imkanların yarandığı bir dövrdə Nikol Paşinyanın tələsik Parisə yola düşməsi və burada Azərbaycana qarşı böhtanlar səsləndirməsi də bunu açıq göstərdi.

Ermənistanı silahlarla təchiz edərək, onu müharibəyə, revanşa qızışdıran Makronun ölkəmizə qarşı şər, böhtan səsləndirməsi, guya Azərbaycanın Ermənistana hücum edəcəyi kimi sərsəm iddialar irəli sürməsi isə bir başqa tragikomik və Fransa Prezidentinin həyasızlığını əks etdirən növbəti çirkin oyunlar oldu.

### Ermənistan və beynəlxalq təşkilatlar üzərindən qurulan məkrli oyunlar

Artıq "Qarabağ münaqişəsi" deyə bir problem yoxdur. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, suverenliyini tam təmin etməsi və Qarabağda separatizmin kökünü kəsməsi sayəsində iki ölkə arasında münasibətlərin normallaşmasına da geniş imkanlar açılıb. Amma hadisələrin bu məcraya yönəlməsi müstəmləkəçi Fransanı qətiyyən qane etmir.

Torpaqlarımızın işğal altında olduğu müddətdə də Fransa vasitəçi kimi münaqişənin nizamlanması istiqamətində heç bir addım atmadı, məsələnin Ermənistanın xeyrinə dondurulması üçün dəridən-qabıqdan çıxdı. Çünki münaqişənin həll olunacağı təqdirdə yalan vədlərlə aldatdığı erməni lobbisindən aldığı pullar kəsiləcək, işğal altındakı ərazilərimizdə yeraltı və yerüstü sərvətlərimizi talaya bilməyəcəkdi. Lakin Azərbaycanın Vətən müharibəsindəki Zəfəri Parisin məkrli planlarını da alt-üst etdi, suverenliyimizin bərpası isə Fransanın separatizmə dəstəyini birdəfəlik kəsdi.

Baş verən reallıqlar sayəsində Cənubi Qafqazdan qovulan Fransa siyasi iradəsi olmayan Ermənistan üzərindən məkrli və qanlı oyunlara başladı.

Bir yandan ölkəmizə qarşı Avropa Parlamenti kimi qərəzli qurumların vasitəsilə qətnamə adı altında "kağız parçaları" qəbul etdirməyə, bir yandan da Ermənistana hərbi dəstək göstərməyə başladı.

Beynəlxalq qanunları ayaqlar altına atan Fransanın Ermənistanın timsalında təcavüzkarı dəstəkləməsi, separatizmə yaşıl işıq yandırması isə İrəvanı müharibəyə qızışdırır. 44 günlük müharibə, eləcə də 23 saatlıq antiterror tədbirləri zamanı "dəmir yumruq"la ordusunun başının əzilməsini unudan Ermənistan revanşa iştahlanır.

Fevral ayında Ermənistan tərəfindən törədilən hərbi təxribat, erməni snayperinin Azərbaycan əsgərini yaralaması da bunu aydın ortaya qoyur.

Həm də elə bu faktın özü göstərir ki, Fransanın təhriki ilə savaşa meyillənməsi Ermənistanın özünə baha başa gəlir. Fevraldakı təxribatdan dərhal sonra ermənilərin layiqli cavabları verildi. Fransanın Ermənistanı silahlandıraraq Azərbaycan qarşısında gücləndirmək cəhdinin uğursuz olduğunu təsdiqlədi.

Bir sözlə, baş verən proseslər Ermənistanın sülhdən başqa çıxış yolu olmadığına dəlalət edir. İrəvan Azərbaycanın beynəlxalq hüququn prinsipləri çərçivəsində irəli sürdüyü şərtləri qəbul etməli və Fransanın təhriki ilə özünün sonu olacaq müharibəyə hazırlaşmamalıdır.

Həmçinin iki ölkə arasında normallaşma prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki Fransa kimi qərəzli ölkələr olmayan məsələləri süni şəkildə şişirdib "problem" kimi qələmə vermək istəyirlər.

### Berlin görüşü və Makronun gözlənilən təxribatı

2024-cü il fevralın 28-29-da Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında Almaniyanın paytaxtı Berlin şəhərində danışıqlar aparılıb. Nazirlər və onların heyətləri arasında "Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəaları üzrə mövqelər müzakirə edilib. Bəzi əsas məsələlər üzrə əlavə işin davam etdirilməsinə ehtiyac olduğu bildirilib.

Bu faktın özü də göstərir ki, Azərbaycan ilə Ermənistan arasında normallaşmaya nail olunması üçün kənar vasitəçilərə ehtiyac yoxdur. Əksinə, qərəzli vasitəçilərin prosesə burunlarını soxmaları vəziyyəti müsbət yox, mənfi istiqamətə yönləndirir.

O da mümkündür ki, Makron Münxendə Ermənistan-Azərbaycan liderlərinin görüşündən sonra etdiyi kimi, Bakı və İrəvan xarici işlər nazirlərinin Berlindəki sözügedən görüşündən sonra da təxribatlara əl atsın...

Ancaq özünü vasitəçi kimi prosesə pərçimləmək istəyən Fransanın Ermənistana silah-sursat verməsi, bölgəni yenidən münaqişə, müharibə ocağına çevirmək kimi murdar cəhdləri boşa gedəcək.

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan milli maraqlarını təhdid edən bütün güclərlə lazımınca mübarizə aparmaq və onları yerlərində otuzdurmaq gücündə, qüdrətindədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Qərbin qərəzli mövqeyi Azərbaycanı öz yolundan döndərə bilməz

**"Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnamə qəbul etməsi və ölkəmizə qarşı sanksiyalar tətbiq olunmasına çağırışı ədalətsizlikdir. Azərbaycan, eləcə də bir çox Avropa ölkəsi üçün həmin qətnamə heç bir əhəmiyyətə malik deyil".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat bildirib ki, nəinki ölkəmiz, Avropa İttifaqı, eləcə də oraya üzv olan dövlətlər də bu kağız parçasında əks olunanları absurd hesab edirlər: "Erməni lobbisinin sözü ilə oturub-duran Avroparlamentin bir qisim deputatı Azərbaycana qərəz püskürməkdən əl çəkə bilmir. Görünən odur ki, yeni seçki ərəfəsində həmin deputatlar ermənilərin maraqlarının xidmətində dayanıblar. Brilyant qaçaqmalçısı kimi tanınan Kaspar Karapetyanın pullarına göz dikən bəzi deputatlar qətnamədə nə yazıldığını belə bilmədən onun lehinə səs verir, ölkəmizə qara yaxırlar".

Deputat əlavə edib ki, Avropa Parlamentindən ölkəmiz əleyhinə belə bir addımın atılması təsadüfi deyil: "Azərbaycan bu qurumun qərəzli davranışları, heç bir əhəmiyyətə malik olmayan qətnamələrin qəbulu ilə tez-tez üzləşir. Avroparlamentdə Azərbaycana qarşı çıxan deputatlar bundan əvvəl də eyni mövqedən çıxış ediblər. Ölkəmizin regionda söz sahibinə çevrilməsi ermənilər kimi onların havadarlarını da rahat buraxmır".

Cavanşir Paşazadə onu da qeyd edib ki, belə iyrənc siyasi oyunların arxasında Makron hakimiyyətinin dayandığı istisna edilmir: "Fransanın Avropa Parlamentində oturan islamofob, rasist və türkofob fikirli nümayəndələri də ermənilərin maraqlarına xidmət edirlər. Daha doğrusu, burada əsas məqsəd heç də ermənilərin maraqlarını təmin etməkdən ibarət deyil. Sadəcə olaraq, həmin şəxslərin öz mənafelərini ədalət prinsiplərindən üstün tutmaları belə nəticə verir. Uzun illər 1 milyona yaxın soydaşımızın qaçqın-köçkün düşərək didərgin yaşamasına heç bir reaksiya verməyənlər, işğalçıya haqq qazandırmağa çalışanlar yenə də ermənilərin müdafiəçisi kimi görünməkdən narahat olmurlar".

Azərbaycanın hər zaman haqq yolunda addımladığını vurğulayan deputat həmçinin bildirib ki, bizi bu yoldan heç kim döndərə bilməz: "Belə qətnamələr kağız parçasından başqa heç nə deyil, tarixin arxivində tozlanıb gedəcəklər. Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verən, qüdrətli və prinsipial Azərbaycan dövləti ilə təhdid dili ilə danışmaq, bizə şər-böhtan atmaq heç bir fayda verməyəcək. Unutmaq olmaz ki, Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur. Belə olan halda bu cür populizm sərgiləməyin Qərbə heç bir xeyri olmayacaq".

Cavanşir Paşazadə yekunda deyib ki, Avropa Parlamentinin ölkəmizin imicini zədələmək cəhdləri nəticə verməyəcək. Ona görə də bu işdə quruma dəstək verən bir sıra qüvvələr, eləcə də fitnəkar ölkələr heç də sevinməsinlər. Hər zaman ifşa olunan, korrupsionerlərdən ibarət olan bu qurumun qəbul etdiyi ədalətsiz sənədlər Azərbaycanı haqqı deməkdən çəkindirə bilməz.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Avropa Parlamenti qərarlarını erməni lobbisinin pul kisəsinin hesabına çıxarır

### Buna görə də onlardan ədalət gözləməyə dəyməz

**Avropa Parlamentində son günlər Azərbaycan əleyhinə aparılan təbliğatlar onu göstərir ki, bu qurum müəyyən qrupların, başda Fransa olmaqla Qərb dövlətlərinin əlində oyuncağa çevrilib, öz nüfuzunu tamamilə itirib.**



Bu qruplar və dövlətlər guya Azərbaycanda insan hüquqlarının pozulması bəhanəsi altında məqsədyönlü şəkildə uydurma məsələləri gündəliyə çıxarmağa çalışırlar. Hətta bəzi avropalı parlamentarilər işlərinə o qədər məsuliyyətsiz, biganə yanaşırlar ki, ümumiyyətlə, müzakirələr zamanı səsləndirilən məsələlərin, qaldırılan iddiaların əsassız olduğuna, həqiqətə uyğun olub-olmamasına da əhəmiyyət vermirlər.

Bütün bunlar isə bu təşkilatın yavaş-yavaş lazımsız bir quruma çevrildiyini göstərir. Təşkil olunan dinləmələrdə ermənipərəst deputatlar tərəfindən ifrat dərəcədə həqiqətə uyğun olmayan iddiaların səsləndirilməsi və müzakirə edilməsi Avropa Parlamentindəki sağlam düşüncənin hökm sürmədiyindən xəbər verir.

Avropa Parlamentində ölkəmiz əleyhinə aparılan dinləmələr qərəz və riyakarlıqdan qaynaqlanır. Çünki Avropa Parlamenti və bəzi Qərb dövlətləri Azərbaycanın beynəlxalq aləmdə qazandığı uğurları, artan gücünü qəbul edə bilmirlər. Qara niyyət, qara xislət buna imkan vermir. Onların istəyinə uyğun hərəkət etmədiyinə, müstəqil siyasət yürütdüyünə görə Azərbaycanı gözdən salmağa çalışırlar. Amma ermənipərəst qüvvələr unudurlar ki, bütün bunlar bizi daha da gücləndirir. Əgər insan haqlarından dəm vuranlar normal təfəkkürə sahib olsaydılar, onları azərbaycanlılar da düşündürərdi. O azərbaycanlılar ki, 30 ilə yaxındır doğma yurd yerlərindən didərgin düşüblər. Avropa Parlamenti uzun illərdir ki, bu mövzuda danışmır, susmağa üstünlük verir. Ermənistana gələndə insan haqlarının nə demək olduğunu yaddan çıxarırlar.

Neçə illərdir Avropa Parlamenti Azərbaycana qarşı obyektivlikdən uzaq olan qərar və qətnamələr qəbul edir. Qərarların qəbulu zamanı ədalətə, beynəlxalq hüquq və prinsiplərə deyil, qərəz və ikili standartlara üstünlük verilir. Dünya ictimaiyyəti də aydın şəkildə görür ki, heç bir fakt və rəqəm ortaya qoyulmadan Fransanın təşəbbüsü ilə qəbul edilən qətnamə və qərarlar başdan-ayağa ikili standartlar yığnağıdır. Ona görə də bu qərar və qətnamələrin heç bir hüquqi qiyməti yoxdur.

Qərəzin həddinə baxın ki, hətta qətnamə qəbul edilərkən Qarabağa səfər edən BMT missiyasının yekun rəyi belə nəzərə alınmayıb. Bu da onu deməyə əsas verir ki, təşkilat üçün mövcud vəziyyət, hansı proseslərin yaşanmasının heç bir əhəmiyyəti yoxdur. Əsas odur ki, ortalıqda bir qətnamə olsun. İnsanların ərazidən könüllü şəkildə çıxmasını "etnik təmizləmə" adlandırmaq isə həyasızlığın və riyakarlığın ən yüksək həddidir. 30 il bundan əvvəl Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş torpaqlarından bir milyon insanın qovulmasına, el-obasından didərgin salınmasına, evsiz-eşiksiz qalmasına göz yuman, susqunluq nümayiş etdirən Avropa Parlamenti qəbul etdiyi qərəzli qərarları ilə bölgədə sülh və əmin-amanlığı deyil, müharibəni dəstəklədiyini bir daha təsdiq edir.

Son vaxtlar Avropa Parlamentinin Azərbaycana qarşı ikiüzlülük və riyakarlıq nümayiş etdirməyi daha qabarıq hiss olunur. Bu fəallığın da əsas səbəbi erməni lobbisinin maliyyəsidir. Avropa Parlamentinin deputatlarının çoxunun seçki kampaniyası erməni maliyyəsinə əsaslanır. İndi deputatlar Azərbaycana qarşı riyakarlıq göstərməklə ermənilərə borclarını qaytarmış hesab edirlər. Beləliklə, Avropa Parlamentinin deputatlarının ölkəmizə qarşı qərəzli yanaşması onların şəxsi məsələlərinin həllinə xidmət edir. Bütün bu faktlar Avropa Parlamentinin, bütövlükdə Avropanın utanc mənbəyidir. Avropa Parlamentinin Azərbaycana qarşı çıxardığı qərəzli qərar sistemli xarakter daşıyır. Artıq demək olar ki, vərdiş halını alıb. Bütün bunlar onu göstərir ki, Avropa Parlamentinin məqsədi insan hüquqları, beynəlxalq hüquq və Ermənistan ilə Azərbaycan arasında sülhü təşviq etmək deyil, bacardığı qədər regionda gərginliyi artırmağa istiqamətlənmiş qərəzli addımlar atmaqdır.

Zaman keçdikcə hiss olunur ki, Avropa Parlamenti daha çox erməni maraqlarına xidmət edir. Bunu deməyə parlamentdəki deputatların son günlər keçirilən iclaslarda Azərbaycan əleyhinə yönələn çağırışları əsas verir. Elə bil deputatlar Azərbaycan əleyhinə danışmaq üçün bir-biri ilə yarışa girirlər. Avropa parlamentariləri anlamırlar ki, onların qəbul etdikləri bu qərəzli və ikiüzlü qətnamə və qərarların Azərbaycan üçün heç bir hüquqi əhəmiyyəti və mənası yoxdur. Çünki həqiqət və reallıqdan uzaq olan bu qərar və qətnamələr saxtakarlığa və yalanlara əsaslanır, erməni lobbisinin pul kisəsinin gücünə qəbul olunur. Bu maliyyələşmənin arxasında isə Brüsseldə yaşayan erməniəsilli Kaspar Karapetyan dayanır. O, transmilli cinayətkardır və bir çox bölgədə silah və narkotik ticarəti ilə məşğuldur. K.Karapetyanın biznesi bunların üzərində qurulub və Avropa Parlamentinin deputatlarına verilən rüşvətin mənbəyi də odur. Bu cür cinayətkar qrupların təsiri altında Avropa Parlamentində qəbul olunan qərarlar ədalətli ola bilməz. Ədalətsiz olduğuna görə də reallığı əks etdirmir. Reallığı əks etdirməyən qətnamə və qərarlar isə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Rəsmi Paris fəaliyyətini Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə yönəldib

**Fransa hökumətinin Cənubi Qafqazda mövcud olan reallığı düzgün qiymətləndirməməsi son illər verdiyi bir sıra qərarlardan, atdığı addımlardan bəllidir. Rəsmi Paris hələ də bu regionda təsir gücü əldə edəcəyi barədə boş xəyallar qurur.**

Emmanuel Makronun rəhbərliyi ilə Fransa hökuməti məkrli planını həyata keçirmək üçün özünə çox bənzəyən Nikol Paşinyanın rəhbərlik etdiyi Ermənistan hökumətindən istifadə edir. Hər iki işğalçı ölkə mənfur planlarını həyata keçirmək üçün hər cür yalana, böhtana əl atır. Ancaq indiyədək bu istiqamətdə gördükləri işlərlə, verdikləri qərarlarla nə qədər qərəzkar, ədalətsiz olduqlarını nümayiş etdirməkdən, özləri-özlərini ifşa etməkdən başqa heç nəyə nail olmayıblar.

Güclülərə sığınmaq, havadarlar axtarmaq Ermənistanın köhnə şakəridir. Bu işğalçı ölkə yalnız hansısa böyük ölkənin kölgəsində olanda özünü güclü görür. Bu gerçəklik çox da uzaq olmayan tariximizdən də məlumdur. XX əsrin sonlarında Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) adlı imperiya dağılanda müstəqilliyinə nail olan respublikalar böyük sınaqla üzləşdilər. Azadlığına qovuşan Azərbaycanın da iqtisadiyyatında ağır böhran yarandı. Ancaq həmin illərdə bundan da böyük bir bəla ilə üzləşdi. O zaman xaricdən hər cür yardım alan Ermənistan ərazilərimizin iyirmi faizini işğal, bir milyondan çox soydaşımızı evindən, yurdundan didərgin edə bildi. Otuz ilə yaxın davam edən işğal müddətində də Fransa kimi ermənipərəst dövlətlər Ermənistanla Azərbaycan arasında sülh danışıqlarına vasitəçilik etmək adı ilə, əslində, işğalçıya dəstək verdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bu tarixi həqiqətləri xatırlatdı. Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etdi ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşib və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törədiblər: "Yüzlərlə şəhər və kəndlərimizi işğal etdilər, oraları dağıtdılar. 30 illik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Və biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdi. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək. Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdi. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər".

Dövlətimizin başçısı qeyd etdi ki, bu gün Azərbaycan özünü təmin edən ölkədir. Prezident İlham Əliyev ölkəmizdə gedən proseslərin və həyata keçirilən işlərin Azərbaycanın normal həyatını təmin etdiyini vurğuladı: "Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə, biz minnətdar olarıq. Bu, olmazsa, biz yenə də təəssüflənməyəcəyik".

Bugünkü reallığı görən, lakin bununla barışmaq istəməyən Emmanuel Makronun rəhbərlik etdiyi Fransa hökuməti Azərbaycana təsir etmək üçün müxtəlif qərarlar qəbul edir. Eyni zamanda beynəlxalq təşkilatlarda ölkəmizin əleyhinə qətnamələrin qəbul olunmasına çalışır. Fransa bütün bunlarla yanaşı, Azərbaycana qarşı Ermənistanı silahlandırdığını, bu işğalçı ölkəyə dəstək verdiyini açıq şəkildə bildirir. Ancaq bu cəhdləri Fransanı nəinki Cənubi Qafqaza yaxınlaşdırmır, əksinə, onu regiondan daha da uzaqlaşdırır.

Rəsmi Paris bu gün Ermənistanı silahlandırmaqla, regionda sülhün əldə edilməsinə mane olmaqla, Azərbaycanla təhdid, şantaj dili ilə danışmaqla nəyəsə nail ola biləcəyinə ümid edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanla kimsə təhdid, şantaj dili ilə danışa bilməz.

Fevralın 1-də Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən qeyd etdi ki, Fransa regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış edir. Ermənistanın militarizasiya siyasətini apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu qeyd edən dövlət başçısı rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasəti yürütdüyünü diqqətə çatdırdı.

Prezident İlham Əliyev Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu bildirdi.

Azərbaycan qarşılaşdığı bütün haqsızlıqlara rəğmən öz ədalətli, sülhsevər mövqeyindədir. Ermənistan hökuməti isə başa düşmək istəmir ki, Cənubi Qafqaz yenidən münaqişə alovuna çevrilərsə, Fransa kimi ölkələr bundan qətiyyən əziyyət çəkməyəcəklər. Çünki bu ölkələr hər bir mənada Cənubi Qafqazdan uzaqdırlar.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




# AZERBAIJAN COP29

## BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası



# Azərbaycan iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir

**Dünyada baş verən iqlim dəyişikliyi hər bir insana, yaxud ölkəyə təsir göstərir. Bu gün bəşəriyyəti narahat edən iqlim dəyişikliyinin fəsadları, əslində, uzunmüddətli proseslər səbəbindən yaranmış problemlərin nəticədir. Belə ki, atmosferdə karbon qazının səviyyəsinin artması uzun illərdir ki, intensiv olaraq insanların neft, qaz, kömür yandırması, həmçinin avtomobillərdən çox istifadə edilməsi ilə bağlıdır. Yaxud 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Ötən il dünyanın ən isti ili kimi qeyd olundu. Bütün bunlar iqlim dəyişikliyinin sadaladıqca bitməyən fəsadlarının yalnız bir hissəsidir.**

Təəssüflə qeyd etməliyik ki, iqlim dəyişikliyinin yaratdığı fəsadlar insanların sağlamlığına böyük zərbə vurur, dünyanın qlobal bəlasına çevrilir. Odur ki, bu barədə düşünmək və birgə tədbirlər həyata keçirmək labüddür. Bu istiqamətdə həyata keçirilən ən təqdirəlayiq tədbirlərdən biri Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransıdır (COP). Belə ki, COP iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq konfranslardan biridir. Bu ilin sonunda Bakı məhz belə bir mühüm, dünya əhəmiyyətli tədbirə evsahibliyi edəcək.

İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasının keçirilməsi üçün ölkəmizin paytaxtının seçilməsi Azərbaycanın bütün dünya üçün dayanıqlı və təhlükəsiz gələcəyə töhfəsi olmaqla yanaşı, respublikamızın beynəlxalq nüfuzunu nümayiş etdirməsinə də imkan yaradır.

"İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik", - Prezident İlham Əliyev ötən il dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə ölkəmizdə keçirilməsi ilə əlaqədar düzənlənən müşavirədə bildirdi. Dövlət başçısı diqqətə çatdırdı ki, COP29-un tədbiri zamanı 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq.

Azərbaycan iqlim dəyişikliyi kimi bütün dünya üçün əhəmiyyətli olan məsələyə böyük həssalıqla yanaşan ölkələrdən biridir. Prezident İlham Əliyevin 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqından sərəncamında bildirilib ki, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Sərəncamda qeyd olunub ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir: "Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır".

Azərbaycan təbii sərvətlərlə zəngindir. Dünyada neft ölkələrindən biri kimi tanınır. Prezident İlham Əliyev martın 1-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına verdiyi müsahibədə diqqətə çatdırdı ki, qazıntı yanacağı ilə zəngin ölkələr "yaşıl enerji"yə keçiddə ön sıralarda olmalıdır. Dövlətimizin başçısı bildirdi ki, biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik: "Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır". Dövlət başçısı qeyd etdi ki, əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# COP29 yeni aqroturizm layihələrinə yol açacaq

**Turizm deyəndə gəzməli, görməli yerlərə səyahət yada düşür. Amma indiki zamanda turizm təkcə gəzmək, görmək deyil, həm də təbiətlə təmasda olmaq, onu mühafizə etməyin vacibliyini dərk etmək, lazım gələrsə bu yöndə addım atmaq, iş görmək, maariflənmək və maarifləndirmək deməkdir.**



Götürək aqroturizmi. Son zamanlar Azərbaycanda bu səyahət növü aydın görünəcək dərəcədə inkişaf etməyə başlayıb. Doğrudur, digər turizm növləri ilə müqayisədə çox da geniş yayılmayıb, amma iddia etmək olar ki, aqroturizmin gələcəyi üçün bu gün Azərbaycanda münbit şərait mövcuddur. Yeri gəlmişkən məlumat üçün bildirək ki, aqroturizm dedikdə kənd turizminin bir növü kimi turistlərin kənd təsərrüfatına cəlb olunması, eləcə də kənd təsərrüfatında iştirakının təmin edilməsi başa düşülür.

Dünya təcrübəsi göstərir ki, aqroturizmi digər turizm növlərindən fərqləndirən cəhət turist üçün vacib olan bütün ehtiyatların kənddə axtarılmasıdır. Məsələn, Malayziyada aqroturizm konsepsiyası dövlət səviyyəsində kənd təsərrüfatının inkişafı, kənd təsərrüfatı parklarının yaradılması ilə bərabər həyata keçirilir. Ölkə üzrə belə parkların bir hissəsi fermer birliklərinin tabeliyində fəaliyyət göstərir. Turistlərə plantasiyalarda, cəngəlliklərlə əhatə olunmuş evlərdə, yaxud mehmanxanalarda qalmağı, milli mətbəxlə, kənd məşğuliyyəti, at minmək, qayıqda gəzmək, balıq ovu və s. təklif edilir. İtaliyada isə aqroturistlərin fermada və həyətyanı sahələrdə ayrıca otaqda, kənd mehmanxanasında, xüsusi kənd evlərində, tarixi binalarda yerləşdirilməsi təcrübəsinə üstünlük verilir. Almaniyada da aqroturizim sosial-mədəni baxımdan çox məsuliyyətli sahə sayılır. Bu ölkədə hesab edirlər ki, kəndin simasının saxlanılmasında, təbiətin, mədəniyyət və adət-ənənələrin qorunmasında, kənd iqtisadiyyatının dirçəldilməsində aqroturizm mühüm rol oynayır. Göründüyü kimi, dünyada mükəmməl və vahid aqroturizm konsepsiyası yoxdur. Amma fakt odur dünyada aqroturizm sənayesi xeyli vaxtdır ki, sürətlə inkişaf etməkdədir.

Azərbaycanda isə son zamanlara qədər turizmin bu növü o qədər də cəlbedici sayılmırdı. Amma xarici təcrübədən yararlanan turizm sektoru ölkədə kifayət qədər təbiət və təsərrüfat resurslarının olduğunu nəzərə alaraq bu sahənin də inkişafına meydan açdı. Artıq Azərbaycanda aqroturizm qeyri-neft sahəsində öz yerini tutub və yeni brend olaraq tanınır. Adından da göründüyü kimi, burada iki sahə kəsişir - kənd təsərrüfatı və turizm. Məlumdur ki, hər iki sahə Azərbaycan üçün prioritetdir. Onu da qeyd edək ki, bu sahə pandemiyadan sonra aktual oldu. Sərhədlərin bağlı olması əhalinin daxili turizmə tələbatını artırdığından regionlarda aqroturizmlə məşğul olanların sayı çoxalmağa başladı. Çoxalmağa başlayan həm də bu sahə üzrə həyata keçirilən layihələrin sayı və müxtəlifliyi oldu.

Bu günlər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Paşa Holdinq"in dəstəyi ilə icra olunan Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) və "Şəhərdən kəndə" layihələri çərçivəsində Kürdəmir rayonunda fermerlər üçün keçirilən təlim də məhz aqroturizmə xidmət edirdi. Bu, sıradan bir təlim deyil, aqroturizm çərçivəsində keçirilən gərəkli bir tədbir idi. "Aqroturizmin əsasları" mövzusunda təşkil olunan həmin təlimə rayon üzrə 46 fermer qatılmışdı. Təlim aqroturizmin növləri, xidmət sahələrinin təşkil olunması, bazar araşdırmalarının aparılması və digər mövzuları əhatə edirdi.

Kürdəmirdə bu gün aqrar sahədə fəaliyyət göstərən qadın fermerlər az deyil. Onların iqtisadi gücünün artırılması məqsədilə rayonda zaman-zaman bənzər layihələr həyata keçirilib. Həmin layihələr çərçivəsində qadın fermerlərin texniki bacarıqları artırılıb, müvafiq avadanlıqlarla təmin olunmasına dəstək verilib və s. Nəticə olaraq qadınların kənd təsərrüfatı məhsullarının istehsalı və satışı ilə bağlı praktiki məlumatlara yiyələnməsində əhəmiyyətli dərəcədə irəliləyiş qeydə alınıb, istehsal göstəriciləri yüksəlib, satış həcmlərinin artırılması təmin edilib. Bu baxımdan haqqında bəhs olunan aqroturizm tədbiri də qadın fermerlərə dəstək üçün keçirilmişdi. Tədbir çərçivəsində təsərrüfatlarına baxış keçirilən və layihənin tələblərinə cavab verən 9 qadın fermerə arıları "Varroa" gənələrindən təmizləmək üçün "Antivarroa" qurğusu verildi. Bu qurğular arı xəstəliklərinin azalmasına və fermerlərin daha çox məhsul götürməsinə kömək edir.

AFAQ layihəsi qadınların məşğulluğunun, onların informasiya, resurs və bazarlara çıxış imkanlarının, eyni zamanda qadınlar tərəfindən idarə olunan aqrar biznes subyektlərinin sayının artırılmasına və regionlarda sosial-iqtisadi rifahın yaxşılaşdırılmasına xidmət edir. Bu günədək layihə çərçivəsində 286 təsərrüfatın qiymətləndirilməsi aparılmış, 447 fermerə təlimlər keçirilmişdir. Ümumilikdə 213 qadına müvafiq avadanlıqlar verilmiş və aktivlərlə dəstək göstərilmişdir.

Ümumiyyətlə, aqroturizm xüsusilə qadınlar üçün önəmlidir. Bu turizm növü qadınlar üçün əlavə qazanc mənbəyidir. Bu zaman həm də yerli mətbəx mədəniyyəti və kulinariya ənənələri inkişaf edir, əl sənətləri, qonaq qəbuletmə ənənələri inkişaf edir. Bundan başqa, aqroturizm kəndlərin sosial-iqtisadi inkişafına təkan verir, sosial-mədəni xidmət sahələrinin inkişafına yol açır, ətraf mühitin qorunmasına diqqəti artırır, qonaqlar üçün nəzərdə tutulan turizm məhsulları və xidmətlərini şaxələndirir.

Bu gün aqroturizm "yaşıl iqtisadiyyat"a da təkan verir. "Yaşıl iqtisadiyyat" isə ekologiyanın və ətraf mühitin qorunmasında mühüm rol oynayır. Aqroturizm birbaşa ətraf mühitə bağlı olduğu üçün iqlim dəyişikliklərinin təsirlərinə məruz qala bilir. Həmin dəyişikliklərin fəsadlarını aradan qaldırmağın yollarını arayan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) noyabrda Bakıda keçiriləcək. Tədbirin keçirildiyi ərəfədə və sonrakı günlərdə Azərbaycanın "yaşıl zona"ya çevrilməsində şübhəsiz, aqroturizm də öz sözünü deyəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Cənubi Qafqaza gələn yol Azərbaycandan başlayır

## Bunu başa düşməyənin başı daşa dəyə bilər

**Dünyada nüfuz dairəsi uğrunda gərgin mübarizə gedir. Bu mübarizəni hətta münaqişə də adlandırmaq olar. O münaqişə ki, Rusiya-Ukrayna müharibəsi timsalında artıq dünya savaşına keçib.**




Türkiyənin tanınmış hərbi və siyasi eksperti Metə Yarar bildirir ki, indi üçüncü dünya savaşı bayraq qaldırılmadan aparılır, bir çox ölkələrdə isə bu, müxtəlif terror təşkilatlarının əli ilə həyata keçirilir. O, buna Rusiya-Ukrayna müharibəsini, Yaxın Şərqdə müxtəlif dövlətlərə qarşı terror təşkilatlarının apardıqları silahlı mübarizəni, o cümlədən açıq və gizli savaşları misal çəkir. Metə Yarar deyir ki, Rusiya-Ukrayna müharibəsi deyilən bir şey yoxdur, döyüşən birləşmiş Qərblə Rusiyadır.

Məlumdur ki, Emmanuel Makron ciddi siyasətçi deyil. Bu səbəbdən onun bu yaxınlarda NATO-nun Rusiya ilə savaşa girməsi barədə bəyanatı da ciddi qarşılanmadı. İlk növbədə blokun üzvləri onun bu bəyanatına etiraz etdilər. Avropanın iqtisadi lokomotivi olan Almaniyanın Kansleri Olaf Şolts isə NATO-nun Ukraynaya qoşun göndərməsinin "qoca qitə"yə gətirə biləcəyi fəlakətlər barədə xəbərdarlıq etdi. Rusiyanın da buna cavabı gecikmədi. Vladimir Putin açıq şəkildə bildirdi ki, ölkəsinin belə bir halda düşmənə cavab verə biləcək güclü silahları var. Bunu belə də başa düşmək olar: əgər Rusiya üçün təhlükə olarsa, o, nüvə zərbəsi endirməkdən çəkinməyəcək.

Bu gün regionumuzda - Cənubi Qafqazda da geopolik oyunlar gedir. Çünki bölgəmiz Rusiyanı Cənub cinahdan mühasirəyə almaq, həm də Çin və şimal qonşumuzu əhəmiyyətli ticarət marşrutlarından məhrum etmək üçün əlverişli məkandır. Qərb Cənubi Qafqazda Fransanın vasitəsi ilə möhkəmlənmək istəyir. Hazırda Fransanın Ermənistanı yedəyinə alıb sülh müqaviləsinin bağlanmasına imkan verməməsinin əsas səbəbi də budur. Əvvəlcə bir ovuc ermənini Qarabağa qaytarıb beynəlxalq mandatla bölgəyə gəlməyə cəhd etdi. Amma bu, baş tutmadı. Ona görə də indi hansı yolla olursa-olsun, Ermənistanda hərbi cəhətdən mövcud olmağa çalışır.

Artıq uydurma bəhanə də tapıblar - sən demə, Azərbaycan Ermənistana hərbi təcavüz edib torpaqlarını işğal edəcək. Prezident İlham Əliyev Qərbin bu uydurmasına fevralın 28-də Alman İqtisadiyyatının Şərq Komitəsinin nümayəndələrini qəbul edərkən demişdir: "Bu baxımdan Cozef Borelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir".

Qərb 30 ildən çox keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinə heç bir fayda verməyən "həmsədr institutu"nu "ölməz Kaşşey"ə çevirmək istəyirdi. Lakin 44 günlük Vətən müharibəsi buna imkan vermədi. Savaşdan dərhal sonra Prezident İlham Əliyev həmsədrlərə artıq belə bir instituta ehtiyac olmadığını bəyan etdi. Həm də təkcə bəyan etmədi, buna nail oldu.

İndi isə Avropa Parlamenti Azərbaycanı şantaj etməklə məşğuldur. Bu qurumun heç bir əsası olmadan ölkəmizə qarşı sanksiyaların tətbiqi ilə bağlı çağırış etməsi, yumşaq desək, siyasi ədalətsizlikdən başqa bir şey deyil. Amma bu və ya digər qurumun bu və ya digər formada hədə-qorxu və şantajı ölkəmizi haqlı mövqeyindən geri döndərə bilməz. Əksinə, əgər kimsə bölgədə nüfuz sahibi olmaq istəyirsə, Prezident İlham Əliyevin dediyi kimi, "buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidir". Və bilməlidir ki, Cənubi Qafqaza gələn yol Azərbaycandan başlayır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Ermənilər sülhə köklənmək istəyirlər, Avropa qoymur

**Erməni diplomatiyasının nə demək olduğunu anlamaq üçün təsəvvür edin: keşişi ulağa tərsinə mindirib sürürsünüz samanlığın qalın yerinə. Qalan şeylər sizlik deyil, saman da, uzunqulaq da və hətta keşiş də bu samanlıqda qeyb olası deyillər. Əksinə, qarşınıza yeni və bənzərsiz erməni lətifəsi kimi çıxacaqlar. Amma yaddaşınıza bircə onu həkk edin ki, samanlıqda uzunqulaqla keşiş arasında yaranası doğmalıq poeziyaya çevrilməyəcək.**

Əslində yeni heç nə yoxdur. Yüz ildir ki, erməni diplomatıyası bu minvalla Qərblə Qafqaz arasında vurnuxur. Məqsədi də babat tərəfdaş tapmaq deyil. Ermənilər yaxşı bilir ki, belə birisini tapa bilməyəcəklər. Amma iş o yerə çatıb ki, onlar da artıq Qərbin "çırtma çalmasından" diksiniblər. Əgər belə olmasaydı, Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan öz vəzifəsindən istefa verməzdi, özü də belə kəlmələrlə: "Bizim Paşinyanla baxışlarımızdakı fərqlər və fundamental xarıcı məsələlərə baxışlarımızdakı fərqlər mənim bu sahədəki fəaliyyətimi sıfıra endirir".

Vəssalam! Göründüyü kimi, Ermənistanın daxili və xarıcı siyasətində atılan bütün addımlar həm daxildə və həm də xarici əlaqələrdə hamı ilə kəlləşməkdən ibarətdir. Amma ermənilər böyük güclərin hamısı ilə razılaşıb quyruq bulamaqdan da zövq alırlar. Yəni onlar bir gün qərb, ertəsi gün isə şimal havasına oynayırlar. Ya Ermənistanın xarici siyasətndə məntiq axtar, ya da samanlıqda yonca - fərqi yoxdur, tapmayacaqsan.

Rusiyada yaşayan ermənilərin "çastuşkasayağı" öz havaları olur. Bunun arxasınca fransız erməniləri də "parissayağı lambada" gedirlər. Nəhayət ki, Amerika erməniləri də dingildəməsələr olmaz. Bunların hamısını bir qazanda qaynadıb ortaya nə çıxarsanız, sayın ki, ermənilərin xarıcı siyasətinin açarını əlinizə keçirdiniz.

Rusiya elitasına çoxdan sarmaşan ermənilər artıq neçə yüz ildir ki, özlərini bu dövlətin maraqlarının "qoruyucusu" kimi təqdim edirlər. Amma hamı bir nəfər kimi "böyük Ermənstan" yaratmağa can atır. Ona görə də ruslar ermənilərə böyük dost kimi yox, böyük alət kimi daha yararlıdırlar. Qarabağ məsələsini qabardan ermənlər bütün Rusiyanı eninə-uzununa dəfələrlə öz maraqlarına qurban veriblər. Onlar hələ də rusların beynini piyləyirlər ki, qardaşdırlar. Amma gəl ki, Rusiyaya hamıdan çox nifrət edən də ermənilərdir. Buna baxmayaraq, ermənilər Rusiya mətbuatının azından yarıdan çoxunu ələ keçiriblər, ictimai şüura istədikləri kimi təsir edirlər. Ümumiyyətlə, onlar rol oynamaqda, cildə girməkdə mahirdirlər və tərkibində yaşadıqları istənilən ölkənin maraqlarını qoruduqlarına yalan andlar verməyi bacarırlar. Lakin məqsədləri ayrıdır.

Tarixçilər ibrətamiz nümunələr gətirirlər: Bizans imperiyasında hakimiyyətə gələn səlcuqları imperatora satan da, türklərə yol açan da ermənilər olub. Amma bunun ardınca Osmanlı imperiyası zəifləyəndə onları satıb rusların tərəfinə keçən də ermənilər idi.

O ki qaldı fransa ermənilərinə, onlar Parislə elə cütləşiblər ki, Makrondan tutmuş İdolqaya qədər hamısı "əzabkeş xalqın" zurnasının havasında dingildəməyi şərəf sayır. Fransa erməniləri bu mənada tam "xoşbəxt"dirlər. Belə ki, bu dövlət ermənilərə görə Azərbaycanla bütün münasibətlərinin üzərinə kölgə salmaqda davam edir.

ABŞ-dəki erməni lobbisinə gəldikdə isə o, güclü və mobildir. ABŞ ermənilərinin iki nəhəng lobbi strukturu mövcuddur və bu səbəbdən də mövqeləri daim nəzərə alınır.

Ona görə də nəzərə alınmalıdır ki, Ermənistanın xarıcı siyasətinin prioritet istiqamətlərinin təyin edilməsində özündən başqa səxsi maraqları və ambisiyaları olan 4 dövlət də iştirak edir. Bunun nə demək olduğunu anlamaq üçün iki xəbəri müqayisə edək. Birinci xəbərdə Ermənistandan parlaçemtinin deputatı Vladimir Vardanyan Azərbaycanla sülh danışıqlarını dəstəkləyir: "Bu, sonrakı proseslərin inkişafında həddən ziyadə mühüm rol oynayır". Bundan başqa, hakim partiyanın parlament fraksiyasının katibi Artur Ovannisyan da bəyan edib ki, Ermənistan tərəfi prinsiplərin əks edildiyi bütün platformalara hörmət qoyulacağını və onlara əməl ediləcəyni bildirib. O da öz növbəsində Azərbaycanla danışıqların bərpa edilməsini vacib sayır.

İndi isə gəlin Avropadan bu məsələyə fərqli bir baxışı nəzərdən keçirək. "Freedom House" belə bir xəbər yayıb ki, Azərbaycan rəhbərliyi Ermənistan Respublikasına tam hücuma keçə bilər! "Sülhü qorumaq missiyası"nı daşıyan bir təşkilatın olmayan yerdən qaşıyıb qan çıxarması, Azərbaycanı hələ baş verməyən müharibədə ittiham etməsi nə deməkdir? Məgər bu qurum bilmirmi ki, hər iki dövlət sülhə doğru konkret addımlar atırsa və bu istiqamətdə müəyyən nəticələrə nail olursa, "Freedom House" nədən yanaqlarını köpdürüb müharibə zurnasını var gücü ilə püləyir?

Öz uydurduğu yalana haqq qazandırmaq üçün "Freedom House" arsızcasına Qafqazda "araşdırma da aparıb" müharibənin real olmasını təsdiq edən "təhlil" təqdim edir. Çox maraqlıdır, bir tərəfdən İrəvanda ermənilər sülhə köklənmək istəyirlər, digər tərəfdən isə, Avropadan "Freedom House" kimi "mötəbər qurum" müharibə ritorikasında bəyanatlar yayır.

İndi gəlin, əyri oturub düz danışaq: əgər ermənilər sülh danışıqlarına can atırsa, niyə Avropadakı bəzi təşkilatlardan müharibə proqnozları gəlir? Faktiki olaraq, əslində, bu sual bir qədər ritorik səslənsə də, cavab almaq məqsədi güdmür. Amma kimin kim olduğunu üzə çıxarmağa imkan verir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*








# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR

# Ələtdən dünyaya



**İki il əvvələ qədər istifadə edilməyən bu ərazidə indi müasir sənaye müəssisələri yaradılır…**

**İki il əvvələ qədər sadəcə istismar müddəti başa çatmış boruların keçdiyi, istifadəsiz tikililərin olduğu bu Xəzəryanı ərazi tezliklə Azərbaycandan dünyaya açılan böyük iqtisadi pəncərə olacaq…**

**Burada yaradılan azad iqtisadi zona Azərbaycan iqtisadiyyatının inkişafına və rəqabətqabiliyyətliliyinin artırılmasına yol açacaq…**

Bu azad zonada inşasına başlanan zavodlar cəmi bir neçə ildən sonra Azərbaycanda adambaşına düşən ümumi daxili məhsulun daha da artmasını təmin edəcəklər…

Bu azad zona Azərbaycanın logistika mərkəzi və qlobal nəqliyyat qovşağı kimi mövqeyinin daha da güclənməsinə xidmət edəcək…

Burada yaxın gələcəkdə on minlərlə Azərbaycan vətəndaşı çalışacaq, yerli mütəxəssislər, bilikli kadrlar yetişəcək…

Ələt Azad İqtisadi Zonasından bəhs edirik…

Cəmi 3 il əvvəl yaradılmasına başlayan bu azad zonada Azərbaycan iqtisadiyyatına əlavə güc qatacaq yeni iqtisadi bünövrənin etibarlı təməlləri qoyulur…





## İşgüzar mühit, mehriban ünsiyyət

Bakının Qaradağ rayonunun Ələt qəsəbəsinin yaxınlığında, Xəzərin sahilində yaradılan Ələt Azad İqtisadi Zonasına (AFEZ) səfərimiz yağışla müşayiət olunan küləkli havaya təsadüf etsə də, müasir üslubda tikilmiş inzibati binanı, ərazidəki səliqə-sahmanı, yaşıllığı seyr etməmək mümkün deyildi. Bayırdakı kəskin havaya baxmayaraq, inzibati binanın daxilində tamamilə fərqli mühit vardı. Başqa cür desək, elə binanın qapısından içəri girər-girməz hər yerdə rastlaşmayacağımız işgüzar ab-hava, mehriban ünsiyyətlə qarşılaşdıq.

Azad zonanın uğurlu fəaliyyətini şərtləndirən əsas amillər sırasında sərbəst biznes mühitin yaradılması ilə yanaşı, azad iqtisadi zonalarda ölkənin əsas iqtisadiyyatından ayrı olan hüquqi rejimin yaradılması, azad zona ərazisində fəaliyyət göstərən müəssisələrin vergi və gömrük rüsumlarından azad edilməsi, o cümlədən azad zonanı idarə edən qurumun müstəqilliyi durur. Beynəlxalq təcrübə göstərir ki, məhz bu şərtlər əsasında fəaliyyət göstərən azad zonalar uğur qazanıblar.

AFEZ-lə tanışlıq zamanı Azad Zonanın Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərovla söhbətimiz də elə beynəlxalq təcrübədən başladı. Dünyada azad iqtisadi zonaların yaranması tarixi ötən əsrin 40-cı illərindən başlayır. Birinci azad zona 1947-ci ildə ABŞ tərəfindən Puerto-Rikoda yaradılıb, amma uğurlu olmayıb. 1958-ci ildə isə İrlandiyada Şennon hava limanının yaxınlığında indiki müasir azad zonaların istinad yeri sayılan azad iqtisadi zonanın yaradılması haqqında qərar verilib. 1959-cu ilin yanvar ayından həmin azad zona fəaliyyətə başladı.

Bu təcrübə o qədər uğurlu olub ki, onu başqa ölkələrdə tətbiq etmək üçün BMT-nin Sənaye İnkişafı Təşkilatı tərəfindən xüsusi bir ofis yaradılıb. Bu təcrübəni ilk dəfə Sinqapur dövləti tətbiq edib. Sinqapurun ozamankı baş naziri Li Kuan Yu İrlandiyanın təcrübəsini olduğu kimi ölkəsində tətbiq edib. Sinqapur 7 milyona yaxın əhalisi olan kiçik ölkədir, ərazisi cəmi 770 kvadratkilometrdir. Heç bir təbii sərvəti, əkinəyararlı torpağı yoxdur. Amma adambaşına düşən ÜDM həcminə görə hazırda dünyanın 10 lider ölkəsindən biridir. Hazırda Sinqapurun məhsul ixracı 350-360 milyard ABŞ dolları civarındadır. Buradakı neftayırma zavodları gündə 1 milyon barel neft emal edirlər. Çünki elə şərait təmin olunub ki, xarici investorlar öz müəssisələrini gəlib burada yaradırlar.

Bundan sonra başqa ölkələrdə də azad zonaların yaradılmasına başlanılıb. Ancaq Sinqapurdan fərqli olaraq Şennon təcrübəsi tətbiq edilməyən azad zonalar o qədər də uğurlu olmayıb.

AFEZ
ALAT FREE ECONOMIC ZONE









## Şennon təcrübəsi nədir?

Bəs Şennon təcrübəsi nədən ibarətdir? Bu, ilk növbədə azad iqtisadi zonanın fəaliyyətini təmin edən xüsusi qanunvericiliyin yaradılmasından, azad zonanın idarə edilməsi üçün onun ərazisində xüsusi hüquqi rejimin tətbiqindən ibarətdir. Yəni bu, azad zonanın eksterritoriallığını təsbit edir.

İkinci şərt azad iqtisadi zonanı idarə edən qurumun müstəqilliyidir. Yəni azad iqtisadi zonaya gələn investor öz fəaliyyəti üçün müxtəlif dövlət orqanlarından icazələr almır. O, bütün hüquqi məsələlərini azad iqtisadi zonanın səlahiyyətli qurumunda həll edir.

Beləliklə, azad iqtisadi zonanın uğurlu fəaliyyəti üçün onun eksterritoriallığı, xüsusi hüquqi rejimdə çalışması, azad iqtisadi zonanı idarə edən qurumun müstəqil qərar vermək və onları icra etmək hüququ təmin edilməlidir.

Bütün bunlarla yanaşı, azad zonada investorun fəaliyyətini təmin edəcək təkmil, xüsusilə yol, su, enerji, rabitə və digər kommunikasiyalara çıxışları olan ərazinin olması əsas şərtlərdəndir. "Bəzən düşünürlər ki, azad iqtisadi zona varsa və orda müəssisələr vergidən, gömrükdən azaddırlarsa, deməli, mütləq ora investor gələcək. Bu, səhv yanaşmadır, investor heç vaxt infrastrukturlara çıxışı olmayan boş torpaqlara gəlmir. Yəni ərazi investorları qəbul etməyə hazır olmalıdır. Şennon azad iqtisadi zonasında yol, su, enerji, rabitə və digər kommunikasiyaların yaradılması ilə yanaşı, investorlar üçün hazır ofislər və standart sənaye binaları da yaradılmışdı. İrlandiya həmin dövrdə Avropanın ən kasıb dövlətlərindən biri idi. Buna baxmayaraq, dövlət bu işləri görmək üçün pul əsirgəmədi", - deyə Valeh Ələsgərov bildirdi.

Ona görə İrlandiyadakı Şennon azad iqtisadi zonası layihəsi böyük uğur qazanıb. Müəyyən müddətdən sonra Şennonda vergi və gömrük rüsumlarının yığımına başlanılsa da, onun idarəedilməsi prinsipləri o qədər cəlbedici olub ki, bütün İrlandiya ərazisinə tətbiq ediblər.

Sinqapurla yanaşı, Şennon prinsiplərindən Çində də istifadə edilib. 1980-ci ildə burada ilk xüsusi iqtisadi zona yaradılarkən Şennon prinsipləri tətbiq edilib. Çin dövlətinin müasir sürətli inkişafı öz başlanğıcını məhz xüsusi iqtisadi zonaların yaradılmasından götürür.

## AFEZ-də təcrübədə uğur qazanmış prinsiplər tətbiq olunur

2017-ci ildə Ələtdə azad iqtisadi zonanın yaradılması ilə bağlı Valeh Ələsgərovun rəhbərliyi ilə xüsusi işçi qrupu yaradılıb. İşçi qrup, əsasən, Şennon və Sinqapur təcrübələrini araşdırıb və konkret bir ərazidə - Ələtdə fəaliyyət göstərəcək "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsini hazırlayaraq Milli Məclisə təqdim edib.

Aidiyyəti dövlət qurumlarının mütəxəssis və ekspertlərinin iştirakı ilə işçi qrup tərəfindən qanun layihəsi ətraflı müzakirələrdən keçirilmişdi. Qanun layihəsi Milli Məclis tərəfindən 2018-ci ilin may ayında qəbul edilmişdi. Həmin ilin sentyabr ayında Prezident İlham Əliyevin sərəncamı ilə o zaman ərazinin müəyyən edilməsi, baş inşaat planının hazırlanması, layihələndirilməsi ilə bağlı işçi qrupu yaradılmışdı. Artıq 2019-cu ilin noyabr ayında baş plan, 2020-ci ilin aprel ayında 60 hektar ərazinin detal layihələndirilməsi tam hazırlanmışdı. 2020-ci ilin may ayında isə Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının, onun səlahiyyətli qurumunun yaradılması və fəaliyyətinin təşkili haqqında fərman və Valeh Ələsgərovun Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalamışdı.

Layihələndirmə prosesində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və onun müvafiq institutu, eyni zamanda bu sahədə beynəlxalq səviyyədə tanınmış xarici şirkət iştirak ediblər. Onlar birlikdə əməkdaşlıq edərək AFEZ üçün ayrılmış 850 hektar ərazinin baş planını və onun da əsasında birinci inkişaf mərhələsi olan 60 hektar ərazinin detal layihələndirilməsini hazırlayıblar. 2021-ci il iyul ayının 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimi keçirilib. Həmin gün Prezident İlham Əliyev azad zonanın yaradılması ilə bağlı deyib: "Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir. Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək".

Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, təməlqoymadan sonra işlər qrafikə uyğun davam edib və 2 il müddətinə 60 hektar ərazidə bütün işlər başa çatdırılıb. 2023-cü il iyun ayının 9-da Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılışı olub.

Birinci mərhələdə ümumi sahəsi 297 min kvadratmetr olan torpaq sahələrinin daxilində su, kanalizasiya, işıq, qaz, rabitə şəbəkələrinə birləşmə nöqtələri təmin edilib. İstifadəyə hazır ərazi-daxili və ərazi-xarici mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Gömrük-keçid məntəqələri, həmçinin gömrük yoxlanışlarının aparılması üçün binalar, elektrik yarımstansiyası inşa olunub. Bununla da birinci mərhələdə investorun gəlib işləyəcəyi ərazinin sərhədlərinə qədər artıq bütün kommunikasiyalar çəkilib. Bu ərazidə investorlar tərəfindən istehsal müəssisələrinin yaradılmasına başlanılıb.

Birinci zonanın növbəti inkişaf mərhələsi olan 138 hektar ərazidə də inşaat işlərinə başlanılıb ki, onun da 41 hektarının artıq sahibi var. İnzibati bina funksional olaraq 3 hissədən ibarətdir. Burada Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun ofisi və investorlara bir pəncərə prinsipi ilə xidmət göstərən ofis, investorların idarəetmə qurumları üçün ofislər, təhkim olunmuş gömrük əməkdaşları üçün ofis fəaliyyət göstərir. Səlahiyyətli qurumun ofisi, gömrük ofisi, müştərək iş otaqları, ümumi iclas otaqları mebellərlə və lazımi avadanlıqlarla tam təchiz olunub. Binada çalışan işçi heyətinə və qonaqlara xidmət üçün yeməkxana fəaliyyət göstərir.

Onu da qeyd edək ki, sahə olaraq Ələt müəyyən edilərkən nəqliyyat yollarının bu ərazidə kəsişməsi əsas götürülüb. Aydın məsələdir ki, nəqliyyat-logistik infrastrukturlara yetərincə çıxış olmasa, azad iqtisadi zonanın uğurlu fəaliyyətini təmin etmək mümkün deyil. Ələt isə "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişdiyi yerdir. Ələt Azad İqtisadi Zonasının hazırda yerləşdiyi ərazi Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığındadır. Yaxın perspektivdə isə Ələt qəsəbəsinin cənubunda ən ağır tonnajlı təyyarələri qəbul edə bilən yük hava limanı fəaliyyət göstərəcək. İllik yükaşırma gücü ilkin mərhələdə 500,000 ton, daha sonra isə 1,5 mln. tona qədər artacağı planlaşdırılan hava limanının inşasından sonra Ələt hava, dəniz, avtomobil və dəmir yollarının kəsişdiyi unikal bir məkana çevriləcək.

Ələt Azad İqtisadi Zonasının yaradılması prosesində xarici məsləhətçilər də iştirak edirlər. Amma AFEZ-in səlahiyyətli qurumu bu prosesə hansısa məsləhətçi şirkətləri deyil, məhz azad zonanın yaradılmasında və fəaliyyətinin təmin edilməsində təcrübəsi olan mütəxəssisləri dəvət edib. Bu mənada hazırda AFEZ-də çalışan məsləhətçilərin Şennonda 30-35 ildən çox iş təcrübəsi olan şəxslər olması qarşıdakı uğurlardan xəbər verir.

Xarici məsləhətçiləri çıxmaq şərti ilə AFEZ-i idarə edən səlahiyyətli qurumun kadr heyəti tamamilə yerli vətəndaşlardan ibarətdir.

## İqtisadi mübahisələr ədalətlə yoluna qoyulacaq

Valeh Ələsgərov AFEZ-in söykəndiyi qanunvericilik və hüquqi rejimi barədə də ətraflı məlumat verərək dedi ki, "Ələt Azad İqtisadi Zonası haqqında" qanuna əsasən, iqtisadiyyatın cinayət qanunvericiliyi və cinayət yolu ilə əldə edilmiş digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, o cümlədən hədəfli maliyyə sanksiyaları haqqında qanunvericiliyi istisna olmaqla, digər qanunları Ələt Azad İqtisadi Zonasında tətbiq edilə bilməz. Ziddiyyət yarandıqda isə "Ələt Azad İqtisadi Zonası haqqında" qanunun müddəaları əsas götürülür.

2018-ci ildə bu qanun qəbul edilərkən Azərbaycanın 80-dən çox qanununda uyğunlaşdırma məqsədilə əlavə və dəyişikliklər edilib.

Lakin Ələt Azad İqtisadi Zonasının qanunvericiliyi yalnız bir qanundan ibarət deyil. Qanundan başqa, Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumu tərəfindən təsdiq edilmiş daxili qaydalar da var.

Azərbaycanın məhkəmə ilə bağlı qanunları AFEZ-də tətbiq edilmir. İqtisadi mübahisələrə ilk olaraq daxili qaydalarla aydınlıq gətiriləcək. Daxili qaydalara əsasən, AFEZ-də fəaliyyət göstərən şirkətlər arasında, yaxud Ələt Azad İqtisadi Zonasında çalışan müəssisə ilə Azərbaycanın əsas iqtisadiyyatında fəaliyyət göstərən zavod arasında iqtisadi mübahisə yaranarsa, ilk olaraq, öz aralarında razılığa gələ bildikləri təqdirdə mübahisə başa çatır. Razılığa gələ bilmədikdə, məhkəməyə gedərkən məhkəməni şirkətlər özləri müəyyən edir. Həmin məhkəmənin çıxardığı qərar isə məcburi icra olunmalıdır. Məhkəmənin qərarından şikayət edilə bilməz.

Əlavə olaraq, tərəflər hansı məhkəməyə müraciət etməklə bağlı razılığa gələ bilmədikdə, problem Ələt Azad İqtisadi Zonasının Arbitraj mərkəzində həllini tapmalıdır. Arbitraj mərkəzində problemin həlli Azərbaycan hakimlərinin qərar çıxarması demək deyil. Arbitraj mərkəzi o deməkdir ki, Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumu müvafiq yer ayırır və tərəflər öz arbitorlarını təyin edirlər. Tərəflərin seçdiyi iki arbitor üçüncü sədr seçir və problemi müstəqil şəkildə həll edirlər. Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumu problemin həllinə qarışmır. "Amma eyni zamanda iqtisadi problemlərin həlli zamanı investorları qorumaq üçün müəyyən məhdudiyyətlər də qoyulub. Belə ki, iqtisadi mübahisələr zamanı uduzan şirkətlərdən AFEZ-dəki kapitallarından artıq təzminat tələb edilə bilməz. Yəni uduzan şirkətin təzminatı onun başında duran ana şirkətin kapitalı ilə deyil, Ələt Azad İqtisadi Zonasındakı kapitalla müəyyən ediləcək".

*(ardı var)*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 110 **QƏRAR** Bakı şəhəri, 28 fevral 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2378 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2378 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 4.1-ci bəndinin altıncı abzasından "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 20 may tarixli 53 nömrəli Qərarı, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş Əlavə 1 - "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamə"nin "1. Müharibə veteranları" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. on dördüncü abzasda "birinci bəndinin birinci-yeddinci yarımbəndlərində" sözləri "ikinci-səkkizinci abzaslarında" sözləri ilə əvəz edilsin;

2.2. on altıncı abzasda "birinci bəndinin səkkizinci, doqquzuncu və onuncu yarımbəndlərində" sözləri "doqquzuncu-on birinci abzaslarında" sözləri ilə əvəz edilsin;

2.3. on səkkizinci abzasda "birinci bəndinin doqquzuncu və onuncu yarımbəndlərində" sözləri "onuncu və on birinci abzaslarında" sözləri ilə əvəz edilsin;

2.4. on doqquzuncu abzasdan "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti," sözləri çıxarılsın;

2.5. iyirminci abzasda (birinci halda) "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "Kəşfiyyat Xidməti" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 280 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 969 (Cild I) ilə təsdiq edilmiş "Müharibə veteranlarının reyestrinin aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.2-ci yarımbənddən "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti," sözləri çıxarılsın;

3.2. 6.2-ci bənddə (birinci halda) "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "Kəşfiyyat Xidməti" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 281 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 970 (Cild I) ilə təsdiq edilmiş "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.2-ci yarımbənddən "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti," sözləri çıxarılsın;

4.2. 6.2-ci bənddə (birinci halda) "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "Kəşfiyyat Xidməti" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 324 (Cild I) ilə təsdiq edilmiş "Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"nın 2.2-ci bəndində (birinci halda) "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "Təhlükəsizliyi Xidməti" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 112 **QƏRAR** Bakı şəhəri, 29 fevral 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 60 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə "2710 12 413 0", "2710 12 510 1", "2710 19 421 0", "2710 19 422 0", "2710 19 423 0", "2710 19 424 0", "2710 19 425 0", "2710 19 426 0", "2710 19 429 0", "2710 19 460 0" və "2710 19 480 0" alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (2024-cü il 31 dekabr tarixinədək - 0%)" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2024-cü il martın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 113 **QƏRAR** Bakı şəhəri, 29 fevral 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 59 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 12 413 0", "2710 12 510 1" və "2710 19 310 0-2710 19 480 0" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 12 413 0 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2024-cü il 31 dekabr tarixinədək - 1,0 manat) |
| 2710 12 510 1 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2024-cü il 31 dekabr tarixinədək - 1,0 manat) |
| 2710 19 310 0 | emalın spesifik prosesləri üçün qazoyllar | 1 ton üçün 80 manat |
| 2710 19 350 0 | proseslərdə kimyəvi çevrilmələr üçün qazoyllar | 1 ton üçün 80 manat |
| 2710 19 421 0 - 2710 19 480 0 | digər qazoyllar, o cümlədən dizel yanacağı | 1 ton üçün 80 manat (2024-cü il 31 dekabr tarixinədək - 1,0 manat) |

2. Bu Qərar 2024-cü il martın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-Bolqarıstan əməkdaşlığı təhlükəsizliyə xidmət edir

**Bu gün Azərbaycanın yaxın dostlarına müxtəlif qitələrdə rast gəlmək olar. Belə dostlardan biri Avropanın "cənub-şərq qapısı" adlandırılan Bolqarıstandır. Sənaye-aqrar ölkə olan Bolqarıstan inkişaf etmiş kənd təsərrüfatına malikdir və onun iqtisadiyyatında özəl bölməyə geniş yer verilir.**





Qızılgülü özünə rəmz seçən bu ölkə gözoxşayan çimərlikləri, sıx meşələri və qeyri-adi dağlıq əraziləri ilə məşhurdur. Buna görə də təbiətin qoynunda olmaq istəyənlərin Bolqarıstanda gəzməli-görməli yerləri çoxdur. Füsunkar təbii qoruqlara səyahət, ekoturizm burada çox geniş yayılmış sahələrdir.

Qoca qitənin iqtisadi və siyasi həyatında özünəməxsus yer tutan Bolqarıstan inkişaf etmiş kənd təsərrüfatına, iqtisadiyyatı azad bazar prinsipləri əsasında fəaliyyət göstərən, böyük özəl bölməyə və kiçik dövlət bölməsinə malik olan sənaye ölkəsidir. Dünya Bankının təsnifatına görə, Bolqarıstan yuxarı orta gəlirli sənayecə inkişaf etmiş ölkədir.

Ökə iqtisadiyyatının əsas bölmələri energetika, dağ-mədən sənayesi, metallurgiya, maşınqayırma, kənd təsərrüfatı və turizmdir. Əsas sənaye ixracı məhsulları paltar, dəmir və polad, maşın və yanacaqdır. Ümumi daxili məhsulun həcmi 90 milyard dollara yaxındır. 2023-cü ilin iyuluna olan məlumata görə, ixracatın həcmi 3.841 milyard dollar, idxalatın həcmi isə 4.261 milyard dollar təşkil etmişdir.

Bolqarıstan Respublikası Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 14-də tanıyıb və iki ölkə arasında diplomatik münasibətlər isə 5 iyun 1992-ci ildə qurulub. Bolqarıstanın Azərbaycandakı səfirliyi 1999-cu ilin dekabrından, Azərbaycanın Bolqarıstandakı səfirliyi isə 2004-cü ilin aprel ayından fəaliyyət göstərir.

İki ölkə arasında humanitar əlaqələrin tarixi ötən əsrlərə gedib çıxır. XX əsrin əvvəllərində bir çox bolqar ailələri Ukraynadan Azərbaycana köçüblər və əsasən gözəl tarixi şəhər olan Gəncədə məskunlaşıblar.

1995-ci ildə Ümummilli Lider Heydər Əliyev Bolqarıstan Respublikasının Prezidenti Jelyu Jelevin dəvəti ilə Sofiyaya rəsmi səfər edib. Həmin səfər zamanı iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalanıb. Dövlətlərarası əlaqələrimizə təkan vermiş bu səfərdən sonra Azərbaycan-Bolqarıstan əlaqələri yüksələn xətlə inkişaf etməkdədir.

İndiyədək Azərbaycan ilə Bolqarıstan arasında müxtəlif sahələri əhatə edən möhkəm müqavilə-hüquq bazası yaradılıb, investisiyaların qorunması, ikiqat vergitutmanın aradan qaldırılması, nəqliyyat, gömrük, turizm və digər sahələrdə 80-dən çox sənəd imzalanıb. Bunun nəticəsində Azərbaycanla Bolqarıstan arasındakı ikitərəfli münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Bunun məntiqi davamı kimi, hazırda hər iki ölkədə dövlət başçıları arasında imzalanmış "Strateji tərəfdaşlıq haqqında Bəyannamə" fəaliyyət göstərir. Bu amil həyatın müxtəlif sahələrində münasibətlərin yüksələn xətlə inkişafına münbit zəmin yaradır.

Yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi siyasi münasibətlərin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Maraqlıdır ki, Bolqarıstanın dövlət başçıları digər ölkələrlə müqayisədə Azərbaycana daha çox səfər etmişlər. Prezident İlham Əliyevin də ən çox səfər etdiyi ölkələrdən biri dost Bolqarıstandır.

Prezident İlham Əliyevin 2023-cü il aprelin 25-də Bolqarıstana işgüzar səfəri qarşılıqlı əlaqələrin sürətli inkişafına təkan verdi. Azərbaycan Prezidenti bolqarıstanlı həmkarı ilə təkbətək görüşündə iki ölkə arasında münasibətlərin strateji xarakter daşıdığını bir daha vurğuladı. Həmin gün imzalanan anlaşma memorandumu hər iki ölkənin təşəbbüslərinin reallaşmasında vacib əhəmiyyətə malikdir.

Ölkə parlamentləri arasındakı əlaqələr də strateji tərəfdaşlığın ruhuna uyğun olaraq inkişaf etməkdədir. Hər iki ölkə parlamentində yaradılmış dostluq qrupları əməkdaşlığın inkişafına öz töhfəsini verir. Qeyd etmək yerinə düşər ki, 2023-cü ilin sentyabrında Bolqarıstan Respublikasının Baş naziri Nikolai Denkov ilə Azərbaycanın Milli Məclisin Sədri Sahibə Qafarova arasında keçirilmiş görüş həmçinin yeni əməkdaşlıq imkanlarının gündəmə gətirilməsi ilə yadda qaldı.

Həmçinin hazırda Azərbaycan ilə Bolqarıstan çoxtərəfli təsisatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirlər. Beynəlxalq qurumların kürsülərindən həmişə bir-birinin maraqlarını müdafiə edirlər. Hər iki ölkə BMT və onun müxtəlif qurumlarından başqa, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür, hansı ki Azərbaycanın Bolqarıstan da daxil olmaqla Cənub-Şərqi Avropa ölkələri ilə əlaqələrinin inkişafına kömək edir.

Hökumətlərarası münasibətlər də normal məcrada inkişaf edir. İki ölkə arasında xarici işlər nazirlərinin sədrliyi ilə Azərbaycan-Bolqarıstan strateji dialoqu fəaliyyət göstərir. Mütəmadi olaraq strateji dialoqun iclasları növbə ilə hər iki ölkədə keçirilir.

İqtisadi əlaqələr qarşılıqlı faydalı əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Bolqarıstan Azərbaycanda nəqliyyat və logistika sahəsinin, nəqliyyat dəhlizlərinin inkişafında, o cümlədən əczaçılıq, informasiya texnologiyaları sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Bolqarıstan Azərbaycanla birlikdə Avrasiya nəqliyyat dəhlizi layihəsində (TRASECA) fəal iştirak edir. İki dövlət arasında həmçinin regional təşkilat olan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də sıx münasibətlər mövcuddur. Bu dost ölkə Azərbaycanı Cənubi Qafqazda və Qara dəniz regionunda prioritet, strateji və etibarlı tərəfdaş hesab edir. Azərbaycan tərəfi də Bolqarıstanı Avropa İttifaqındakı strateji tərəfdaşı sayır.

Bu gün enerji sahəsində əməkdaşlıq Azərbaycan-Bolqarıstan münasibətlərinin təməl daşı hesab edilir və bu, artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bolqarıstan "Cənub qaz dəhlizi"nin üzvüdür. Məlum olduğu kimi, "Cənub qaz dəhlizi"nin maliyyə tutumu 40 milyard dollara bərabərdir və bu layihə 7 ölkəni birləşdirir ki, onlardan biri də Bolqarıstandır. "Şahdəniz" yatağından qaz artıq Avropa ölkələrinə çatdırılır.

"Cənub qaz dəhlizi"nin Avropa hissəsi olan TAP vasitəsilə hər il Bolqarıstana bir milyard kubmetr həcmində qaz nəql olunur. Bolqarıstan 2023-cü ilin ilk 10 ayı ərzində Azərbaycandan təbii qaz alışını 3 dəfəyə yaxın artırıb. Ötən ilin yanvar-oktyabr ayları ərzində bu ölkəyə 982.8 milyon $m^3$ həcmində təbii qaz ixrac edilib və bu, əvvəlki illə müqayisədə 168 faiz çoxdur. Azərbaycan Bolqarıstana satdığı təbii qaza görə bu ölkədən 363.3 milyon dollar gəlir əldə edib. Azərbaycan tərəfi təbii qazın hər 1000 kubmetrini 2022-ci ilin ilk 10 ayında orta hesabla 648.5 dollara satdığı halda, 2023-cü ilin müvafiq dövründə 369.6 dollara satıb. Bu da qiymətlərin illik 43 faiz daha ucuz olması deməkdir.

İki ölkə arasında ticarət əlaqələri ildən-ilə genişlənir. Ötən il Azərbaycan ilə Bolqarıstan arasında ticarət dövriyyəsinin həcmi 456 milyon dollardan çox olub. Azərbaycan Bolqarıstana 429 milyon dollarlıq məhsul ixrac edib. Azərbaycanın Bolqarıstandan idxal etdiyi məhsulların dəyəri isə 27 milyon dollar təşkil edib.

2023-cü ilin yanvar-iyun aylarında Azərbaycandan Bolqarıstana 184 milyon 568 min dollar dəyərində məhsul ixrac edilib. Bolqarıstana məhsul ixracı ötən ilin yanvar-sentyabr aylarında 2 dəfədən çox artıb. Hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları və əczaçılığın inkişafı üçün müxtəlif layihələr həyata keçirilir.

Azərbaycan-Bolqarıstan Hökumətlərarası Komissiyasının fəaliyyəti də iqtisadi əlaqələrin inkişafı baxımından əhəmiyyətlidir. Hazırda Azərbaycanda Bolqarıstan kapitallı 10-dan çox şirkət fəaliyyət göstərir. Azərbaycan-Bolqarıstan biznes-forumlarının müntəzəm keçirilməsi də iqtisadi əməkdaşlığın yeni sahələrinin aşkara çıxarılmasına müsbət təsir göstərir.

Mədəni sahədə əlaqələr də hər iki ölkə xalqlarının bir-birilə yaxınlaşmasında böyük rol oynayır. Təsadüfi deyil ki, hər iki ölkə rəhbərliyi tərəfindən mədəni əlaqələrin səviyyəsi yüksək qiymətləndirilir. Təqdirəlayiq haldır ki, iki ölkə şəhərləri arasında qardaşlaşma halları artıq bir ənənə halını almışdır. Şəki-Qabrovo (hər ölkənin yumor paytaxtları), Naxçıvan-Veliko Tırnovo, Sumqayıt-Burqas, Gəncə-Plovdiv. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ilə Veliko Tırnovo şəhəri arasında qardaşlıq əlaqələrinin yaradılması haqqında memorandumun da önəmi böyükdür.

Azərbaycan tərəfi bu dost ölkədə bir sıra mədəni obyektlərin bərpasında öz xeyriyyəçilik missiyasını yerinə yetirmişdir. Belə ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Bolqarıstanın Veliko Tırnovo şəhərinin inzibati mərkəzində yerləşən Trapezitsa Memarlıq Muzey-Qoruğu bərpa edilmişdir. Fond həmçinin qoruğun 158 metrlik qərb divarının yenidən qurulmasına, 880 metrlik turist xiyabanının tikintisinə və Bolqarıstanda Orta əsrlər dövrünə aid üç kilsənin yenidən qurulmasına maliyyə yardımı göstərib.

Elm və təhsil sahəsində əlaqələr də ürəkaçandır. Hazırda Bolqarıstanın Azərbaycandakı səfirliyinin köməyi ilə Bakı Slavyan Universitetində yaradılmış Bolqar Dili və Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. Müasir texniki avadanlıqla təchiz edilmiş mərkəzin nəzdində həmçinin bədii ədəbiyyat, siyasi tarix, iqtisadiyyat və bolqar dili üzrə materiallardan ibarət kitabxana fəaliyyət göstərir. Mərkəzin əsas vəzifəsi Azərbaycan və Bolqarıstan arasında mədəni əlaqələri inkişaf etdirmək, gənclərin hər iki ölkənin mədəniyyətinə, təhsilinə, maarifinə və elminə marağını artırmaq və həmçinin universitetdə bolqarşünaslıq istiqaməti üzrə tədris prosesinin təkmilləşdirilməsinə kömək etməkdir.

Hər iki ölkənin zəngin təbiəti və hər iki xalqın qonaqpərvərliyi xarici turistləri cəlb edən mühüm amillərdir. Bu cəhətdən iki ölkə arasında turizm sahəsində də əlaqələr inkişaf etməkdədir. Təsadüfi deyil ki, turizm sahəsinin qabaqcıl iştirakçılarını bir araya toplayan ənənəvi 19-cu Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi "AITF" ötən il aprelin 4-6-da "Bakı-Ekspo" Mərkəzində keçirildi. Sərginin daimi iştirakçısı olan Bolqarıstan bu tədbirin baş sponsoru oldu. Sərgidə tibbi və sağlamlıq turizmi, maarifləndirici turizm, xaricdə daşınmaz əmlak, idman avadanlığı, ovçuluq və balıqçılıq, dəniz və çay kruizləri, aviaşirkətlər, milli və regional turizm orqanları, turizm agentlikləri və tur operator kimi müvafiq bölmələr təmsil olundu. Sofiya ilə Bakı arasında birbaşa hava əlaqəsinin bərpası isə Azərbaycanla münasibətlərin genişlənməsinə mühüm töhfə verir.

Böyük əminliklə qeyd edə bilərik ki, qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanın Avropada regional geosiyasi və geoiqtisadi mövqeyini möhkəmləndirməklə yanaşı, Bolqarıstanın da Cənubi Qafqazda mövqelərini daha da gücləndirəcəkdir. Bu əməkdaşlıq Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatında mühüm rol oynayır. Bü gün nikbinliklə vurğulaya bilərik ki, qarşılıqlı faydaya əsaslanan Azərbaycan-Bolqarıstan əməkdaşlığı Avropanın digər ölkələri üçün də nümunə ola bilər.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# REGİONLAR

## Şəhid ailələrinin problemləri operativ həll edilir



**Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə Qazax rayonunda da xüsusi diqqət göstərilir. Rayon rəhbərləri tez-tez bu kateqoriyadan olan insanlarla görüşür, onların problemləri ilə maraqlanırlar.**

Keçirilən növbəti görüşdə, əsasən şəhid ailələrinin problemləri müzakirə edilmişdir. 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid tibb xidməti leytenantı Adil Əfəndiyevin atası Qədir Əfəndiyevlə, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid gizir Sərxan Abdullayevin atası Elxan Abdullayevlə, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuş şəhid baş leytenant Xaliddin Nəsibovun atası Vaqif Nəsibovla, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuş şəhid gizir Amid Məmmədovun atası Müqabil Məmmədovla, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunmuş şəhid kiçik gizir Röyal Mədətovun anası Zərifə Cəlilova ilə keçirilən görüşdə qaldırılan bir çox məsələ öz həllini tapmışdır.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qazax rayon filialının sədri Xasay Balayevin, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Qazax rayon şöbəsinin sədri Azər Məmmədovun iştirak etdikləri görüşdə şəhidlərimizə olan hörmət və ehtiram ifadə olunmuş, illər ötsə də, şəhidlərimizə olan sonsuz ehtiramın və sevginin heç zaman dəyişməyəcəyi, əksinə, daha da artacağı vurğulanmışdır.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmiş, dövlətin dəstəyini hər zaman hiss etdiklərini dilə gətirmişlər. Qeyd etmişlər ki, bu gün müstəqil Azərbaycanda dövlət başçısının rəhbərliyi altında həyata keçirilən dövlət siyasətinin əsasını vətəndaş amili, vətəndaş məmnunluğu təşkil edir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## "Torpaq vətəndir, ondan üz çevirmək olmaz"

### 88 yaşlı biləsuvarlı fermer Lətif Cəfərov bu gün də əkib-becərməklə məşğuldur

**Kiçik çillədən sonrakı Boz aydır indi. Artıq günlərin uzanmasını, havaların nisbətən qızmasını hiss etməyə başlamışıq. Bu dövr, yəni Novruz bayramına kimi havalar dəyişkən - bir gün qışdan, bir gün yazdan olacaq. Min illərdir belədir. Bəlkə də, bu cür "təqvim" kənd adamları - əkin-biçin işləri və heyvandarlıqla məşğul olanlar tərəfindən tərtib olunub və sınaqlardan keçərək təsdiqini tapıb. Buna görə də fevral ayının ortalarından sonra çırmalanıb yaz tarla işlərinə girişirlər.**



Qədim əkinçilik ənənələrini davam etdirən Biləsuvarda da bu belədir. Çünki burada zəhmətə bağlı, ailəsinin ruzisini, dolanışığını torpaqdan çıxaran kənd adamı çoxdur. Lətif Cəfərov onların ən yaşlısı, təcrübəlisidir. Ağlı kəsəndən təsərrüfat işləri ilə məşğul olub, torpaqla sidq-ürəkdən ünsiyyət bağlayıb. Hələ orta məktəbdə oxuyarkən yay tətili zamanı ata-anası ilə birlikdə səhər tezdən pambıq sahəsinə gedib, alaq otlarının vurulmasında, suvarmada yaxından iştirak etməklə gələcəkdə kənd təsərrüfatı işçisi - aqronom olması üçün ömür yolunu müəyyənləşdirib. Bu arzu və istəklə orta məktəbi bitirib, Salyandakı Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsinə daxil olub. Aqronom-entomoloq, aqronom, briqadir vəzifələrində çalışıb. Halal zəhməti və qazandığı nailiyyətlərlə Biləsuvarda, doğulub boya-başa çatdığı Təzəkənddə sayılıb-seçilib. Sovet dövləti dağılandan sonra da torpaqla ünsiyyətini kəsməyib.

Olub-keçənlərdən, bu gündən söz düşəndə Lətif kişi fikirləşib-eləmədən söhbətə başlayır:

- Hər bir quruluşun, hər bir dövrün, zamanın öz müsbət və mənfi tərəfləri var. SSRİ fəhlə-kəndli dövləti idi. Hər kəs pis-yaxşı dolanırdı. Adamlar arasında elə bir fərq, ayrı-seçkilik yox idi. Yaxşı işləyənlərə hörmət edirdilər, adsan verirdilər. Sosialist Əməyi Qəhrəmanı adı almaq böyük xoşbəxtlik idi. Deputat olmaq, orden və medallarla təltif edilmək də həmçinin. Mən özüm qabaqcıl pambıqçılıq briqadiri olduğum üçün o zaman bir neçə orden və medalla təltif olunmuşam. Qazandığım nailiyyətlərə görə Heydər Əliyev rayonumuza gələrkən iclasda mənə "QAZ-24" markalı minik maşınının açarını verdi. O vaxt üçün bu, böyük mükafat idi. Sözümün canı odur ki, ağlı başında olan adam elə hər dövrdə öz yolunu tapır, yəni doğru-dürüst yaşamağı bacarır. Elə indi də, sağ olsunlar, əməyimə qiymət verirlər. Bu ahıl çağımda aldığım "Tərəqqi" medalı ürəyimi fərəh hissi ilə doldurdu.

Lətif kişi söhbətinə azacıq ara verib yenə əvvəlki fikrinin davamına qayıdır:

- SSRİ dağılandan sonra da təsərrüfatdan, torpaqdan əl çəkmədim. Əslində, başqa iş də əlimdən gəlmir. Odur ki, oğlanlarımı başıma yığıb əkin-biçin işi ilə məşğul olmağa başladım. 1996-cı ildə pay torpağını alanda özümü mülkiyyətçi kimi hiss etdim. Düzdür, çox adam torpağın nə olduğunu qiymətləndirə bilməyib onu dəyərdəyməzinə satdı. Amma mən belə edə bilməzdim, çünki göbəyim torpaqda kəsilib. Bir müddət keçəndən sonra dövlət başçısının göstərişi ilə pambıqçılığa diqqət artırılanda səhv etmədiyimə bir daha əmin oldum. Torpaqdan ki söz düşüb, bunu deməyə bilmərəm. Çox sağ olsun Prezidentimiz, Allah canını sağ eləsin. Onun Qarabağı ermənilərdən geri alması nəyə desən, dəyər. Bu, Azərbaycanın tarixində görünməmiş bir qəhrəmanlıqdır. Odur ki, bizim üçün torpağın qiyməti yoxdur, o vətəndir, ondan üz çevirmək olmaz. Üstəlik, yaxşı qulluq etsən, nə istəsən, sənə verəcək. Belə götürəndə indi dünyada baş verən müharibələrin mərkəzində də torpaq durur. Güclülər onu işğal, sahibləri isə müdafiə edirlər. Nə başınızı ağrıdım, torpaqlar bölünəndən sonra oğlanlarımı da yanıma aldım, öz təsərrüfatımızı qurduq. Rayonda hamı bilir mənim pambığa olan münasibətimi.

- Hə, mən də bilirəm, - deyirəm, - Sizə "pambıq Məcnunu" deyirlər.

- Deməli, bu söz sizə də gəlib-çatıb? Əvvəla, pambıqçılıq gəlirli sahədir. Sonrası da növbəli əkin üçün lazımlı bitkidir. Çünki pambığın yerinə əkilən taxıl və ya digər kənd təsərrüfatı bitkisi yüksək məhsul verir, xəstəliklərə qarşı davamlı olur. Dediyim kimi, bu üsulu tətbiq etməklə biz məhsuldarlığı ildən-ilə artırmışıq. Sahələrin hamarlanmasını, ona üzvi gübrələrin, yəni "yanmış" peyinin verilməsini də yaddan çıxarmamışıq. Bunlara görə keçən ilin payızında əkdiyim 70 hektar buğda sahəsində, maşallah olsun, yaxşı bitiş var. Qış aylarında kollanma əmələ gəlib. Bu o deməkdir ki, bir kökdən bir neçə boru yaranıb sünbül verəcək. Beş-altı gündür ki, həmin sahələrə karbamid gübrəsi verməyə başlamışam. Qurtaran kimi suvaracam. Allah eləsin, yağış da yağsın. Yaz yağışının xeyri var. Həm də çöl-bayırda ot əmələ gəlir. Mal-qara, qoyun-quzu yeyib istədiyin qədər süd verir. Builki təsərrüfat ilindən yüksək məhsul gözləyirik. Yanvar ayında rayon ərazisinə iki dəfə qar düşdü. Bu, bolluq olacağından xəbər verir. Pambığa gəldikdə isə, bu il 20 hektar əkməyi planlaşdırmışam. Hələ keçən ilin yayında taxılı biçib şum qaldırmışam. Ümid edirəm, yaxşı olacaq.

Lətif kişi söhbət zamanı onu da dedi ki, kəndli, fermer ətə, südə, yağa, yumurtaya pul verməməlidir: "Qapısında, təsərrüfatında mal-qara, toyuq-cücə saxlamalıdır. Öz ailəsinin tələbatını ödəməklə bərabər, artığını satmalıdır. Amma bazara təmiz, halal məhsul çıxarmalıdır. Torpağa haram qatmaq olmaz. Belə söhbətləri, sözləri yeri gələndə bütün fermerlərə deyirəm, cavan fermerlərə, təsərrüfatçılara yaxşı məsləhətin nə zərəri var?!"

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Aqrar sektorda şaxələnmə uğurlu nəticələr verir

### Azərbaycan dünyada fındıq istehsalına görə ilk beşlikdə, ixracına görə üçlükdədir

**Fındıqçılığın inkişafı neçə ildir ki, aqrar sektorda diqqət mərkəzindədir. Bu istiqamətdə Oğuz, Şəki, Qax, Zaqatala və digər rayonlarda ciddi işlər görülür. Quba-Xaçmaz zonasında yeni texnologiya əsasında salınan fındıq bağlarında İtaliyadan gətirilən sortların əkilməsi məhsuldarlığı xeyli artırmışdır. Məsələn, Qubada bu fındıq sortlarının məhsuldarlığı yerli sortları 3-4 dəfə üstələmişdir.**

Prezident İlham Əliyev hələ 2019-cu ildə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransdakı nitqində fındıqçılığa xüsusi diqqət yetirildiyini bildirmişdir: "Biz fındıq bağlarının sahəsini qısa müddətdə böyük dərəcədə artırmışıq. 2016-cı ildə bizim 40 min hektar fındıq bağlarımız olub, bu gün artıq 75 min hektara çatıb və bu il 9 min hektar da əkiləcək. Beləliklə, biz 84 min hektarda fındıq yetişdirəcəyik. Əlbəttə, yeni salınan bağlar bar gətirənə qədər bir neçə il keçəcək. Amma ondan sonra fındıq ixracının həcmi iki dəfədən çox artacaq və fermerlərə indikindən iki dəfə çox vəsait gələcək. Hazırda fındıqçılıqda 20 min nəfər işləyir".

Dünyada fındıq bazarında baş verənlər mütəxəssislərin diqqət mərkəzindədir. Bu gəlirli sahənin inkişafında demək olar ki, hamı maraqlıdır. Odur ki, ölkənin kənd təsərrüfatında bu məhsulun əhəmiyyəti, onun inkişafını ləngidən məqamlar diqqətdən kənarda qalmır. Qeyd edək ki, HAZER adlı layihənin də məqsədi Azərbaycanda fındıqçılıq sektoruna dəstək olmaq, bu sahənin beynəlxalq arenada inkişafına dəstək verməkdir.

Kənd Təsərrüfatı Nazirliyi ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) fındıqçılıq sahəsində səmərəliliyin və dayanıqlılığın sürətləndirilməsi məqsədilə kiçik fermerlərə dəstək verir, məhsuldarlığı artırmağa çalışır. Yeri gəlmişkən bildirək ki, hökumət fındıqçılığın inkişafına ayrılan kreditlərin məbləğini xeyli artırmışdır. Belə yüksək qayğı ona səbəb olmuşdur ki, artıq biz dünya üzrə fındıq istehsalının ən böyük payına malik ilk 5 ölkədən biriyik. Daha dəqiq, Beynəlxalq Fındıq və Quru Meyvə Şurasının 2022-2023-cü illər üzrə hesabatında dördüncü olmuşuq.

Azərbaycan hökuməti fermerlərə dəstək vermək üçün bütün vacib addımları atır. Son illər Azərbaycanda kənd təsərrüfatında sığorta sisteminin tətbiqi də fermerləri bu sahəyə həvəsləndirib. Artıq bu işlə məşğul olanlar fındıq sahələrinin sığortalanmasına daha ciddi və inamla yanaşırlar. Bilirlər ki, hər hansı problem ortaya çıxarsa, onunla təkbaşına qalmayacaqlar. Bundan əlavə, ölkədə fındıq istehsalı dövlət tərəfindən stimullaşdırılır. Aqrar Subsidiya Şurasının qərarına əsasən, intensiv fındıq bağlarının hər hektarına görə 400, köhnə bağların hər hektarına görə isə 240 manat subsidiya ödənilir.

Amma bütün bunların əvəzində fındıqçılıqda heç bir problemin olmadığını demək hələ tezdir. Bu sahənin adamları ilk növbədə iqlim dəyişikliyindən və su qıtlığından əziyyət çəkirlər. Fındıqçılar üçün 2023-cü il də o qədər asan olmayıb. Su qıtlığı bir sıra regionlarda məhsuldarlığa mənfi təsir edib. Hazırda məhsuldarlığın artırılması üçün müasir texnologiyaların tətbiqinə fikir verilir. Bununla bağlı seminarlar keçirilir, təcrübə mübadiləsi aparılır.

Hazırda ölkəmizdə İtaliya mənşəli "Çifoni", "Romano" və "Naçioni" sortları və təbii ki, yerli dədə-baba sortları əkilir. Amma bir məsələ var ki, fındıq bağları çox gec bəhərə düşür. Ənənəvi üsulla salınan bağlarda ilkin məhsuladüşmə 6-cı, tam məhsuldarlıq isə 16-cı ildən başlayır. İtalyan texnologiyasının tətbiqi ilə salınan bağlarda isə 4-cü ildən ağaclar məhsul verir. Ona görə də fermerlərimizin müasir dünya təcrübəsinin bütün imkanlarından yararlanmağa meyil göstərmələri, daha tez bəhərə düşən və daha məhsuldar növlərə üstünlük verməları təbiidir. Nəticə də pis deyil. Əlimizdə olan məlumata görə, Azərbaycan fındıq ixracında dünyada Türkiyə və İtaliyadan sonra 3-cüdür. Lakin bu, son hədd deyil, məhsuldarlığı artırmaq üçün ciddi imkanlar mövcuddur. Məlumat üçün bildirək ki, hazırda hər hektarın məhsuldarlığı 1,5 tondur.



O ki qaldı qazanca, keçən ilin yanvar-sentyabr aylarında Azərbaycan fındıq ixracından 110 milyon 643 min dollar gəlir əldə etmişdir. Bu o deməkdir ki, artıq kənd təsərrüfatı məhsulları arasında fındıq mühüm yer tutur və ixrac potensialına görə gərəkli meyvə sayılır. Fındıqçılığın inkişafı üçün görülən tədbirlərin nəticəsidir ki, 2023-cü ildə Azərbaycanda meşə fındığının da ixracı artmışdır - 9 faiz. Bütünlükdə 21 min 947,71 ton meşə fındığı ixrac edilmişdir. Və sonda, hazırda ölkə üzrə fındıq bağlarının ümumi əkin sahəsi 79,5 min hektardır. Bu bağların 43,4 min hektarı və ya 54,6 faizi bar verən yaşdadır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Vaxtında və yetərincə su olarsa...

**Qışın tədricən başa çatdığı, yazın isə boy göstərdiyi bu günlərdə Göygöl rayonunda torpaq adamlarının qayğıları daha da artıb. Hava soyuq və yağıntılı olsa da, əkinçilər payızın bol məhsulu üçün indidən zəmin yaradırlar.**



Xüsusilə taxılçılar əkin sahələrində yorulmaq bilmədən çalışır, sahələrə yemləmə gübrələri verir, alaqlara və ziyanvericilərə qarşı mübarizə tədbirləri həyata keçirirlər. Ancaq əkin sahələrinə nə qədər aqrotexniki qulluq göstərsən də, bol məhsul üçün vaxtında və yetərincə suvarma suyu əsas şərtlərdəndir. Bu olmasa, bol məhsul əldə etmək mümkün deyil. Həmin işdə isə melioratorların üzərinə böyük vəzifələr düşür.

Yaz tarla işlərinə artıq başlanılıb. Bu məsul dövrdə yolumuzu Göygöl Suvarma Sistemləri İdarəsinə saldıq və idarənin rəisi İsmayıl Əvəzovdan öyrəndik ki, idarədə yaz tarla işlərinə hələ keçən il məhsul yığımı başa çatan kimi başlanılıb. Görüləcək işlərin müddəti və vaxtı ilə bağlı tədbirlər planı tərtib edilib və onlar yerinə yetirilib.

Göygöl Suvarma Sistemləri İdarəsi 15210 hektar suvarılan əkin sahələrinə xidmət göstərir. Bunun 12626 hektarı Göygöl rayonu, 2205 hektarı Gəncə şəhəri, 379 hektarı isə Daşkəsən rayonu ərazisində olan suvarılan torpaqlardır. İdarə üzrə suvarmada 5 mənbədən istifadə olunur. Onlar Gəncəçay, Kürəkçay, Qoşqarçay, 296 subartezian quyusu, 10 su nasos stansiyası, mənbəyi Şəmkirçaydan götürülən Şəmkirçay Su anbarının sağ sahil kanalıdır. Su mənbələrindən səmərəli istifadə edilməsi üçün hər il məhsul yığımı başa çatan kimi kanallarda təmizlik işləri aparılır. Məsələn, keçən il idarənin balansında olan kanallar mövcud mexanizmlərlə 652 min kubmetr həcmində lildən təmizlənmişdir. Əlavə olaraq 50 hidrotexniki qurğu, 30 hidropost cari təmir edilmiş, arxlarda və kanallar kol-koslardan təmizlənmişdir. Bundan başqa, qapalı boru kəmərlərində 6 kilometr uzunluğunda beton kanalların 3 kilometrlik hissəsində cari təmir işləri yerinə yetirilmişdir.

Rayon ərazisində sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində də müvafiq işlər görülmüşdür. Belə ki, sel və daşqınların qarşısını almaq üçün keçən ilin may ayında Gəncəçay, Kürəkçay, Qoşqarçayların məcraları mexanizmlərlə tənzimlənmiş, Nadel, Mollaosman, Qızılca və Bəhrəmbağ arxlarının və kanalların dəhnələri şitlər, beton bloklar və digər vasitələrlə təkrar olaraq möhkəmləndirilmişdir. İş elə gətirdi ki, elə həmin vaxtlar regiona intensiv yağışlar düşdü. İdarədə operativ olaraq qərargah yaradıldı və həmin qərargahın fəaliyyəti nəticəsində yaranan fəsadların qarşısı vaxtında alındı. İdarənin canlı qüvvəsi və texnikasının köməyi ilə suvarma şəbəkələrində tıxaclanaraq sıxılıb qalmış böyük ağac və digər kütlələr kənarlaşdırıldı, selin çay axımı istiqamətində axıdılması təmin edildi.

İdarənin balansında 10 nasos stansiyası var ki, onlardan 7-də nəzərdə tutulan təmir işləri başa çatdırılmışdır. Çaylı nasos stansiyasında selin vurduğu fəsadlar, eləcə də nasos stansiyasına ayrılan dəhnənin sel keçən zaman dağılan hissələri bərpa edilmişdir. Həmçinin kəndlərdəki mühafizə şitlərindəki elektrik avadanlıqları yenisi ilə əvəz olunaraq işlək vəziyyətə gətirilmişdir.

Azərbaycan Su Ehtiyatı Agentliyinin təsdiq etdiyi 2023-cü ilin əsaslı tədbirlər planına uyğun olaraq, Xanarxı kanalının beton üzlüyə alınması da başa çatdırılmışdır. Mənbəyini Xanarxı kanalından götürən Üçtəpə, Quşqara, Xaqani kəndlərinin əkin sahələrinin suvarma və əhalinin məişət suyuna olan tələbatını ödəmək üçün qapalı boru xəttində müxtəlif işlər görülmüşdür.

Paralel olaraq Quşqara kəndində və Səmədli qəsəbəsində yerləşən subartezian quyularının əvvəlki məhsuldarlığını bərpa etmək üçün hər 3 quyu yenidən qazılaraq sakinlərin istifadəsinə verilmiş, subartezian quyularındakı 12 nasos aqreqatı yenisi ilə əvəzlənmiş, 24 subartezian quyusunun mühafizə idarəetmə şitlərinin elektrik avadanlıqları təmir edilmiş, təmirə yaramayan 3 idarəetmə şiti dəyişdirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Ümumdünya Yazıçılar Günü

**Mart ayının 3-də dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da Ümumdünya Yazıçılar Günü kimi qeyd olunur. Həmin gün Yer üzünün harasında olursa-olsun, yaradıcı insanlar peşə bayramlarının sevincini yaşayırlar. Belə günlərdə ədəbiyyat tarixini dəyərli əsərləri ilə zənginləşdirən yazıçılar hörmətlə xatırlanır.**



## Dövlətimiz yaradıcı insanlara böyük diqqət göstərir

### Onlar dəyərli əsərləri ilə dünya ədəbiyyatına əvəzsiz töhfələr verirlər

Peşə bayramlarının tarixini öyrənmək həmişə oxucularda böyük maraq doğurur. Bunu nəzərə alıb qısa da olsa, Ümumdünya Yazıçılar Gününün tarixinə nəzər salmaq istəyirik. Yüz ildən çox yaşı olan bu peşə bayramı 1921-ci ildən PEN-klub tərəfindən (bu ad ingiliscə üç sözün-poets (şair), essayists (oçerkçi) və nvelists (novella, roman müəllifi) - ilk hərflərindən yaranan qısaltmadır) qeyd olunmağa başlayıb. PEN-klubunun ilk beynəlxalq konqresi 1923-cü ildə Londonda keçirilib. 1986-cı il yanvarın 12-dən 18-dək PEN-klubun sayca 48-ci beynəlxalq konqresi baş tutub.

Həmin tədbirin iştirakçıları mart ayının 3-nü "Yazıçının Ümumdünya Sülh Günü" elan edilməsi barədə qərar qəbul edirlər. Həmin vaxtadək artıq dünyanın yüzdən çox ölkəsində PEN-klub mərkəzləri fəaliyyət göstərirdi. Bir sıra ölkələrdə bu tədbir sadəcə "Yazıçı Günü" adlanır və bir növ daha çox fərqlənmiş ədibləri təbrik etmək və mükafatlandırmaq üçün münasib gün kimi qeyd olunur. Bu bayram "Dördüncü hakimiyyət"in - demokratik mətbuatın mənfi aspektlərinə qarşı çıxmağa, yalan yazılara, məqsədli təhriflərə, faktların bilərəkdən saxtalaşdırılmasına, yaxud siyasi, qrup və şəxsi maraqlar naminə gerçəyin qərəzli şəkildə yozulmasına yol verməməyə çağıran peşə bayramıdır.

Qeyd edək ki, PEN-klub Azərbaycanda da yaradılıb. Üzvləri də kifayət qədər tanınmış adamlardır. Bu təşkilat ölkəmizdə 2011-ci ildə yaradılıb və prezidenti postuna tanınmış yazıçı Çingiz Abdullayev seçilib. Bütün dünyada fəaliyyət göstərən PEN-klubların məqsəd və vəzifələri respublikamızda uğurla həyata keçirilir. Ölkəmizdə PEN-klubun məqsədlərindən biri də Azərbaycan ədəbiyyatını və yazıçılarını dünya ölkələrində tanıtmaqdır. Tanıtmaq isə təbiidir ki, ilk növbədə tərcümə vasitəsilə mümkündür.

Yaradıcı insanlar Ümumdünya Yazıçılar Gününün keçirilməsini müsbət qarşılayırlar. Dünyanın bir çox ölkəsində fəaliyyət göstərən PEN-klublar sıralarında yüzlərlə yazıçını birləşdirir. Yeri gəlmişkən, onu da bildirək ki, bəzi ölkələrdə heç yazıçılar birliyi də yoxdur. Əslində, yazıçılıq sovet dövründə ideoloji bir peşə idi. Əgər belə demək mümkünsə, o dövrün rəhbərliyi yazıçılara ideoloji cəbhənin nümayəndəsi kimi baxırdı. Yazıçıların əksəriyyəti o vaxtlar ideologiyaya xidmət edən əsgərləri xatırladırdı.

Ölkəmizdə də sıralarında 2000 çox yaradıcı insanı birləşdirən Azərbaycan Yazıçılar Birliyi fəaliyyət göstərir. Yazıçılar Birliyi 1934-cü il iyunun 13-də Bakıda Azərbaycan Yazıçılarının I Qurultayında yaradılmışdır. O vaxta qədər Azərbaycan yazıçıları ayrı-ayrı ədəbi birliklərin və məclislərin tərkibində fəaliyyət göstərmişlər. 1923-cü ildə Azərbaycan yazıçılarını bir təşkilatda birləşdirmək zərurəti meydana çıxarkən bir neçə yazıçı çap etdirdikləri müraciətdə "Türk ədib və şairlər ittifaqı dərnəyi" təsis etdiklərini bildirmişdilər. Həmin ədəbi birlik "İldırım" adlanırdı. "Qızıl qələmlər" ədəbi cəmiyyəti də təxminən bu dövrlərdə formalaşmış və ətrafına gənc ədibləri yığmışdı. Bu cəmiyyət əsaslı və ədəbi təşkilat kimi 1925-ci il dekabrın 25-də Bakıda yaradılmış və dövrünün ədəbi dərnəklərini öz ətrafında birləşdirmişdi. "Qızıl qələmlər" cəmiyyəti tez-tez müşavirələr, ədəbi gecələr, görüşlər, məruzələr təşkil edir, tədbirlər həyata keçirirdi. Belə tədbirlər isə yazıçıları bir təşkilat kimi ətrafına toplayır, onların yaradıcılığına müsbət təsir göstərirdi.

1927-ci il iyul ayının əvvəllərində Azərbaycan yazıçılarının birinci ümumi yığıncağında bütün ədəbi qüvvələri bir təşkilat ətrafında birləşdirmək qərara alındı. Beləliklə, Azərbaycan Yazıçılar Cəmiyyətinin müvəqqəti idarə heyəti yarandı. Bakıda Ümumazərbaycan yazıçılarının birinci və ikinci qurultayı çağırıldı.

1991-ci ildə Sovetlər Birliyi dağıldıqdan sonra postsovet ölkələrindəki yaradıcı təşkilatları gözdən salmaq üçün onların üzərinə qərəzli və haqsız hücumlar təşkil edildi. Həmin dövrdə cəmiyyətin aparıcı qüvvəsi olan yazıçı və şairlər, həmçinin üzv olduqları yaradıcı təşkilatlar dövrlərinin ən çətin günlərini yaşadı. Yaradıcılıqdan, yazıçılıqdan uzaq olanlar Yazıçılar Birliyinin də ləğv olunmasını tələb edirdilər. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra Yazıçılar Birliynin, həmçinin bütün yaradıcı təşklilatların qorunub saxlanmasına və fəaliyyət göstərməsinə nail oldu. Bu gün dövlətimiz yazıçılara böyük diqqət və qayğı göstərir. Onların sosial və məişət problemlərinin həll olunması istiqamətində çox mühüm addımlar atır.

Azərbaycanın yazıçı və şairləri Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Qətran Təbrizi, İmadəddin Nəsimi, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid , Səməd Vurğun, Abdulla Şaiq, Süleyman Rüstəm, Mkayıl Müşfiq, Məmməd Səid Ordubadi, Süleyman Rəhimov, Anar, Elçin, Mövlud Süleymanlı, İsmayıl Şıxlı və yüzlərlə başqaları zaman-zaman dəyərli əsərləri ilə dünya ədəbiyyatına əvəzsiz töhfələr vermişlər.

Bu günlər Zəfər tariximizi yazan Azərbaycan yazıçıları hər il Ümumdünya Yazıçılar Gününü böyük sevinc və uğurlarla qeyd edirlər. Həmişəki kimi, yazıçılarımız bu il də həmin gün yeni əsərləri ilə həm oxucularını sevindirəcək, həm də ədəbiyyat tariximizi daha da zənginləşdirəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Elm xadimləri

## Keçmişimizə işıq tutan alim



**O, zəngin yaradıcılığı, çoxsaylı araşdırmaları ilə ədəbiyyatşünaslığımızın inkişafına böyük xidmətlər göstərib. Görkəmli ədəbiyyatşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Həmid Araslının pedaqoq kimi, elmi rəhbər kimi gördüyü işlər bu günədək minnətdarlıqla xatırlanır.**

Həmid Araslı 1909-cu ildə qədim Gəncə şəhərində dünyaya gəlib. Dövrünün mükəmməl təhsilli alim-ruhanilərindən olan atası Hacı Məhəmmədtağı Ərəszadə qəzetlərdə çıxış edər, şəriət məsələləri ilə bağlı mühazirələr oxuyardı. Onun ərəb dilindən etdiyi bəzi tərcümələri və qələmə aldığı "Vəşrihi-fəraiz" adlı kitab alimin kitabxanasında saxlanılır. Həmid Araslının anası Dürrübəyim xanım da savadlı qadın idi.

Həyatın qəm-qüssə, kədər üzünü Həmid Araslı körpə ikən görüb. Atası vəfat edəndə o, iki yaşına çatmamışdı.

Anası onun dünyagörüşünün formalaşmasında böyük rol oynayıb. Dürrübəyim xanım oğlunda xalq yaradıcılığına dərin maraq oyada bilib.

O, 1915-ci ildə Gəncənin Şah Abbas məscidi nəzdindəki mədrəsədə təhsil almağa başladı. Çox keçməyib ki, həyatın daha bir ağır zərbəsi ilə üzləşib, anasını da itirib. Qohumlarının himayəsində yaşamalı olub. Uşaq yaşlarından oxumağa, öyrənməyə marağı böyük olan Həmid Araslı təhsilini 1922-ci ildə Gəncə Darülmüəllimi Seminariyasında davam etdirib.

İyirmi yaşında, 1929-cu ildə Bakıya gəlib. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti) Dil və ədəbiyyat fakültəsinə daxil olub. Həm aspiranturada təhsil alıb, həm də keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının nəzdində təşkil edilmiş Əsaslı kitabxananın Şərq şöbəsinin müdiri işləyib. Həmin illərdə Şərq əlyazmalarını toplayaraq Əlyazmalar Fondunu yaratmaq kimi mühüm bir işlə də məşğul olub. Tezliklə yaratdığı fondun direktoru olub. 1936-cı ildə o, Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib.

1938-ci ildə Həmid Araslı işdən azad edilib. Səbəbi fondda saxlanılan əlyazmalar içərisində sovet ideologiyasına uyğun olmayan nümunələrin aşkar edilməsi idi. O, 1938-1939-cu illərdə Azərbaycan Nəşriyyatının Bədii ədəbiyyat şöbəsində redaktor vəzifəsinə qəbul edilib.

1943-cü ildə "XIII-XVI əsrlərdə Azərbaycan ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi adını alıb. 1944-cü ildə Həmid Araslı Azərbaycan Dövlət Universitetində Yaxın Şərq ədəbiyyatı kafedrasının müdiri vəzifəsinə təyin edilib. 1954-cü ildə "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edən alim filologiya elmləri doktoru, 1955-ci ildə professor elmi adlarını alıb. Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə həqiqi üzvü seçilib.

O, Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi, şöbə müdiri, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi katibi, direktor müavini, eyni zamanda Azərbaycan Dövlət Universitetinin Yaxın Şərq ədəbiyyatı kafedrasının müdiri (1944-1962), Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Mətnşünaslıq şöbəsinin müdiri (1954-1955),Yaxın və Orta Şərq Xalqları İnstitutunun (hazırda Şərqşünaslıq İnstitutu) Ədəbiyyat şöbəsinin müdiri (1968-1970), 1970-ci ildən ömrünün sonunadək həmin institutun direktoru vəzifəsində çalışıb.

Həmid Araslı Azərbaycan ədəbiyyatı tarixinin sistemləşdirilərək elmi istiqamətdə öyrənilməsində müstəsna xidmət göstərib. O, ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943-1944), üççildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957-1960) əsas müəlliflərindəndir. "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi" (1956) kitabında alim qədim əlyazma, cüng və təzkirələr əsasında ədəbiyyatımızın öyrənilməmiş mərhələsini araşdırıb. Şifahi xalq ədəbiyyatının ən görkəmli mütəxəssislərindən sayılan ədəbiyyatşünas alim Azərbaycan folkloru, xüsusilə də "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları, aşıq yaradıcılığı haqqında sanballı elmi əsərlərin müəllifidir. Həmid Araslı Məhəmməd Füzulinin əsərlərinin beş cilddə elmi-tənqidi mətnini hazırlayıb, Xaqani, Məhsəti, Nizaminin lirik şeirləri, Nəsimi, Xətai, Saib Təbrizi, Qövsi Təbrizi, Vidadi, Vaqif və başqa şairlərin əsərlərini ilkin mənbələr və əlyazmalar əsasında nəşr etdirib.

Akademik Həmid Araslı 1983-cü il noyabrın 20-də Bakıda vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Sənət dünyası

## Əbədiyaşar gülüş ustası

**Cismani yoxluğundan bizi 50 ildən çox bir vaxt ayırsa da, adı çəkiləndə, xatırlananda istər-istəməz adamın üzündə xoş bir təbəssüm yaranır, insanın ovqatı dəyişir. Onun obrazlar qalereyası həmişə gözümüz önündə canlanır. Çoxsaylı tamaşalarda, filmlərdə yaratdığı xarakterlər yada düşür. Əsl səhnə ustası idi. Əgər onu xarakterizə etsək, cəmi bir cümlə kifayət edər ki, deyək: "O, böyük aktyor idi". Söhbət görkəmli gülüş ustası Lütfəli Abdullayevdən gedir.**



Lütfəli Abdullayev 1914-cü ilin martında Şəkidə tacir ailəsində anadan olub. 14 yaşına qədər Şəkidə yaşayan Lütfəli fəhlə-gənclər klubunda həvəskar aktyor kimi müxtəlif tamaşalarda iştirak edir. 1928-ci ildə Bakıya gəlir. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində fəaliyyət göstərən valtorna sinfinin məşğələlərində iştirak edir. Professor Berolskinin kursunda ifaçılıqla məşğul olur, Opera və Balet Teatrının xor truppasında oxumağa başlayır. 1939-cu ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yaradılarkən Lütfəli Abdullayev də burada çalışmağa başlayır.

1949-cu ilin yazında teatr maliyyə çətinliyi ilə bağlı fəaliyyətini dayandırmalı olur. 1956-cı ilə kimi Milli Dram Teatrında fəaliyyət göstərən Lütfəli Abdullayev Şəmsi Bədəlbəylinin bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yenidən fəaliyyətə başlayanda dogma kollektivə qayıdaraq demək olar ki, ən populyar, uğurlu və uzunömürlü tamaşalarda rol alır. Ömrünün sonuna qədər Musiqili Komediya Teatrında çalışan aktyor səhnədə özünəməxsus və yaddaqalan obrazlar yaradır.

Lütfəli Abdullayev həyatını səhnəsiz təsəvvür etmirdi. Xüsusilə teatrda tamaşaçı ilə aktyor arasında canlı ünsiyyət olduğu üçün ömrünü teatra bağlamışdı.

Cəmi 6 filmdə rol alan aktyorun kino yaradıcılığı da olduqca uğurlu olub. Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə 1945-ci ildə "Arşın mal alan"da Lütfəli Abdullayevin yaratdığı "Vəli" obrazı filmə bir il sonra, 1946-cı ildə Stalin dövlət mükafatını qazandırır. 1956-cı ildə Hüseyn Seyidzadənin "O olmasın, bu olsun"unda "Baloğlan", 1960-cı ildə Ş.Şeyxovun "Qəribə əhvalat"ında "Kefçilov", 1962-ci ildə Rəşid Atamalıbəyovun "Payız konserti"ndə konsert təşkilatçısı, 1963-cü ildə Adil İsgəndərovun "Əhməd haradadır" filmində "Zülümov", 1964-cü ildə Ağarza Quliyevin "Ulduz"unda "Məhəmməd" kimi ölməz obrazlar yaradır.

Lütfəli Abdullayev ali təhsil almayıb. Heç orta məktəbdə də yaxşı oxuyan şagird olmayıb. Yalnız ərəb əlifbası ilə yazıb-oxumağı bacaran aktyor rus dilində cəmi bir neçə söz bilirmiş. Kitab oxumaqla arası olmayan aktyor yaratdığı obrazların sözlərini həyat yoldaşı Sevda Pepinovanın köməyi ilə öyrənirmiş.

Aktyorun ömür-gün yoldaşı Sevda xanımla tanışlıqlarının da maraqlı tarixçəsi var. 1943-cü ildə ilk dəfə teatrın yeməkxanasında nahar masası arxasında tanış olduğu Sevda xanımı aktyor premyerası olacaq "Ürəkaçanlar" tamaşasına dəvət edir.

Çox keçmir, Lütfəli Abdullayev sevdiyi Sevda xanımın evinə elçilərini göndərir. Sevda xanımın babası Həsən bəy Ağayev ADR parlamentinin sədri, atası Əhməd bəy Pepinov Azərbaycan Xalq Cümhuriyyətinin ilk əmək naziri olub. Ömər Faiq Nemanzadənin isə bibisi qızı idi.

O zaman Sevda xanım nənəsi ilə birlikdə yaşayırdı. Nənəsi elçiləri görüb çox hirslənir. Xədicə xanım nəvəsinin Lütvəli Abdullayevlə ailə qurmasına razılıq vermir. Dörd dəfə sevdiyi qıza elçi göndərib "yox" cavabı alan aktyor 5 il Sevda xanımla gizli görüşür. 1948-ci ildə Lütfəli Abdullayev teatrdan ev aldıqdan sonra kəbin kəsdirib sevgilisinə ona qoşulub qaçmağı təklif edir. Aktyorun təklifi ilə razılaşmadığı üçün yolları ayrılır, Sevda xanımı Hacımurad İbrahimbəyli adlı bir generala ərə verirlər. Lakin bu izdivacın ömrü az olur. Cəmi 4 ay sonra Sevda xanım nənəsinin evinə qayıdır.

Bu arada isə Musiqili Komediya Teatrı müvəqqəti bağlanmışdı. Teatrın bir sıra aktyorları ilə yanaşı, Lütfəli Abdullayev də "Azdrama"ya keçmişdi. 1957-ci ildə - ilk görüşlərindən 14 il sonra Lütfəli işdən çıxanda Sevdanın onu gözlədiyini görüb təəccüblənir. Ayrılıq olmayıbmış kimi mehriban görüşürlər. Nəhayət, uzun çək-çevirdən sonra Xədicə xanım onların izdivacına razılıq verir.

Şəkər xəstəsi olan aktyora həkim pəhriz saxlamağı tövsiyə etsə də, o, buna əməl etmirdi.

Politexnik İnstitutunda keçirilən görüşdən evə qayıdan aktyor şam edəndən sonra tanışlarına zəng vurur. Sonuncu telefon zəngi isə Bəxtiyar Vahabzadəyə olur. "Bəxtiyar, Mahmudun yanına gedəcəm, sözün varsa de çatdırım" deyir. Heç nə başa düşməyən Bəxtiyar Vahabzadə Mahmudun kimliyini soruşur. "Atan Mahmudu deyirəm də" deyə cavab verir. Sevda xanım ərinin bu sözündən əsəbiləşir. Gecə qəfil vəziyyəti ağırlaşan aktyoru xilas etmək üçün təcili yardım çağırırlar. Beyninə qan sızan Lütfəli Abdullayev 1973-cü il dekabrın 9-da çox sevdiyi Sevdasının növbəti doğum günündə gözlərini əbədi yumur.

Bu il görkəmli aktyorun anadan olmasının 110 illiyi qeyd olunur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Qarabağ xanlığının tarixi və mədəni irsi haqqında nəşr Londonda kitabxanaya hədiyyə edilib




**"Qarabağ xanlığı: Tarixi və mədəni kimlik" adlı kitab London Universitet Kollecinin kitabxanasına hədiyyə edilib. Təşəbbüs dövlət proqramı çərçivəsində həmin universitetdə təhsil alan magistrant Murad Ağayev tərəfindən irəli sürülüb.**

O qeyd edib ki, bununla da universitetdə təhsil alan ingilis, həmçinin xarici tələbələr Qafqazın mədəni mərkəzlərindən biri olan Şuşada və bütün Qarabağ bölgəsində Azərbaycanın qədim mədəni irsi haqqında geniş məlumat ala biləcəklər.

"Qarabağ xanlığı: Tarixi və mədəni kimlik" adlı kitab Heydər Əliyev Fondunun himayəsi və Azərbaycan Xarici İşlər Nazirliyinin dəstəyi ilə çap edilib.

## Gəncədə "Musiqi kimliyimiz" adlı layihənin icrasına başlanılıb



**Gəncə şəhərində Aşıq Ələsgərə həsr olunmuş "Musiqi kimliyimiz" adlı layihənin icrasına başlanılıb.**

Filarmoniyanın Mətbuat xidmətindən bildirilib ki, tədbirdə çıxış edən Gəncə Dövlət Filarmoniyasının direktoru, Əməkdar artist Ramil Qasımov aşıq sənətinə olan dövlət qayğısından söhbət açıb. "Bu layihə Mədəniyyət Nazirliyi Gəncə və Daşkəsən Regional Mədəniyyət İdarəsi, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası, Azərbaycan Aşıqlar Birliyinin birgə təşkilatçılığı ilə ilk dəfə həyata keçirilir. Azərbaycan Aşıq Sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irsin reprezentativ siyahısına daxil olması ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərdiyi qayğının nəticəsidir. Aşıq sənəti Azərbaycan folklor sənətinin bünövrəsidir. Müasir dövrümüzün gənclərində aşıq sənətinə bağlılığın olması məqsədəuyğundur. Bu layihə mütəmadi olaraq davam edəcək", - deyə o əlavə edib.

Gecədə aşıqlar Elbrus Hüseynov və Şöhrət Kərimov "Aşıq Alının Zəngəzur səfəri" dastanını səsləndiriblər.

## Akademik Musiqili Teatrda "Mən dəyərəm min cavana" 90-cı dəfə nümayiş olunacaq

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Mən dəyərəm min cavana" ikihissəli musiqili komediyası 90-cı dəfə nümayiş olunacaq.**

Teatrdan bildirilib ki, tamaşa tanınmış yazıçı-dramaturq Tamara Vəliyevanın Musiqili Teatrda "Bankir adaxlı"dan sonra səhnəyə qoyulan ikinci əsəridir.

Yaranma tarixçəsi qəribə olan komediya illər əvvəl görkəmli teatr və kino aktyoru, "Şöhrət" ordenli, Xalq artisti Hacıbaba Bağırovun 75 illik yubileyi münasibətilə hazırlanırdı. Lakin tamaşanın premyerasından əvvəl, 2006-cı ildə onun qəfil vəfatı yaradıcı heyətin bütün planlarını dəyişir. 2007-ci ildə "Mən dəyərəm min cavana" böyük sənətkarın xatirəsinə ithaf olunaraq, sevənlərinə bir təskinlik kimi təqdim edilir.

İlk nümayişindən 17 il keçməsinə baxmayaraq, yenə də öz aktuallığını saxlayan səhnə əsərində rolları Xalq artisti, "Şöhrət" ordenli İlham Namiq Kamal, Əməkdar artistlər Nadir Xasiyev, Əkbər Əlizadə, Nərgiz Kərimova, aktyorlar olan Rəsmiyyə Nurməmmədova, Ülviyyə Əliyeva, Elxan İsmayılov, Gülçöhrə Abdullayeva, Səmədzadə Xasiyev, Ruslan Mürsəlov, Nəzrin İsmayılzadə, Əli Kərimov və Murad Əliyev ifa edəcəklər.

Həmçinin teatrın xor və balet artistlərinin bir-birindən maraqlı və rəngarəng çıxışları da tamaşaya gözəllik qatacaq.



# Məhəmməd Füzuli -530

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*



● Klassik irsimiz



**Görəsən, zaman keçdikcə ədəbi proses irəli gedir, yoxsa geriləyir? Əlbəttə, bu suala birmənalı cavab vermək olmur. Əgər ədəbi proses zamanla irəli gedirsə, onda niyə çağdaş ədəbiyyatda Nizami Gəncəvi səviyyəsində bir şair mütəfəkkir yetişə bilmir? Bu cür ritorik suallara cavab vermək çox çətin olduğundan, sadəcə, faktın özünü nəzərə almaq lazımdır ki, bəli, ədəbi proses var və zaman-zaman onun böyük şəxsiyyətləri yetişir.**

# FÜZULİ - Azərbaycan poeziya məktəbinin yeni mərhələsi

Tarixboyu şeir-sənət ocağı kimi tanınmış Azərbaycan ədəbiyyatda və folklorda həmişə öz yoluna malik olmuş, bir sıra xüsusiyyətlərə görə başqa xalqlardan fərqlənmişdir.

Bu fərqlər özünü hər şeydən əvvəl bədii sözün forma və məzmun gözəlliyinin vəhdətdə təqdim edilməsində, eləcə də bütün əsərlərin canını və qanını təşkil edən dərin humanizmdə göstərmişdir.

Məhz tükənməz xalq poeziyasından qidalanan Xaqani, Nizami, Nəsimi, Füzuli kimi sənətkarlar Azərbaycan şeirini xüsusi bir istiqamətlə aparmış, dünya poeziyasının polifoniyasında onun səsinin seçilməsinə nail olmuşlar.

Forma qüsursuzluğu, sözlərin poetik imkanından maksimum istifadə, mənanın çoxlaylılığı və hər layın xüsusi təyinata malik olması, təsvir və tərənnümlərdə ədəb dairəsinə ciddi riayət edilməsi, dərin rəmzilik, mümkün qədər az sözlə mümkün qədər çox poetik fiqurun verilməsi və s. Azərbaycan poeziya məktəbinin əsas üslubi xüsusiyyətlərindəndir.

Mərhələdən-mərhələyə zənginləşə-zənginləşə gələn bu poetik üslub Məhəmməd Füzuli yaradıcılığında artıq kamal zirvəsini fəth edir. Yeni ustadın, yeni müəllimin gəlməsi ilə bu məktəbin şagirdlərinin sayı sürətlə artır. Əslində, bunu məktəb adlandırmaq - onun statusunu bir qədər aşağı salmaq deməkdir; belə bir ifadə daha doğru olar ki, Nizaminin təsis etdiyi, professoru və rektoru olduğu Azərbaycan poeziya universitetinin ənənələrini Füzuli yeni mərhələdə canlandırdı, davam etdirdi və özünü bu yeni universitetin rektoru elan etdi.

Füzuli Azərbaycan poeziya universitetində yeni fakültələr açdı ki, bunlardan ən aparıcısı - Qəm fakültəsi oldu.

*Mənəm ki, qafiləsalari-karivani-qəməm,*
*Müsafiri-rəhi-səhrayi-möhnətü ələməm.*
*Həqir baxma mənə, kimsədən saqınma kəməm.*
*Fəqiri-padşahasa, gədayi-möhtəşaməm.*
*Sirişki-cövr mülazim, bəlavü dərd-həşəm.*

Füzuli ilahi məhəbbətlə dünyəvi duyumu balla qaymaq kimi bir-birinə elə təbii şəkildə qarışdırdı ki, ondan sonra gələn sənətkarlar artıq bunları bir-birindən ayıra və bu məhəbbətin dadından doya bilmədilər. Füzulinin sintez etdiyi bu məhəbbətin sayəsində qəm şirinləşdi, əzab, cəfa ləzzətə mindi. Füzuli qəmini şirinləşdirən, əzabı yüngülləşdirən vasitələrdən biri də yumordur. Bu yumor da şairin başqa bədii vasitələri kimi sözün dərin qatlarında yerləşir və hər oxucuya camal göstərmir.

Füzuli yeni-yeni poetik obrazlar tapıb, bunlara yeni-yeni poetik funksiyalar aşıladı. Məsələn, it obrazı. Klassik poeziyada, xalq arasında alçaq, həqir sayılan, söyüş yerinə işlədilən bu obraz Füzulidə gözəlləşdi, bədiiləşdi. Həm sufi ədəbiyyatında mələk obrazının sinonimi kimi:

*Parə-para cigərim itlərinə nəzr olsun,*
*Ol səri-kuyə əgər düşsə güzarım bu gecə.*

Həm də dünyəvi mənasında işlətdi bu obrazı:

*Təbiəti-səgi-şəbgərd qılmışam hasil;*
*İşim qara gecə ta sübh naləvü fəryad,*
*Nə versələr ona şakir, nə desələr ona şad.*

Klassik poeziyada və folklorda əsasən mənfi mənada, şər qüvvə kimi işlədilən "dövran", "çərx", "fələk" obrazları da Füzulidə bəzi hallarda müsbət məna kəsb edir.

Azərbaycan poeziya məktəbinin Füzuli mərhələsinin özünəməxsusluqlarından biri gözlənilməzlik effektidir. Qəflətən oxucunun qarşısına gözləmədiyi bir məna çıxır və bu məna qafil zərbə kimi hazırlıqsız oxucunu şoka salır.

Poetik təzadın misilsiz ustadı olan böyük Füzuli eyni zamanda poetik adiləşdirmənin də ustadıdır: yəni ən ağlasığmaz hadisələri adi məişət hadisələrinin köməyi ilə izah etmək sanki Füzulini çağdaş anlamda realizəyə qaytarır, onun obrazlarına inanmamağı mümkün etmir. Şairin bütün dövrlərdə qəlbləri fəth edə bilməsi məhz bu "halal sehrin" sayəsində mümkün olur.

Bütün bunlar dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulini minillik ədəbiyyatımızın gəlişməsində, boy verməsində növbəti mərhələyə qaldıraraq onun dünya lirikasının inkişafındakı rolunu bir daha təsdiq edir. Bu isə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin qlobal kontekstdə nə qədər yüksək bir mövqe tutmasından xəbər verir.

Füzuli ədəbi məktəbinin ən böyük nümayəndələrindən biri olan Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar üzünü qrafomanlara tutub deyirdi:

*Şair ola bilməzsən, anan doğmasa şair,*
*Missən, a balam, hər sarıköynək qızıl olmaz!*

Dahi Füzulini də məhz anası şair doğmuşdu və öz zəhmətkeşliyi ilə həm də alim olmuşdu. Bu baxımdan Füzuliyə mütəfəkkir-şair adı çox yaraşır. Bununla yanaşı, Füzuli böyük lirikdir və sənətkarlıq baxımından onun poeziyasının misli-bərabəri yoxdur desək, yanılmarıq.

Şeirə cila verərkən Füzulinin işlətdiyi poetik təsir vasitələrindən biri - gözlənilməzlik effektidir. Bunun təsir mexanizmi ondan ibarətdir ki, klassik poeziyaya bələd olan oxucu beytin birinci misrasından sonra hansı fikrin, obrazın gələcəyini təxmin edərək gözləyir. Lakin tamamilə başqa, daha gözlənilməz və təsirli fikir, yaxud obraza rast gəldikdə əvvəlcə çaşır, sonra isə estetik ləzzət və razılıq hissi keçirir. Ancaq bu gözlənilməzliyi Füzuli necə deyərlər, oxucunun özünə qızıl nəlbəkidə qoymur. Bəzən oxucu həmin mənaya varmaq üçün xeyli düşünməli, baş sındırmalı olur.

Bayaq dediyimiz kimi, Füzulinin əksər beytləri bu cür gözlənilməzlik effekti üzərində qurulub. İndi həmin beytlərdən bir neçəsi üzərində müşahidələr aparaq:

*Göz xətindən mərdümün məhv etmədən bulmaz murad*
*Zaye eylər hüsnünü xəttin səvad üzrə səvad.*

Onu da qeyd edim ki, Füzuli eyni sözlərlə şeirin bədənini və ruhunu yaratmaq üçün əksər hallarda sözlərin çoxmənalılığından faydalanır, faktiki çoxmənalılıq olmadıqda isə həqiqi bir sehrkar kimi yeni mənalar yaradır. Bu beytdə də belədir: "xətt" sözü həm gözəlin üzünün cizgilərini, həm də yazı xəttini ifadə edir və poetik məna, beytin fiziki gözəlliyi də bu vasitə üzərində qurulmuşdur. Beytin açması belədir:

Aşiqin gözü gözəlin üzünün cizgilərini o zaman seyr edə, ondan murad ala bilər ki, öz bəbəyini məhv etsin. Yəni o qədər ağlasın, göz yaşı töksün ki, gözünün qarası yuyulub getsin.

Bir xalq mahnısında olduğu kimi:

*Ağlama, ceyran balası, ağlama,*
*Gedər gözlərin qarası, ağlama.*

Əlbəttə, birinci misranın qarşıya sual qoyduğu aydındır: gözün qarasının yuyulub getməsi ilə gözəlin üzünün cizgilərini seyr edib kam almaq arasında nə kimi məntiqi bağlılıq ola bilər?

Ancaq sən demə, var imiş. Klassik poeziyada gözəlin üzünün cizgiləri çox vaxt yazıya, həm də müqəddəs, ilahi yazıya, Quran səhifələrinə bənzədilib. Füzuli də gözəlin üzünün cizgilərini gözəl xəttə, gözəl yazıya bənzədir. Bu gözəl yazını aşiqin görməsi üçün gərək onun əksi göz bəbəyinə düşsün; göz bəbəyi isə qaradır. Qara kağız üzərində isə qara mürəkkəblə yazmaq olmaz. Deməli, gözəlin hüsnündən aşiqin gözünün murad alması üçün mütləq göz bəbəyi, göz qarası təmizlənməli, yuyulub getməlidir.

Başqa bir beytində böyük şair yazır:

*Yeridir, əksinə ayinə dəmir bənd ursa,*
*Nə üçün qurşı durur sən kinti bihəmtayə?*

Məlumdur ki, aynanı, güzgünü dəmir çərçivə və bənd içində saxlayarlar. Füzuli bu bəndin, əslində, güzgünün özünə deyil, gözəlin güzgüdəki əksinə, surətinə vurulduğunu yazır. Bəs gözələ nə üçün günahkarlar, divanələr kimi dəmir bənd vurulmalıdır? Ona görə ki, bu cür gözəl bir məxluqla qarşı-qarşıya durmağa, tayı-bərabəri olmayan bir gözələ özünü tay tutmağa cəsarət etmişdir. Bundan böyük günah, cinayət olarmı? Və bu cinayətə görə gözəlin əksi dəmir bəndlə cəzalandırılmağa tamamilə layiqdir:

*Tiz çəkməzsən cəfa tiğin məni öldürməyə,*
*Öldürər axır məni bir gün bu ehmalın sənin.*

Məşuq cəfa qılıncını çəkib aşiqi öldürməlidir. Bu ölüm aşiq üçün səadətdir və bu səadətin tez baş verməsini arzulayır. Ancaq məşuq ləng tərpənir, qılıncı çəkməyə tələsmir. Bu lənglik, ehmal tərpənmək isə aşiqin ürəyini sıxır, ömrünü çürüdür. Və aşiq qorxur ki, məşuqun qılıncının dadlı zərbəsini gözləyə-gözləyə, beləcə vüsala çatmadan, cəfa qılıncının zərbəsini dadmadan mənasız bir ölümlə ömrünü sona çatdırsın və bu dünya həyatında qarşıya qoyduğu məqsədə yetməsin. Amma digər tərəfdən aşiq bir şeylə təsəlli tapır ki, əvvəl-axır məşuqun ehmal hərəkəti onu öldürəcəkdir. Elə buradan da beytin ruhu öz camalını göstərir. Aşiq bu dünyadakı ölümü ilə əbədi həyata - Tanrısına qovuşacaq. Məhz buna görə qılıncın tez çəkilməsini - vüsalın tez başlanmasını arzulayır:

*Şamlar qanlı yaşını mövcünə, əlbətta, dəyər,*
*Hər necə kim götürür çərxi-miiəlla ətəyin.*

Axşam vaxtı üfüqün qızarması aşiqin qanlı göz yaşının dalğasına bənzədilmişdir. Bu dalğalar o qədər coşqundur, o qədər yüksəyə qalxır ki, uca fələk nə qədər yüksək olsa da, ətəyini nə qədər cəld yığışdırsa da, mütləq onlara dəyməlidir.

Füzulinin oxucunu düşündürməyə, baş sındırmağa vadar edən çoxsaylı beytlərindən biri də budur:

*Duzəxə girməz sitəmindən yanan,*
*Qabili-cənnət deyil əhli-əzab.*

Şair yazır ki, gözəlin zülmündən yanan, əzab çəkən cəhənnəmə girməyəcəkdir, cəhənnəmlik olmayacaqdır. İlk baxışdan adama belə gəlir ki, ikinci misradakı fikir birinci misradakı obrazdan doğmalıdır: yəni cəhənnəm yanmaq üçündür. Sənin sitəmindən, zülmündən yananlar da elə cəhənnəm əzabı çəkirlər; daha onların bir də cəhənnəmə girməsinin nə mənası var? Ancaq Füzulinin də dühası ondadır ki, o, həmişə oxucudan bir baş yüksəkdə durur və oxucunun ağlına gələ biləcək fikri, obrazı heç vaxt təkrar etmir. Elə Füzulinin gözlənilməzlik effekti də buradan doğur.

İkinci misranı oxuyan, onu dərk edib anlayan oxucu heyrətini gizləyə bilmir: gözəlin sitəmindən yanan ona görə cəhənnəmə girə bilməz ki, o, artıq cənnətə qəbul edilmişdir. Cənnət əhlidir. Cənnətə qəbul edilmişlər isə əzab əhli, cəhənnəm sakinləri deyildirlər.

Bu obrazı, bu məntiqi, bu təzadı dərk edən, mənimsəyən, onun sevincini yaşayan oxucu uzun müddət bu sehrli təsirdən yaxa qurtara bilmir, Füzuli obrazlarının ölməzliyi içərisində həyatın faniliyini və məişət xırdalıqlarını unudur. Füzuli dünyasına qovuşaraq ülviləşir, özünü xoşbəxt hiss edir.

Əsl böyük sənətin məqsədi də elə bu deyilmi?!

*Teymur KƏRİMLİ,*
*akademik*

## QƏZƏLLƏR

Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,
Nalə tərkin qılmazam, neytək kəsilsəm bənd-bənd.

Qıl mədəd, ey bəxt, vər nə, kami-dil mümkün degil,
Böylə kim, ol dilrüba bidərddir, mən dərdmənd.

Dağlırdir odlu könlümdə qarası qopmamış,
Ya səbati-eşq üçün od üzrə bir neçə sipənd?

Açılır könlüm gəhi kim, giryeyi-təlxim görüb,
Açar ol gülrüx təbəssüm birlə ləli-nuşxənd.

Xaki-rahindən məni qaldıra bilməz sayətək,
Qılsa gərdun afitabın hər şüasın bir kəmənd.

Cam tut der saqiyi-gülçöhrə, zahid - tərki-cam,
Ey könül, fikr eylə gör, qansıdır tutmalı pənd.

Ey Füzuli, surəti-fəqrin qəbuli-dustdur,
Hiç dərvişi sənintək görmədim sultanpəsənd.

❖ ❖ ❖

Hüsnün olduqca füzun, eşq əhli artıq zar olur,
Hüsn nə miqdar olursa, eşq ol miqdar olur.

Cənnət üçün mən' edən aşiqləri didardən,
Bilməmiş kim, cənnəti aşiqlərin didar olur.

Eşq dərdindən olur aşiq mizaci müstəqim,
Aşiqin dərdinə timar etsələr, bimar olur.

Zahidi-xudbin nə bilsin zövqünü eşq əhlinin,
Bir əcəb meydir məhəbbət kim, içən huşyar olur.

Eşq sevdasinə sərf eylər Füzuli ömrünü,
Bilməzəm, bu xabi-qəflətdən qaçan bidar olur?

❖ ❖ ❖

Sərvi-azad qədinlə mana yeksan görünür,
Nəyə sərgəştə olan baxsa, xuraman görünür.

Can görünməz desələr təndə, inanman, nişə kim,
Lütfdən hər necə baxsam təninə, can görünür.

Derəm əhvalımı canana qılam ərz, vəli
Görə bilmən özümü, onda ki, canan görünür.

Ey deyən: səbr qıl, ah eyləmə yari görcək,
Mənə düşvardır ol, gər sənə asan görünür.

Sordum əhvalımı eşqində münəccimlərdən,
Baxdılar tale evinə, dedilər: qan görünür.

Nə kamandarsan, ey məh ki, atıb qəmzə oxun,
Yıxdığın seyddə nə zəxm, nə peykan görünür.

Bir sənəm zülfünə guya ki, veribdir könülün,
Ki Füzulinin ikən halı pərişan görünür.

❖ ❖ ❖

Səbadən gül yüzündə sünbüli-pürpiçü tab oynar,
Sanasan pər açıb gülşəndə bir mişkin qürab oynar.

Xəyali-arizin cövlan edər bu çeşmi-pürnəmdə,
Nəçük kim, mövclənmiş suda əksi-afitab oynar.

Rüxün görgəc olur suzi-dərunü dərdi-dil hasil,
Bahar əyyamı səçrar bərği-rəxşəndə, səhab oynar.

İrağ olsun yaman gözdən, nə xoş saətdir ol saət,
Ki məşuq ilə aşiq eyləyib nazü itab oynar.

Riyayi-zahidi-xüşkün səmaindən nolur hasil,
Xoş ol kim, rindi-meyxarə içib cami-şərab oynar.

Qılır göz pərdəsin xunabi-həsrət çak, hər dəm kim,
Rüxündə ləzzəti-didar zövqündən niqab oynar.

Füzuli, rəşkdən titrər dili-pürxuni üşşaqın,
Binaguşində yarın hər zaman kim, ləli-nab oynar.

❖ ❖ ❖

Canı kim cananı üçün sevsə, cananın sevər,
Canı üçün kim ki, cananın sevər, canın sevər.

Hər kimin aləmdə miqdarıncadır təb'ində meyl,
Mən ləbi-cananimi, Xizr abi-heyvanın sevər.

Başə dəm düşdükcə təqsir eyləməz, eylər mədəd,
Ol səbəbdən müttəsil çeşmim cigər qanın sevər.

Mişki-Çin avarə olmuşdur vətəndən mən kimi,
Qansı şuxun, bilməzəm, zülfi-pərişanın sevər.

Su ki, sərgərdan gəzər, başında vardır bir həva,
Qaliba, bir gülrüxün sərvi-xuramanın sevər.

Aqibət rusva olub mey tək, düşər xalq ağızına,
Kim ki, bir sərməst sali lə'li-xəndanın sevər.

Nolacaqdır, tərki-eşq etmə Füzuli, vəhm edib
Qayəti derlər, ola bir bəndə sultanın sevər.




# Ət əsaslı düyü

**Cənubi Koreyanın Yonsey Universitetinin tədqiqatçıları qırmızı ət ilə doldurulmuş hibrid düyü çeşidi hazırlayıblar. Belə ki, laboratoriya üsulu ilə hazırlanmış düyü dənələrinə inəyin əzələ və yağ hüceyrələrini inteqrasiya edərək ət əsaslı bitki hazırlanıb. Həmçinin ona çəhrayı rəng də verilib.**



Tədqiqatçılar qrupu bununla mal ətindən daha aşağı karbon izi ilə ucuz və davamlı protein mənbəyini təklif etməyi ümid edir. Mütəxəssislərin bunu necə etdiyinə gəldikdə isə, onlar ilk öncə ət hüceyrələrinin yapışmasına kömək etmək üçün düyü dənələrini balıq jelatini ilə örtüblər. Daha sonra hər bir düyü dənəsinin içinə inəyin əzələ və yağ kök hüceyrələrini yerləşdirərək təqdim ediblər. Düyü taxılları məsaməli, lakin mütəşəkkil daxili quruluşa malikdir, yeni strukturu "biological scaffolds" adlanan ət hüceyrələri ilə eynidir.

Yeni məhsulun dadına baxanlar onun mal ətindən hazırlanmış suşiyə bənzədiyini qeyd ediblər. Tədqiqatın aparıcı müəllifi Sohyeon Park mətbuata açıqlamasında "Təsəvvür edin ki, ehtiyac duyduğumuz bütün qidaları hüceyrədə yetişdirilən zülallı düyüdən əldə etmişik. Düyü artıq yüksək səviyyədə qida maddəsinə malikdir, lakin ferma heyvanlarının hüceyrələrini əlavə etmək bunu daha da artıra bilər",- sözlərini deyib.

Tədqiqat hələ araşdırma mərhələsində olduğuna görə, mal ətindən hazırlanmış düyünün yaxın vaxtlarda restoran menyularında olmayacağı bildirilir. Komanda daha çox qida dəyəri olan düyü istehsal etmək üçün məhsulun böyümə prosesini təkmilləşdirir. Onlar həmçinin bu qidanın dadını, toxumasını və rəngini də daha da yaxşılaşdırmağa ümid edirlər.

# "Xiaomi Watch 2" təqdim edilib

**"Xiaomi 14" və "Xiaomi 14 Ultra" smartfonlarının qlobal versiyaları ilə yanaşı, həmçinin "Xiaomi Watch 2" smart saatını da təqdim edib. Şirkət smart saatın "Pro" versiyasını keçən ilin sentyabrında təqdim etmişdi.**



Texniki özəlliklər baxımından adi "Xiaomi Watch 2" modeli "Xiaomi Watch 2 Pro"ya bənzəsə də, xarici görünüşcə ondan fərqlənir. Məsələn, adi "Xiaomi Watch 2" modelində "Xiaomi Watch 2 Pro"dakı kimi fırlana bilən gövdə başlığı yoxdur.

"Xiaomi Watch 2"də idarəetmədən iki fiziki düymə cavabdehdir. Smart saat yüksək piksel keyfiyyətli 1.43 düym AMOLED ekranla təchiz olunub və "Snapdragon W5+ Gen 1" prosessoru vasitəsilə çalışır. Smart saatın gövdəsi alüminiumdan hazırlanıb və 5ATM standartı üzrə sudan qorunur. Smart saat "Xiaomi Watch 2" ürək döyüntüləri tezliklərini, qandakı oksigen miqdarını ölçə, yuxu və stress səviyyəsini monitorinq edə bilir. Bundan əlavə, smart saat özündə 160-dan çox idman rejimini və GPS dəstəyini birləşdirir.

Digər özəlliklərə gəldikdə isə yeni smart saat 2 GB RAM, 32 GB daxili yaddaş həcmi, mikrofon, telefon danışıqları üçün səsgücləndirici və 495 mAh enerji tutumlu batareya ilə təchiz olunub. Cihaz bir dəfə şarj olunandan sonra 65 saat ərzində çalışır.

# Plastiki əvəzləyən qeyri-adi üsul

**ABŞ-nin Cənubi Dakota Universitetinin tədqiqatçıları plastik qablaşdırma paketinin plyonkasını banan qabığı ilə əvəzləməyi təklif ediblər. Yeni material möhkəmliyinə görə plastikdən geri qalmır, üstəlik, torpaqda sürətlə çürüyür.**



Tədqiqatçılar banan qabığından bioloji olaraq çürüməyə məruz qalan qablaşdırma paketi üçün "lignosellüloz" lifi almağın üsulunu tapıblar. Dünyada istehsal və istehlak olunan bananın miqdarı nəzərə alınarsa, bu meyvədən alınan plyonka dünyada bütün plastiklərin 40 faizini əvəz edə bilər.

Alimlər bananın qabığını blenderdə əzərək "lignoselüloz"u xaric etmək üçün onu kimyəvi şəkildə emal ediblər. Əldə olunan liflər ağardılaraq distillə edilib və əlavə kimyəvi emala məruz qalıb. Bundan sonra yaranan materialdan sözügedən təbii plyonka hazırlanıb.

# Üzə bilən avtomobil



**"Tesla"nın ikonik pikap maşını olan "Cybertruck" polad korpusu və qeyri-adi dizaynı ilə yanaşı, maraqlı xüsusiyyətləri ilə də populyarlaşmağa davam edir.**

Avtomobil ilk dəfə təqdim edildə şirkətin sahibi İlon Mask iddia edirdi ki, "Cybertruck" qayıq kimi xidmət edəcək qədər suya davamlıdır və çaylarõ, gölləri, hətta dalğalı olmayan dənizləri də keçə bilir. Nəhayət, bir istifadəçi pikap maşınının dərin sulardan keçmə qabiliyyətini sınaqdan keçirib.

"Cybertruck"da dərin sulardan keçmək üçün "Wade Mode" rejimi var. Bu rejim aktivləşdirildikdə batareya təzyiqə məruz qalır və sudan qorunur. Təxminən 10 dəqiqə davam edən prosesin sonunda batareyanın təzyiqi artır və maksimum 30 dəqiqə ərzində sudan qoruna bilir.

"Tesla"nı müxtəlif dərinliklərdə idarə edən istifadəçi heç bir problem və çətinlik çəkmədən sudan keçə bilib. Hətta suyun avtomobilin ön şüşəsinə qədər çatmağına baxmayaraq, "Cybertruck" heç bir ciddi zərər görmədən sınaq testindən uğurla keçib.

# Ən qədim dil deşifrə ediləcək

**"Microsoft" şirkəti "OpenAI" tərəfindən istifadəyə veriləcək "GPT-5" adlı böyük dil modeli barədə məlumatlar təqdim edib.**

Məlumata əsasən, bu dil modeli günümüzdə ən qəliz linqvistik sirlərdən, yəni qədim dillərdən birini deşifrə edə biləcək. Söhbət 3000 il bundan öncə Krit adasında yaşamış "Minoy" adlı qədim sivilizasiyanın istifadə etdiyi "A" yazı sistemindən gedir.

Hazırda aktual olan "GPT-4" bu proses üçün o qədər də güclü deyil. Lakin "GPT-5" qədim dilin deşifrələnməsi prosesinin öhdəsindən gələ bilər. Məlumatda qeyd edilib ki, belə çətin tapşırığın öhdəsindən gəlmək üçün böyük dil modeli xətti "A" yazı sisteminin incəlikləri ilə yanaşı, həmçinin qədim Minoy dünyasının dərin kontekstli biliklərini də bilmədilir.




# Yeniyetmələr üçün elektromobil

**İsveçrənin "Micro Mobility Systems" şirkəti 14 yaşdan yuxarı yeniyetmələrin idarə edə biləcəyi kompakt elektromobil təqdim edib. "Microlino Lite"ın idarə edilməsi üçün moped vəsiqəsi tələb olunur.**

Maksimal sürəti saatda 45 kilometr olan elektromobilin uzunluğu 2,5 metr, eni 1,5 metr, çəkisi 600 kiloqram, mühərrikin maksimal gücü isə 12 at gücündədir.



O, yüngül olduğuna görə adi elektromobildən daha az enerji sərf edir.

5,5 kilovat-saat tutumu olan akkumulyatora malik "Microlino Lite" bir dəfə doldurulmaqla təxminən 100 kilometrə qədər yol gedə bilir.

Qeyd etmək lazımdır ki, yeniyetmələr Fransa və İtaliyada 14 yaşından, Almaniya, İspaniya, İsveç və Avstriyada 15 yaşından, Norveç, Portuqaliya, Böyük Britaniya, Hollandiya, Lüksemburq, Yunanıstan və Belçikada 16 yaşından bu nəqliyyat vasitələrini idarə edə bilərlər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Makronun impiçmenti realdırmı?

**Emmanuel Makronun Qərb ölkələrindən Ukraynadakı münaqişə zonasına qoşun göndərilməsinin mümkünlüyü ilə bağlı bəyanatlarından sonra Fransa parlamenti ona qarşı impiçment elan etməlidir. Bu fikri "Vətənpərvərlər" partiyasının lideri Florian Filippo "X" sosial şəbəkəsində bildirib. Siyasətçi Fransa parlamentindən Makronun impiçmentini tələb edib. Pariya sədrinin dediyinə görə, hazırkı Fransa lideri öz ölkəsinə nifrət edir və onu üçüncü dünya müharibəsinə sürükləməyə çalışır. Filippo rəhbərlik etdiyi partiyanın saytında müvafiq petisiya da yerləşdirib.**



Jan-Lük Melanşon ("Yenilməyən Fransa" partiyasının yaradıcısı) və Marin Le Pen ("Milli Birlik" partiyası fraksiyasının başçısı) digər respublikaçıların liderləri, bir çox siyasi xadimlər və partiya sədrləri kimi Makronun rezonans doğuran bəyanatından sonra parlamentdə müzakirələrin aparılmasını və bu halın izahını tələb ediblər.

Ekspertlərin fikrincə, bu çağırışların nə dərəcədə eşidiləcəyi müxtəlif parlament prosedurlarından asılıdır. Şübhəsiz, Makron hələ bir müddət qınanılacaq, lakin son qərar - istefa, impiçment barədə danışmaq hələ tezdir.

Xatırladaq ki, fevralın 26-da Makron Qərb ölkələrinin quru qoşunlarının Ukraynaya göndərilməsinin mümkünlüyünü açıqlayıb. Onun təklifi təkcə Fransanın özündə deyil, beynəlxalq aləmdə də tənqidlə üzləşib. Belə ki, Fransa liderinin bəyanatı ABŞ, Polşa, Çexiya, Slovakiya, İsveç, Böyük Britaniya, Almaniya, Litva və Kanadada dəstəklənməyib. Məsələn, Almaniya Kansleri Olaf Şolts bildirib ki, Rusiya ilə Ukrayna arasındakı müharibənin Rusiya ilə NATO arasında müharibəyə çevrilməsini istəmir və alman ordusunu Ukraynaya hərbi əməliyyatlarda kömək etmək üçün göndərmək fikrində deyil.

İtaliyanın xarici işlər naziri Antonio Tajani də buna qarşı çıxıb. Bundan əlavə, belə planların olmadığını Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberq də bəyan edib.

"Politico" qəzeti yazır ki, Fransa Prezidenti Emmanuel Makronun NATO qoşunlarının Ukrayna ərazisinə göndərilməsi ilə bağlı sözləri Kiyevə ancaq ziyan vurub: "Fransa Prezidenti öz bəyanatı ilə Qərbin Ukraynaya dəstək səylərini birləşdirmək, eləcə də Moskvaya güclü strateji siqnal göndərmək istəyib. Əgər Fransa liderinin açıqlamaları Kremlə ciddi xəbərdarlıq xarakteri daşıyırdısa, bu, möhtəşəm uğursuzluğa nəticələndi. Əslində, onlar əks məqsədə nail oldular".

Aydın olur ki, Makronun ideyasına verilən reaksiya Kiyevin müttəfiqləri arasında gələcək dəstək məsələlərində parçalanmanı nümayiş etdirir.

Eyni zamanda Qərb ölkələrində onsuz da Ukraynanın qələbəsinə daha az inam var və ordunun göndərilməsi zərurəti ilə bağlı sözlər, xüsusən də Rusiya Prezidenti Vladimir Putinin münaqişəyə birbaşa müdaxilənin nüvə müharibəsinə səbəb ola biləcəyini söyləməsindən sonra, ölkəyə dəstəyi daha da sarsıda bilər.

Makronun yersiz ideyası Fransanın müttəfiqləri tərəfindən rədd edildikdən sonra onun bu sərsəm təklifinə reaksiyanı yumşaltmaq üçün ölkə rəsmiləri izah ediblər ki, Makron müharibə ilə əlaqəli diskussiyanı stimullaşdırmaq istəyib və müzakirə olunan ideyalar minalardan təmizləmə, sərhəd təhlükəsizliyi və ya ukraynalı hərbçilərin təlimi kimi funksiyaların yerinə yetirən qeyri-döyüş qoşunları ilə bağlıdır.

Fransanın xarici işlər naziri Stefan Sejurne bildirib ki, Ukraynanı dəstəkləmək üçün yeni addımlar nəzərdən keçirilməlidir. Bu addımlar konkret tələbatlara cavab verməlidir: "Məsələn, minalardan təmizləmə, kibermüdafiə və yerində, Ukrayna ərazisində silah istehsalı haqqında düşünürəm".

"Le Monde" nəşri yazır ki, Fransa xüsusi təyinatlı qüvvələrinin və bəzi digər bölmələrinin Ukrayna ərazisinə daxil olmasına icazə verməyi nəzərdən keçirir. Qeyd olunur ki, belə bir tədbir Rusiya üçün "strateji dilemma" yaratmaq vasitəsi kimi qiymətləndirilir: " Fransanın belə hərbi mövcudluğu Ukraynanın bəzi ərazilərini qoruya və işğalçıların hücumlarını məhdudlaşdıra bilər".

Son məlumata görə, Emmanuel Makron martın 7-də Fransa siyasi partiyalarının liderləri ilə məsləhətləşmələr aparacaq. Bu barədə "Le Figaro" nəşri xəbər verib. Bildirildiyinə görə, Yelisey sarayı artıq partiya liderlərinə görüş üçün dəvət göndərib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# İş adamları İrəvandan qaçırlar

## Vətəndaşların sosial vəziyyəti daha da ağırlaşır, ölkə ifrat yoxsulluq həddinə yaxınlaşır

**Hayastanda sosial-iqtisadi vəziyyətin təhlili aydın şəkildə göstərir ki, ölkədə inflyasiya böyük sürətlə dərinləşdiyi təqdirdə, əhalinin maddi gəlirlərində hansısa artım yoxdur. Yaranan fərq nisbəti insanların durumunun daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olmaqdadır. Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin ağırlaşdığını etiraf edirlər.**

Elə mövcud hakimiyyətin səriştəsizliyinin nəticəsidir ki, iqtisadçılar 2024-cü ilin də ölkə üçün yaxşı heç nə vəd etmədiyini diqqətə çatdırıblar. Məsələ bundadır ki, Ermənistanda ötən il sosial-iqtisadi vəziyyətdə müsbətə doğru heç bir dəyişiklik olmayıb. Əhalinin maddi gəlirlərində artım qeydə alınmayıb. Yaranan fərq nisbəti vətəndaşların sosial vəziyyətinin daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olubdur.

Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin daha da ağırlaşdığını etiraf edirlər. Hayastanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesablamalarına görə də bu göstərici Hayastanda hər 3 nəfərdən birinə aiddir. Bu ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesablatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

2023-cü ilin yanvar-dekabr aylarında xaricdən Hayastana köçürülən vəsaitlərin xalis axını əvvəlki illə müqayisədə aşağı səviyyədə olub. "Joxovurd" nəşrinin yazdığına görə, 2023-cü ildə bank sistemi vasitəsilə Ermənistana köçürülən xalis pul axını (giriş və çıxış arasındakı fərq) 1,7 milyard ABŞ dolları təşkil edib ki, bu da əvvəlki ilin 2,6 milyard ABŞ dollarından xeyli azdır. Maraqlıdır ki, xalis daxilolmaların azalması əsasən Ermənistandan xaricə axının artması ilə əlaqədardır. Bunun həmçi 2022-ci ildəki 2,6 milyard dollarla müqayisədə təxminən 55 faiz artaraq 2023-cü ildə təxminən 4,0 milyard ABŞ dolları olub. Halbuki daxilolmalar əvvəlki ildəki 5,2 milyard ABŞ dolları ilə müqayisədə eyni dövrdə cəmi 9,7 faiz artaraq 5,7 milyard ABŞ dolları təşkil edib.

Hayastanda özəl investisiyaların tərkibi və strukturu da çox pis vəziyyətdədir. Xüsusilə 2023-cü ildə yatırılan xarici investisiyaların böyük hissəsi mental filizinin hasilatına və enerji sisteminin payına düşür. Maraqlıdır ki, birbaşa xarici investisiyaların təqribən 70 faizi hazırda iqtisadiyyatı ciddi problemlərlə üzləşən Rusiya Federasiyasından gəlib. Odur ki, hakimiyyətin anti-Rusiya siyasəti ucbatından cari ildə Rusiya şirkətlərinin Ermənistan iqtisadiyyatına aktiv şəkildə sərməyə qoymağa davam edəcəyi ehtimalı çox azdır.

*Elçin CƏFƏROV, "Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Kompüter mərkəzi | - 538-20-87, |
| | | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4304
Sifariş 457

Qiyməti 60 qəpik